Nəzakət İmamverdiyeva
Səbinə Cəfərova
Nərminə Mirzəliyeva

# YENİYETMƏ VƏ GƏNCLƏRİN ASUDƏ VAXTININ TƏŞKİLİ



YENİYETMƏ VƏ GƏNCLƏRİN ASUDƏ VAXTININ TƏŞKİLİ • N.İmamverdiyeva, S.Cəfərova, N.Mirzəliyeva

**AZƏRBAYCAN RESPUBLİKASI**
**ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

**Nəzakət İmamverdiyeva**
**Səbinə Cəfərova**
**Nərminə Mirzəliyeva**

# YENİYETMƏ VƏ GƏNCLƏRİN ASUDƏ VAXTININ TƏŞKİLİ

(Ali məktəblərin magistratura pilləsi üçün)

*BDU Sosial elmlər və psixologiya*
*fakültəsinin Elmi Şurasının 8 fevral*
*5 saylı iclasının qərarı ilə çap olunur.*

**B A K I – 2023**

Elmi redaktor: prof. Ləzifə Qasımova

Rəyçilər: prof. Rüfət Hüseynzadə
dos. Elza Mollayeva
p.ü.f.d. Vəfa Çıraqova

**N.İmamverdiyeva, S.Cəfərova, N.Mirzəliyeva**
**“Yeniyetmə və gənclərin asudə vaxtının təşkili”**
*(Ali məktəblərin magistratura pilləsi üçün)*
Bakı, “Füyuzat”, 2023, 136 s.

© **N.İmamverdiyeva, S.Cəfərova, N.Mirzəliyeva**

Bakı, 2023

# MÜNDƏRİCAT

**Ön söz** ........................................................................ 4

**I fəsil. Asudə vaxt anlayışı və onun səmərəli təşkili** ................ 8

1.1. Asudə vaxt anlayışı, mahiyyəti, vəzifələri ............................ 8

1.2. Asudə vaxtın səmərəli təşkilinin şəxsiyyətin təhsil səviyyəsi ilə şərtlənməsi .................................................... 20

1.3. Tərbiyə prosesində yeniyetmə və gənclərin asudə vaxtından səmərəli istifadə edilməsi .................................... 25

**II fəsil. Yeniyetmə və gənclərdə sağlam həyat tərzinin formalaşdırılması yolları** ........................................................ 45

2.1. Müasir dövrdə tələbə gənclərin asudə vaxtdan səmərəli istifadə edilməsi problemi .................................................. 45

2.2. Yeniyetmə və gənclərin ictimai fəallığı problemləri .......... 51

2.3. Asudə vaxt yeniyetmə və gənclərin mənəvi inkişafının amili kimi ................................................................................ 59

2.4. Yeniyetmə və gənclərin fəal həyat mövqeyinin formalaşması ....................................................................... 69

**III fəsil. Yeniyetmə və gənclərin asudə vaxtının təşkilində müxtəlif amillərin rolu** .......................................................... 73

3.1. Asudə vaxtın səmərəli təşkilində ailənin rolu ...................... 73

3.2. Asudə vaxtın təşkilində məktəb və ictimaiyyətin birgə işi .. 84

3.3. Asudə vaxtın səmərəli təşkilində oyunların rolu ............... 122

**Ədəbiyyatlar** ........................................................................ 134

# ÖN SÖZ

Müasir informasiya cəmiyyəti şəraitində şəxsiyyətin, xüsusən yeniyetmə və gənclərin asudə vaxt problemi getdikcə daha böyük əhəmiyyət kəsb edir. Asudə vaxt şəxsiyyətin intellektual və fiziki təmayül və qabiliyyətlərinin inkişafına, sosial tələbatının ödənilməsinə xidmət edir. Bu mənada asudə vaxt, hər şeydən əvvəl, mənəvi, ictimai sərvət meyarıdır.

Tələbələrdən nə üçün asudə vaxtlarını keçirə bilmədiklərini soruşduqda onların cavabları belə oldu: Mənim mühitimdə bu cür fəaliyyətlər üçün heç bir obyekt, avadanlıq, material yoxdur və heç kim məni asudə vaxtlarda necə iştirak etməyimlə bağlı istiqamətləndirmir. Xüsusilə gənclərin asudə vaxtda iştirak etmək üçün birbaşa adamlarının olmadığını bildirmələri onların asudə vaxt təhsilinə və asudə vaxt üzrə məşqçilərə (liderlərə) ehtiyaclarının göstəricisidir. Asudə vaxt liderliyi bu gün bir çox inkişaf etmiş qərb cəmiyyətlərində və ABŞ-da ayrıca bir peşəyə çevrilib və xüsusi təlim tələb edir. Bu liderlər müxtəlif yaş qrupları üçün ixtisaslaşmışdır (uşaqlar, yaşlılar və gənclər üçün ayrıca liderlər var). Onlar qapalı və açıq məkanda bir çox istirahət imkanlarını idarə edir, fərdləri yeni maraqlar əldə etməyə istiqamətləndirir və asudə vaxt qruplarının təşkilinə kömək edir. Bir sözlə, onlar cəmiyyətin bütün təbəqələrinin mənafeyinə rəhbərlik edir və xidmət edirlər. Gənclərimizin asudə vaxtlarından səmərəli istifadə etmək baxımından şüurlu təhsil almadıqları və nəticədə asudə vaxtlarını passiv və fayda-

sız keçirdikləri görünür. Asudə vaxtdan istifadə böyük ölçüdə təhsil problemi olduğundan bu fən ilk növbədə ibtidai və orta məktəblərin kurikuluma daxil edilməlidir. Gənclərin cəmiyyətdə iştirakçı fərdlərə çevrilmələri üçün asudə vaxtların təsirlərindən istifadə edilməlidir.

Şəxsiyyətin səyləri, siyasi-əxlaqi, estetik idealları, baxışları, onların zənginliyi, möhkəmliyi mənəvi fəaliyyətdə üzə çıxır. Deməli, şəxsiyyət yalnız nə etməsi ilə deyil, həm də necə etməsi ilə səciyyələnir. Şəxsiyyəti ən çox yüksəldən onun həyatda necə mövqe tutması, öz həyatını, boş, asudə vaxtını necə keçirməsi ilə ölçülür. Böyük rus sərkərdəsi A.B.Suvorov deyirdi: «Pul qiymətlidir, insan həyatı ondan da qiymətlidir, vaxt isə hər şeydən qiymətlidir».

Asudə vaxt insanın həyat fəaliyyətinin müəyyən növlərini həyata keçirmək üçün – istirahət etmək və əmək prosesində sərf olunmuş enerjisini bərpa etmək üçün, ailədə və yoldaşlarla ünsiyyət etmək üçün, cəmiyyətin və özünün normal fəaliyyətindən ötrü mütləq olan zehni və fiziki qüvvə və qabiliyyətini hərtərəfli inkişaf etdirmək üçün zəruri vaxt məkanıdır.

Bu gün əhalinin, xüsusən yeniyetmə və gənclərin asudə vaxt probleminə diqqətin artması onunla bağlıdır ki, elmi-texniki tərəqqinin sayəsində məhsuldar qüvvələrin inkişafı, yeni təhsil konsepsiyalarının qəbulu, «hafizə məktəbi»ndən «təfəkkür, ağıl və düşüncə məktəbi»nə keçid, yeniyetmə və gənclərin bilik səviyyəsinin, onların mədəni və sosial tələbatlarının ödənilməsi üçün lazımi vaxtın artmasına səbəb

olur. Hazırda həm ümumtəhsil məktəbləri və ali məktəblər (şagirdlər və tələbələr) böyük asudə vaxt kəmiyyətinə malikdirlər. Bu, təbii bir haldır. Bir orta illik gün ərzində yeniyetmə və gənclərin asudə vaxtlarının kəmiyyəti orta hesabla dörd onda altı saata çatır. Beş günlük təhsilə keçmək asudə vaxt saatını daha da artırmışdır.

Yeniyetmə və gənclərin dərsdən sonra müəyyən ev işlərində iştirakından sonra, onların əyləncəsi, istirahəti, öz zehni və fiziki qabiliyyətlərini daha da inkişaf etdirməsi üçün də boş vaxtı qalır ki, bu vaxta asudə vaxt deyilir. Asudə vaxtdan səmərəli, məzmunlu və dolğun istifadə olunması yeniyetmə və gənclərin ideya-siyasi, fiziki, əmək və mənəvi tərbiyə sahəsində qarşıya qoyulan ən ümdə vəzifələrdən biridir. Asudə vaxt yalnız o zaman həqiqətən ictimai-mənəvi sərvət hesab edilə bilər ki, bu vaxtdan insanın, onun qüvvə və qabiliyyətlərinin hərtərəfli inkişafı xeyrinə və beləliklə də bütün cəmiyyətin maddi və mənəvi qüvvəsinin daha da artması xeyrinə istifadə edilmiş olsun. Məhz buna görə də asudə vaxtdan düzgün istifadə edilməsi, asudə vaxt büdcəsinin düzgün bölüşdürülməsi, bütün məktəblilərdə, o cümlədən, yeniyetmə və gənclərdə mənəvi mənafe və tələbatın ödənilməsi imkanlarının təmin edilməsi problemləri hazırda getdikcə daha qlobal problemlərə çevrilir.

Təsadüfi deyildir ki, yeniyetmə və gənclər dərsdən sonra nə ilə məşğul olmaq haqqında düşünməli olurlar. Bunun nəticəsində onlar çox zaman «küçə qrupları», «həyət qrupları» adı altında birləşir, sakit guşələrdən birinə çəkilərək öz vaxtlarını çox mənasız oyunlara sərf edirlər.

Uşaqların nəzarətsiz qalması, müxtəlif qeyri münasib hərəkətlərə meyl etməsi, günlərini boş-boşuna keçirməsi onların şəxsiyyətinin inkişafına, nəzərə çarpacaq dərəcədə, mənfi təsir göstərir. Bu, ilk növbədə, valideynləri düşündürməlidir. Belə hallarda məktəb ailəyə köməyə gəlməli, ailəni uşağın tərbiyəsinə cəlb etmək üçün yeni, təsirli yollar və üsullar axtarmalıdır.

Təbii ki, yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkilində ailənin, ailədənkənar şəraitin, yaşayış yerlərinin, məktəbdə, dərsdənkənar vaxtda keçirilən tərbiyəvi tədbirlərin və məktəbdənkənar müəssisələrin rolu xüsusilə böyükdür.

Elmi və bədii əsərlərin mütaliəsi, televiziya verilişlərinə tamaşa, muzey və sərgilərdə olmaq, klubların və mədəniyyət evlərinin işində iştirak, kino, teatr, konsertə getmək, idmanla, bədii yaradıcılıqla və s. məşğul olmaq yeniyetmə və gənclərin asudə vaxt strukturunda mühüm yer tutur.

Yeniyetmə və gənclərin ailədə, məktəbdə asudə vaxtı elə təşkil edilməlidir ki, bu, onların fiziki inkişafına, ideyaca zənginləşməsinə, yüksək mədəni tələbatın və estetik zövqün formalaşmasına, vətən və dünya mədəniyyətinin ən yaxşı nailiyyətlərinə qovuşmasına kömək etmiş olsun.

# I FƏSİL
# ASUDƏ VAXT ANLAYIŞI VƏ ONUN SƏMƏRƏLİ TƏŞKİLİ

## 1.1. Asudə vaxt anlayışı, mahiyyəti, vəzifələri

Bu gün ölkəmizdə uğurlu gənclər siyasəti həyata keçirilir. Bu siyasət, eyni zamanda, müasir dövrün tələblərinə və reallığına uyğun olaraq keyfiyyətcə yeni bir mərhələyə qədəm qoyub. Məsələnin məğzi ondadır ki, son dövrlər dövlət yeniyetmə və gənclərin məzmunlu istirahətinə dəstək verir, onların asudə vaxtlarının səmərəli təşkili üçün yeni-yeni layihələrlə çıxış edir.

Son illərdə yeniyetmə və gənclərlə bağlı atılan addımlar, görülən real işlər, qəbul edilən Dövlət proqramları («Azərbaycan gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər», «Azərbaycan gəncliyi 2010-2015-ci illərdə Dövlət Proqramı», 2015-2025-ci illər üçün gənclərin İnkişaf Strategiyası», «Azərbaycan 2020: Gələcəyə Baxış» inkişaf Konsepsiyası, "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı") və bu sahədə həyata keçirilən digər layihələr gənclərin hərtərəfli inkişafının təmin olunması işini, sosial-iqtisadi, təşkilati təminatların yaradılmasını xeyli sürətləndirib, onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilən "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair

2022-2026-cı illər üçün Dövlət Proqramı”nın əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil alma imkanları yaratmaqla, onların Azərbaycan Respublikasının gələcək inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək müasir texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrlar kimi hazırlanmasını təmin etməkdir.

Qəbul edilən Dövlət Proqramlarında göstərilir: «Gənclərin asudə vaxtlarını səmərəli təşkil etmək, onların qabiliyyət və istedadlarını müəyyənləşdirib, düzgün istiqamətləndirmək, onlarda təlimə və ictimai işlərə marağı artırmaq, bir sözlə, gəncləri ictimai həyata və istehsal əməyinə hazırlamaq, onların yaradıcılıq potensialını ölkənin inkişafına və ümummilli problemlərin həllinə səfərbər etmək əsas istiqamətlər kimi müəyyən olunmalıdır».

Heç də təsadüfi deyildir ki, bu gün ölkəmizdə gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Yeniyetmə və gənclər (yaş xüsusiyyətlərinin zəruri tələbatı kimi) ictimai həyatımızın bütün sektorlarında aktiv fəaliyyətləri ilə seçilirlər. Onlar iqtisadi, humanitar və sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Eyni zamanda, son bir neçə il ərzində bilavasitə gənclərlə bağlı xeyli sayda normativ sənədin qəbul olunması ölkəmizdə gənclərlə iş sahəsində, gənclərin sosial-iqtisadi inkişafına, onların asudə vaxtlarının səmərəli təşkilinə yönəldilmiş mükəmməl qanunvericilik bazasının formalaşdırıl-masından xə-

bər verir. Bu gün yeniyetmə və gənclərin asudə vaxtının (istirahətinin) səmərəli təşkil olunması da dövləti ciddi düşündürən bir məsələdir. Yeniyetmə və gənclərin asudə vaxt büdcəsindən səmərəli və ağılla istifadə edilməməsi müxtəlif mənfi fəsadlara gətirib çıxara bilir. Bəzən asudə vaxtın çoxluğu yeniyetmə və gənclərin zərərli vərdişlərə meyl etməsinə səbəb olur. Son vaxtlar yeniyetmə və gənclərlə bağlı yürüdülən siyasət çərçivəsində Bakıda və iri şəhərlərdə, bölgələrdə inşa edilən Olimpiya idman kompleksləri, «Gənclər evləri»nin və Gənclər fondunun yaradılması məhz, bu məqsədlərə xidmət göstərir.

Sözsüz ki, dövlət tərəfindən yeniyetmə və gənclərin asudə vaxtlarının (istirahətinin) səmərəli təşkili ilə bağlı həyata keçirilən tədbirlərin və verilən dəstəyin onların milli-mənlik şüurunun inkişafına və vətənpərvərlik hisslərinin artmasına böyük təsir göstərir. Bu dəstək yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli, gənclərlə işin yeni müstəvidə qurulmasına, onların ictimai həyatın bütün sahələrində fəal iştirakına zəmin yaradır.

Bəs asudə vaxt özü nədir, o cəmiyyət üzvlərinin, xüsusən yeniyetmə və gənclərin mənəvi tərbiyəsi, fəal həyat mövqeyinin formalaşması ilə nə dərəcədə bağlıdır? Bütünlükdə cəmiyyətin, vətəndaşların inkişafı asudə vaxtın kəmiyyət və keyfiyyətindən, məzmunundan asılıdırmı?

Hazırda şəxsiyyətyönümlü təhsil və tərbiyə ailə, məktəb və ictimaiyyət qarşısında şagirdlərin əlverişli sosial inkişaf şəraiti ilə bağlı olaraq bir sıra vəzifələr qoyur. Bu vəzifələr-

dən biri də hələ kiçik yaşlardan uşaqlarda öz vaxtını düzgün bölüşdürmək, fəaliyyətin məhsuldarlığını təmin etmək bacarığı formalaşdırmaqdır. Öz vaxtından səmərəli istifadə etmək zərurəti müasir təlimin inkişafetdirici tələblərindən irəli gəlir. Belə ki, hər bir yaş dövründə şagird ona tapşırılan, qoyulmuş tələbləri yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etməlidir.

Asudə vaxt bir sıra parametrləri ilə səciyyələnir:

- Asudə vaxt sosial kateqoriya kimi öz ölçüsünə (həcminə), məzmununa və formasına (quruluşuna) malikdir.

- Asudə vaxtın həcmi fəaliyyət prosesinin müddətinin davamlılığından bu müddətdə sərf olunan fiziki və intellektual gücdən, zəhmətdən asılıdır.

- Şagirdin təlimə sərf etdiyi vaxt nə qədər azdırsa, onun asudə vaxtı bir o qədər çox olur. Bu baxımdan təlim fəaliyyətinin bir sıra elementlərini, hisslərini asudə vaxta gətirməklə onların məzmunu arasında inteqrasiya yaratmaq mümkündür. Bu ya yaşlılar, ya da şagirdin özü tərəfindən könüllü qaydada həyata keçirilə bilər. Asudə vaxtın müddəti şagirdin təlim tapşırıqlarını yerinə yetirdiyindən sonra qənaət hesabına qazandığı vaxt qədərdir.

Asudə vaxt dedikdə aşağıdakı məsələlər nəzərdə tutulur:

- Dərsdən sonrakı vaxt, tapşırıqların həllindən sonra, yaxud fasilələrdə boş qalan vaxt (istirahətə saxlanılan) vaxt;

- Şənbə və istirahət günləri, bayram günləri, yay tətili;

- Asudə vaxt və məhsuldar fəaliyyət arasında asılılıq vardır;

- Asudə vaxtda uşağın fəaliyyəti nə qədər yaxşı təşkil olunmuşdursa, daha effektivlidirsə, məhsuldar fəaliyyətdə yaranmağa başlayan vərdiş və bacarıqlar daha yaxşı formalaşacaqdır. Çünki asudə vaxtın özü qabiliyyətlərin inkişafı üçün təcrübədir. Vərdişlər isə, təbii ki, təcrübədə formalaşır.

- Asudə vaxta əsasən, təlimdənkənar təşkil edilən əyləncə, oyun, gəzinti, görüşlər və s. daxil edilir. Asudə vaxt bilavasitə, məhsuldar fəaliyyətlə şərtlənməyən, uşaqda məmnunluq, azadlıq hissi yaradan, yaşadan zaman kəsiyidir. Belə vaxt rahatlıq üçün ayrılır, uşaq tam olaraq məhsuldar fəaliyyətlə yüklənmir. Bu vaxt azad fəaliyyət və inkişaf üçün üfüqlər açır.

Asudə vaxt təkcə istirahət etmək, əylənmək deyil, həm də Marksın təbirincə desək, «şəxsiyyətin inkişafı üçün bir növ məkan deməkdir». Bu «məkanın» genişlənməsi ilə birlikdə bütün cəmiyyət üzvlərinin mədəniyyət nemətlərindən istifadə etmək, təhsil almaq, müxtəlif elmi, texniki və bədii yaradıcılıq sahələrində sevdikləri işlə məşğul olmaq, mənəvi və intellektual imkanlarının artması üçün lazım olan bütün tədbirlərin görülməsidir.

Asudə vaxt cəmiyyətin mənəvi sərvətinin mühüm formalarından biridir. Asudə vaxt yeniyetmə və gənclərin həyat fəaliyyətinin müəyyən növlərini (haqqı ödənilmək tələbatı olmadan) həyata keçirmək üçün istifadə etmək, ailədə və yoldaşlarla ünsiyyət qurmaq, gərgin zehni əməyə sərf olunmuş qüvvələri bərpa etmək, yaşadığı cəmiyyətin həyatında normal iştirakdan ötrü mütləq olan, fiziki və zehni qüvvə və

bacarıqlarını hərtərəfli inkişaf etdirmək üçün əlverişli imkandır.

Ölkə vətəndaşlarının asudə vaxtdan məzmunlu istifadə etməsi zərurəti Azərbaycan Respublikası Konstitusiyasının (1995) otuz yeddinci maddəsində təsbit edilmişdir.

Asudə vaxtdan səmərəli istifadə olunması yeniyetmə və gənclərin həyat səviyyəsinin kompleks göstəricisidir. Şəxsiyyətin formalaşmasında canlı, yaradıcı proses, həyatın bütün sahələrini əhatə edir. Yeniyetmə və gənclərin dünya, cəmiyyət, insan və təfəkkür hadisələri biliklərin genişlənməsi, ideya-siyasi və mənəvi səviyyəsinin yüksəlməsi, yenilik axtarışlarında zövqünün kamilləşməsi, bədii yaradıcılıq, bədən tərbiyəsi və idmanla məşğul olmasında asudə vaxtdan düzgün istifadə etməsi və asudə vaxt mədəniyyətinə riayət etməsi xüsusi əhəmiyyət kəsb edir.

Yeniyetmə və gənclərin ümumi mədəni səviyyəsi öz əksini asudə vaxt mədəniyyətində tapır. Asudə vaxt milli-mənəvi sərvətdir. Yaxşı olar ki, bu zəngin sərvətdən hami eyni dərəcədə istifadə etsin. Asudə vaxtdan məhsuldar istifadə etmək, onu həm cəmiyyətin, həm də şəxsiyyətin formalaşmasına sərf etmək, fərdin özündən daha çox asılıdır. Bu fikri xalq deyimləri də təsdiq edir. Xalqa görə, «hamı vaxta baxır, vaxt isə heç kimə baxmır». Yeniyetmə və gənclər onun hər dəqiqəsinin qədrini bilməlidir. Elə yaşamaq lazımdır ki, sonralar bol keçən günlər üçün heyfslənməyəsən.

Müasir şəraitdə asudə vaxtın müəyyən bir hissəsinin yalnız passiv müşahidəyə, xalis əylənməyə sərf edilən hissəsi-

nin getdikcə azalmasına doğru yönəldilmiş meyl özünü açıq şəkildə göstərməkdədir. İstirahətin obyektiv məqsədi şəxsiyyətin fiziki və zehni qüvvələrinin bərpası, qabiliyyətlərinin daha da təkmilləşdirilməsidir.

Asudə vaxtdan səmərəli istifadə etməklə, istirahətin müxtəlif növlərini düzgün əlaqələndirə bildikdə, insanı ünsiyyət və fəaliyyət normalarına, asudə vaxt mədəniyyətinə ciddi əməl etdikdə həmin məqsədləri reallaşdırmaq mümkündür. Asudə vaxtı mənasız, xudbin təsəvvürlərə qapılmaq deyil, məhz özünü təkmilləşdirmək, kollektivin qayğısına qalmaq, cəmiyyətə fayda vermək istiqamətinə yönəltmək zəruridir.

Asudə vaxt yeni iş günü, iş həftəsi üçün xoş əhvali-ruhiyyə yaradır, sabahımızın daha gözəl, daha mənalı olması üçün zəmin yaratmağa imkan verir. Həqiqətən də necə istirahət ediriksə, eləcə də işləyirik və yaşayırıq.

Asudə vaxt konkret tarixi məzmuna malik olan sosioloji kateqoriyadır. Bu anlayış digər anlayışlarla, məsələn, cəmiyyətin həyat tərzi, şəxsiyyətin mənafeyi və tələbatı kimi anlayışlarla sıx bağlıdır. İnkişaf etməkdə olan ölkəmizdə vətəndaşların həyat tərzi asudə vaxtın yaradıcılıq məzmununu müəyyən edir. Ölkə vətəndaşlarının mənəvi tələbatı (asudə vaxt özü elə mənəvi tələbatdır) cəmiyyətimizin real gerçəkliyinin, ictimai mühitin, dövlət idarələrinin, həmkarlar birliklərinin, məktəb və gənclər birliklərinin, gənclik təşkilatlarının, yaradıcı ittifaqlarının və birliklərinin ideya tərbiyəsi işinin təsiri altında formalaşır. Bu təşkilat və birliklər yeniyetmə və gənclərin asudə vaxtlarının xarakterinə və məzmunu-

na həlledici təsir göstərir.

Yeniyetmə və gənclərin asudə vaxtdan səmərəli istifadə etməsi bir sıra obyektiv və subyektiv amillərdən asılıdır. Müasir dövrdə vətəndaşların asudə vaxt probleminə diqqətin artırılması, birinci növbədə, elmi-texniki tərəqqinin inkişafı, dünyada qloballaşmanın baş verməsi, ictimai münasibətlərin inkişafı, vətəndaşların həyat səviyyəsinin yüksəlməsi, onların təhsil səviyyəsinin, mədəni və sosial tələbinin ödənilməsi üçün lazımi vaxtın artırılması ilə, digər tərəfdən, əhalinin, xüsusən yeniyetmə və gənclərin biliyinin və gələcək ixtisaslarının indiki səviyyəsinin, təhsildə innovasiyaların, yeni təlim və tərbiyə texnologiyalarının inkişaf səviyyəsi, yeni düşüncə və təfəkkür məktəbinin tələbləri ilə əlaqədardır. Ümumtəhsil və ali məktəblərdə beş günlük təhsil həftəsinə keçidlə əlaqədar olaraq təhsil günləri ilə istirahət günləri arasında həftəlik asudə vaxt fondunun bölgüsü xeyli dəyişmişdir. Əgər altı günlük təhsil həftəsində yeniyetmə və gənclərin ümumi asudə vaxtın təqribən bir onda üç, bir onda dörd hissəsi istirahət gününə düşürdüsə, beş günlük təhsil həftəsi şəraitində ümumi asudə vaxtın təqribən yarısı istirahət gününə düşür. Ölkəmizin bütün əhalisinin (on iki yaşdan yuxarı) ümumi vaxt fondunda asudə vaxt təqribən iyirmi faiz təşkil edir. Bu, geniş sosial bir haldır. Bu, yeniyetmə və gənclərdə öz ümumi vaxt fondundan asudə vaxtdan səmərəli istifadə etmələrinə stimul verir. Hazırda təkrar, paralel məşğələ kimi asudə vaxtın olduqca çoxalması hər gündə üç, həftədə isə yeddi-səkkiz, il ərzində isə 1800 saata çatır. Bu isə, öz növbəsində, yeniyetmə və gənclərin asudə vaxtdan daha səmərə-

li istifadə etməsinə şərait yaradır. Bu asudə vaxtın strukturuna da müəyyən qədər təsir göstərir. Son illərdə asudə vaxtın artması ilə yanaşı, ondan istifadə edilməsinin strukturu da dəyişir. Bu onun nəticəsidir ki, bir tərəfdən bütün ölkə əhalisinin mədəni səviyyəsinin yüksəlməsi, onların mənəvi və fiziki tələbatlarının artması, digər tərəfdən isə, zəhmətkeşlərin, xüsusən yeniyetmə və gənclərin asudə vaxtının keçirilməsini təmin edən maddi bazanın daha da inkişaf etdirilməsidir.

Asudə vaxtın təmin edilməsinin maddi bazasının inkişafının, öz təbiətindən doğan mürəkkəb şərtləri vardır. Asudə vaxtın keçirilməsinin ictimai formaları ilə şəxsi formaları arasında səmərəli uyğunluğun yaradılması o qədər də asan məsələ deyildir. İctimai, maddi bazanın mərkəzləşdirilməsi, müxtəlif idarələr və təşkilatlar arasında səpələnməsi daha məqsədə uyğundur, yoxsa asudə vaxtın müxtəlif növlərindən istifadə olunmasını necə təşkil etmək?

Asudə vaxtın yüksək səviyyədə keçirilməsinin təmin edilməsinin obyektiv şərtləri ilə yanaşı, subyektiv amilləri də vardır. Təbii ki, asudə vaxtın artması bir sıra səbəblər üzündən, görünür, yeniyetmə və gənclərin təhsil səviyyəsinin, onun öz asudə vaxtından daha səmərəli istifadə etmək bacarığının yüksəlməsini qabaqlayır. Bu da, öz növbəsində, asudə vaxtın artması ilə, bundan ötrü tələb olunan sosial şərait və asudə vaxtdan səmərəli istifadə etmək qabiliyyəti və bacarığı arasında ziddiyyətin əmələ gəlməsinə səbəb olur. Asudə vaxtdan səmərəli istifadə edilməsinin müxtəlif mövcud təzahürləri (vaxtın boş-boşuna keçirilməsi, asudə vaxt məş-

ğələlərinin birtərəfli xarakter daşıması və s.) bu ziddiyyətin nəticəsidir. Tədqiqatlar göstərir ki, bir çox şəhər və rayon məktəblərində, hətta ali məktəblərdə, yeniyetmə və gənclərin asudə vaxt fondundan səmərəli istifadə etmək üçün lazımi bacarıqları yoxdur. Onlar öz asudə vaxtlarını və istirahətini necə gəldi, təsadüfdən-təsadüfə keçirirlər. Təbii ki, şəhər məktəblərində, bölgə məktəbləri ilə müqayisədə asudə vaxtın müxtəlif növləri ilə məşğul olmağı bacaranların sayı bir qayda olaraq çoxdur. Lakin onların da arasında bir çoxlarının lazımi bacarıqları yoxdur. Asudə vaxtın artdığı bir şəraitdə yeniyetmə və gənclərin asudə vaxt qabiliyyətləri və bacarıqlarının artırılması cəmiyyətin mühüm sosial vəzifəsidir.

Yeniyetmə və gənclərin asudə vaxtının keçirildiyi şərait ilə bu vaxtın idarə olunması problemi ilə sıx əlaqədardır. Şəhər və kənd məktəblərində, ailədə, ailədən kənarda, dərsdənkənar və məktəbdənkənar yerlərdə asudə vaxtın idarə olunması problemin, asudə vaxtın bölüşdürülməsi, ondan səmərəli istifadə olunmasının təmin edilməsi və s. mühüm yerlərdən birini tutur. Bütün bunlarla yanaşı tam bir sıra məsələlər də qarşıya çıxır, asudə vaxtın bölüşdürülməsini və ondan səmərəli istifadə olunmasını kim və necə, hansı yollarla idarə edə bilər.

Şübhəsiz, asudə vaxtın idarə olunması vəzifələrindən biri, bəlkə də əsası, bütün məktəblilərin, xüsusən yeniyetmə və gənclərin asudə vaxtdan istifadə edilməsinin keyfiyyətcə yüksəldilməsindən ibarətdir. Təbii ki, bu da yeniyetmə və gənclərin asudə vaxt fondundan maddi, təşkilat və ideoloji

cəhətdən təmin edilməsini daha da təkmilləşdirməyi tələb edir.

Bu da məktəblilərin təlimi ilə asudə vaxtın qarşılıqlı əlaqəsinin vacibliyini önə çəkir. Bu əlaqələrin düzgün təşkili böyük nəzəri və praktiki əhəmiyyət kəsb edir. Bütün məktəblilərin, xüsusən yeniyetmə və gənclərin asudə vaxt balanslarının təhlilindən belə nəticəyə gəlmək olar ki, asudə vaxt fondunun artması prosesdə asudə vaxtın təmin olunmasına sərf edilən iş fondunun azalmasını deyil, çoxaldılmasını tələb edir.

Yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkili və keyfiyyətinin yüksəldilməsi lüzumu onların asudə vaxtının elmi təşkili ilə bilavasitə bağlıdır. Ona görə də, bu sahədə qabaqcıl təcrübə öyrənilib, ümumiləşdirilməli və fasiləsiz olaraq dövrü mətbuatda işıqlandırılmalı, asudə vaxtın elmi təşkilinə dair dərsliklər, tədris vəsaitləri, kütləvi kitabçalar və s. hazırlanmalıdır. Asudə vaxtın yeni nizamnaməsinin hazırlanması, onun ən mühüm funksiyaları: istirahət hüququ və onun təminatı, yeniyetmə və gənclərin asudə vaxtının gündəlik, həftəlik və illik müddəti, bu işi təşkil və idarə edən təşkilatların funksiyaları, asudə vaxtın keçirilməsinin əsas sosial normaları və s. əks etdirilməlidir.

Nizamnamə və əsasnamədə bir sıra müddəalar öz əksini tapmalıdır:

- Asudə vaxt anlayışı, onun strukturu və funksiyaları;
- Asudə vaxtın elmi təşkilinin mahiyyəti, vəzifələri və məzmunu:

- Asudə vaxtın keçirilməsinin sosial normaları;
- Gündəlik, həftəlik və illik istirahətin rejimi;
- İstirahətin şərtləri;
- İstirahət sahəsinin strukturu və bu sahəyə daxil olan idarə və müəssisələrin funksiyaları;
- İstirahətin təşkilinin planlaşdırılması və metodları;
- Asudə vaxtdan səmərəli istifadə edilməsinin stimullaşdırılması;
- Asudə vaxtın elmi təşkilinin – məktəbdə, ailədə, yaşayış yerində, şəhər və bölgələrdə tətbiqi sahəsində lazımi iş aparılması.
- Ailədə vaxtdan istifadə edilməsinin öyrənilməsi və təhlil olunması metodları.

İstirahətin nizamnaməsi və asudə vaxtın elmi təşkilinə dair göstərilən müddəalar bir-birini tamamlamalıdır. Nizamnamədə mövcud istirahət hüquqlarını, bu hüquqların sosial təminatlarını əks etdirmək, habelə ən yaxın və daha uzaq perspektivdə bu sahədə sosial məqsədləri ifadə etmək üçün zəruridir. Asudə vaxtın elmi təşkili sənədində isə bu və ya digər şəraitdə asudə vaxtın, o cümlədən istirahətin təşkili və planlaşdırılmasının ən səmərəli metodlarını və təcrübəsini əks etdirmək və bunların həm məktəbdə, ailədə, ailədən kənar şəraitdə, dərsdənkənar və məktəbdənkənar şəraitdə tətbiq edilməsi zəruridir.

## 1.2. Asudə vaxtın səmərəli təşkilinin şəxsiyyətin təhsil səviyyəsi ilə şərtlənməsi

Yeniyetmə və gənclərin təhsil səviyyəsi onların asudə vaxtlarının strukturuna məqsədyönlü təsir edir. Yeniyetmə və gənclərin asudə vaxtında təhsilin rolunun artmasına və asudə vaxt strukturuna onun təsirinin güclənməsinə dolayı yolla – asudə vaxtın müxtəlif növlərində idrak fəaliyyətinin ünsürlərinin geniş miqyasda tətbiqi yolu ilə, yəni asudə vaxtı bir növ intellektuallaşdırmaq yolu ilə nail olmaq mümkündür.

Pedaqogika elmində çoxlu sayda təlim-tərbiyə metodları müəyyən edilmiş və onların təsnifatı verilmişdir. Y.A.Komenskidən başlamış bu günə kimi pedaqogikada belə qəbul olunmuşdur ki, təlim-tərbiyə metodları pedaqoji prosesin qanunauyğunluqları və prinsiplərini əks etdirir.

Asudə vaxt, fəaliyyətin xüsusi forması kimi təlim və tərbiyə ilə üzvü surətdə əlaqədardır. O, bir tərəfdən yeniyetmə və gənclərdə bu və ya digər hadisələr haqqında təsəvvürləri formalaşdırır, müəyyən bacarıq və vərdişləri inkişaf etdirir, digər tərəfdən isə şəxsiyyətdə mənəvi keyfiyyətləri – məqsədyönlülüyü, idrak fəallığını formalaşdırır, uşaqlarla qarşılıqlı əməkdaşlığa kömək edir.

Asudə vaxtın təşkilində inandırma, özünə inam, stimullaşdırma, emosional sferasına təsir, təlqin, oyun teatrlaşdırma, yarış, tələb, iradə sferasına təsir, əməkdaşlıq, tərbiyəedici situasiyalar, qabaqcadan hazırlanmış bilavasitə və bilvasitə təsir, korreksiya, çalışmalar, iki mümkün qərardan birini qəbuletmə və özünüifadə üsullarından istifadə olunur.

İnandırma üsulu yeniyetmə və gənclərin şüuruna, əqidəsinə, hisslərinə, ağlına, düşüncələrinə təsir olub, diskussiyaların aparılmasında, hər hansı bir bədii əsərin müzakirəsində istifadə olunur. İnandırma sözlə təsir metodudur. Kinofilmlərin müzakirəsində, müxtəlif mövzularda disputların keçirilməsində inandırma üsulundan istifadə etmək sərfəli nəticələr verə bilər. İnandırma özünəinamla tamamlanır, hər hansısa sosial problemin axtarışında yeniyetmə və gənclərdə kompleks baxışların, münasibətlərin, məntiqi nəticələrin formalaşdırılmasında böyük əhəmiyyət kəsb edir.

Yeniyetmə və gənclərin asudə vaxtında onların emosional sferasına təsir metodu, onlarda özlərinin hisslərini, özlərinin emosional halətlərinin səbəbini dərk edib, idarəetmələrində ifadə olunur. Yeniyetmə və gənclər asudə vaxtın və istirahətinin təşkilindən fərəh hissi keçirir, özlərini gümrah hiss edirlər.

Təlqin – psixoloji metod olub, yeniyetmə və gənclərin emosional sferasına təsir edir, onların öz rəftar və davranışlarını nəzarətdə saxlamasına, bunlarla bağlı olan emosional halətləri ilə yaşamalarına şərait yaradır.

S.A.Şmakov asudə vaxtın təşkilinin aşağıdakı metodlarının təsnifatını vermişdir.

Buraya o, oyun, teatrlaşdırma metodlarını, yarış, əməkdaşlıq, tərbiyəedici situasiyalar və imprevizasiya (əvvəldən hazırlanmış, ekspromt) üsulları daxil olur.

- Oyun metodu, uşaqların, yeniyetmə və gənclərin marağına əsaslanır və onların psixi funksiyalarının inkişafına xid-

mət edir. Oyun metodu oyun və oyun treninqlərində reallaşır. Oyun uşaq, yeniyetmə və gənclər üçün əsas fəaliyyət sahəsi hesab olunur. Nağıl, multfilm formalarında təşkil olunan oyun dəfələrlə təkrar olunaraq uşaqlar üçün tərbiyəedici treninq kimi çıxış edir. Oyun yeniyetmə və gənclərdə simpatiya, antipatiya münasibətlərini müəyyən edir. «Üçüncü artıqdır», «Bağban» oyunları bu mənada çox əhəmiyyətlidir. «Nə, harada, nə vaxt», «Pole çudes» oyunları yeniyetmə və gənclərin bilik və intellektual gücünü nümayiş etdirir. Oyun həm də onlarda çeviklik, hərəkətlərini koordinasiya etmək qabiliyyətlərini inkişaf etdirir.

- Teatrlaşdırma-səhnələşdirmə yeniyetmə və gənclərdə yaradıcı təxəyyülü inkişaf etdirir. Səhnələşdirmə oyun şəraitinin yaranmasına kömək edir, yeniyetmə və gənclərin adi vəziyyətdən uzaqlaşmasını asanlaşdırır, oyunu təşkil edərək onu pedaqoji nöqteyi-nəzərdən lazımi məcraya yönəldir, onu təkcə oyunçu üçün deyil, tamaşaçılar üçün də estetik sərvət olan bədii əsərə yaxınlaşdırır. Səhnələşdirilmiş tamaşada «aktyorla» tamaşaçı arasında, yaradıcılıqla həyati hadisə arasında sədd qoyulmur, əksinə, ünsiyyət formalaşır. Səhnələşdirilmiş oyun - yeniyetmə və gənclərin xüsusi oyun tərzi ilə tərtib edilmiş fraqmentdir. Rolları olan səhnələşdirilmiş oyun sərbəst həyata keçirilən bir zərurət kimi davranışın formalaşdırılması metodudur.

- Yarış metodu yeniyetmə və gənclərdə fiziki aktivliyi, cəldliyi, rəqiblə sağlam rəqabət aparmaq keyfiyyətlərini inkişaf etdirir, liderlik keyfiyyətini formalaşdırır. Yarış kollek-

tivdə yeniyetmə və gənclərin fəaliyyətini təşkil etməyin və onu stimullaşdırmağın başlıca metodudur.

Tərbiyə metodu kimi o yeniyetmə və gəncləri sinif və ya kollektiv, ya məktəb kollektivində öz yerini tapmağa, seçilməyə çalışır və bu məqsədə çatmaq üçün səy göstərir, məşqlər edir, öz üzərində çalışır, mənalı istirahətə meyl edirlər.

- Tərbiyəedici situasiya – xüsusi yaradılmış şəraitdə yeniyetmə və gənclərin fəaliyyətinin, davranışının təşkili metodudur. Situasiyalar uydurulmuş olmamalıdır. Məktəb həyatında situasiyalar hər addımbaşı yaradılır.

- Əməkdaşlıq yeniyetmə və gənclərin yaşlılarla ənənəvi əməkdaşlığına əsaslanır. Buraya birlikdə mühakimələri, diskussiyaları, fəallaşdırıcı ünsiyyəti daxil etmək olar. Yeniyetmə və gənclər müəllimlərlə və başqa adamlarla bərabər hüquqlu münasibətə girirlər. Pedaqoq və uşaqlar məktəb klubunda səhnələşdirilmiş tamaşalarda, xırda yaradıcı birliklərdə bərabərhüquqlu demokratik və humanist ünsiyyətə girirlər. Asudə vaxtın kollektiv təşkilində qarşı tərəf kimi iştirak edirlər.

- Tələb - Qoyulmuş  qaydaların icrasını tələb etmək və onun icrasında axıra qədər təkid etməklə bağlıdır. Tələb müstəqil, dolayı, bilavasitə və bilvasitə ola bilər. Bilavasitə tələblər əmrlər, göstərişlər halında çıxış edir, onlar yeniyetmə və gənclərə işgüzar, qəti tonda təklif olunur, çox vaxt təlimati xarakter daşıyır. Bilvasitə verilən tələblər tərbiyəçinin avtoritar mövqeyini gizlədir, məsləhət, xahiş, tələb etibar, tələb təqdir, tələb oyun, tələb eyham formalarında verilir.

Tərbiyə üsullarında tərz (priyom) anlayışından da istifadə olunur. Tərz üsulu tərkib hissəsi kimi, üsulu aktivləşdirir. Pedaqoji tərzlərə yeniyetmə və gənclərdə kommunikativ bacarığı formalaşdırır. Buraya «Rollu maska», «Fikirlərin dayanmadan estafeti», «Özünü stimullaşdırma», «Sərbəst mövzuda improvizasiya», «Təklif olunan temanın improvizasiyası», «Ziddiyyətlərin aradan qaldırılması» və s. tərzlər daxil edilir.

- «Rollu maska». Yeniyetmə və gənclərə bir neçə rol tapşırılır. Yeniyetmə və gənclər rollarda öz adından deyil, personajın adından çıxış edir, rolları bölür, mövzuları korreksiya edir,

- fikirlərin, rəylərin dayanmadan estafeti – uşaqlar irəli sürülən mövzu haqqında fikirlərini bir-birinə ötürür. Biri başlayır, o biri davam etdirir, üçüncü dəqiqləşdirib tamamlayır.

- Özünüstimullaşdırma – Uşaqlar qruplara bölünür. Onlar bir-biriləri üçün müəyyən qədər suallar hazırlayırlar. Suallar kollektiv müzakirə olunur. Müəllim-tərbiyəçi yeniyetmə və gəncləri təlimatlandırır, rolları bölür, təşəbbüsləri müəyyən edir, funksiyaları göstərir, ünsiyyəti aktivləşdirir.

- Dilemma metodu. Yeniyetmə və gənclərin asudə vaxtını təşkil edərkən bu metoddan istifadə olunur. Uşaqlar hər hansı əxlaqi dilemi birlikdə müzakirə edirlər.

Dilemma mənəvi keyfiyyətlərin seçimi situasiyasıdır.

Uşaqlar hər bir suala öz mövqelərini bildirir.

Hər bir dilemmada insanın dəyər oriyentiri öz əksini tapır.

Hər bir müəllim:

- yeniyetmə və gənclərin real həyat tərzinə münasibətini bildirməlidir.

- Ola bilər qurtarmasın.

- Əxlaqın məzmununa aid bir neçə sualın daxil edilməsi,

- Elə etmək lazımdır ki, uşaqlar mərkəzi sualı qiymətləndirə bilsinlər, uşaqlar suallara cavabın variantlarını müəyyən etməlidirlər. Məsələn: «Baş qəhrəman özünü necə aparmalıdır?». Belə dilemmalara sinifdə mübahisə yaradır, hərə öz fikrini sübut etməyə çalışır.

Yeniyetmə və gənclərin asudə vaxtını təşkil edərkən müəllim təlim və tərbiyənin göstərilən metodlarını yaradıcılıqla modelləşdirə bilməlidir. Asudə vaxt fəaliyyətinin məzmununa uyğun seçilməli, asudə vaxtın forması və iştirakçıların yaşı nəzərə alınmalıdır. Asudə vaxt fəaliyyəti əməkdaşlıq, humanistlik əsasında qurulmalıdır.

## 1.3. Tərbiyə prosesində yeniyetmə və gənclərin asudə vaxtından səmərəli istifadə edilməsi

Asudə vaxt çoxamilli, çoxplanlı bir problemdir. Asudə vaxtın istiqamətinin düzgün müəyyənləşdirilməsi və qiymətləndirilməsi zəruri məsələdir. Asudə vaxtın istiqamətləri aşağıdakılardır:

- Asudə vaxtın ictimai-siyasi istiqaməti; (ictimai fəallıq, ideya-siyasi fəallıq, mənəvi həyat sahəsində fəallıq, fəal həyat mövqeyi, əmək fəallığı – ictimai iş və s).

- Asudə vaxtın mədəni istiqaməti (mütaliə, tamaşalar, təhsil, sevimli məşğələlər, mühazirələrdə iştirak, lektoriyalar).

- Asudə vaxtın mənəvi inkişaf istiqaməti. Asudə vaxt mənəvi tərbiyənin və mənəvi inkişafın mühüm amilidir.

Asudə vaxtın təşkilinin təkmilləşdirilməsi cəmiyyətin sosial siyasəti ilə şərtlənməlidir. Asudə vaxt şəxsiyyətin mənəvi tərbiyəsinin, mənəvi inkişafının mühüm istiqaməti kimi səciyyələnir. Şəxsiyyətlər arasında sadəcə ünsiyyət və bununla əlaqədar əyləncələr də asudə vaxtın zəruri ünsürüdür. Asudə vaxtda ünsiyyət yeniyetmə və gənclər üçün sosiallaşma amilidir. Asudə vaxtda ünsiyyət və əyləncələrin maddi-təşkilat bazasının inkişafı, bu istiqamətdə klubların, mədəniyyət və istirahət parklarının imkanları, bütünlükdə məişət və asudə vaxt mədəniyyətini, əmək mədəniyyətini, eyni zamanda, mənəvi mədəniyyəti yüksəltmək vacib məsələ kimi gündəmdə qalmalıdır.

Məlumdur ki, şəxsiyyətin inkişafı və formalaşmasında zaman ölçüləri xüsusi əhəmiyyət kəsb edir. Təbii ki, bu ölçülər dövrün, zamanın tələbini əks etdirir. Bunların əsas istiqamətlərindən biri, bəlkə də əsası şəxsiyyətin asudə vaxtı və normal istirahəti ilə bağlıdır.

Bu vacib problem ayrı-ayrı dövrlərdə elm və pedaqoji fikir korifeylərini (Y.A.Komenski, İ.H.Pestalossi, N.Gəncəvi, N.Tusi, Əl Fərabi, Biruni, K.D.Uşinski, A.S.Makarenko, A.V.Suxomlinski və b.) düşündürsə də, onun sistemli öyrənilməsi iyirminci yüzillikdə, xüsusən altmış-yetmişinci illərdən etibarən tədqiqat obyektinə çevrilmişdir.

Hələ lap qədim zamanlardan xalq ağır zəhmətdən sonra yorğunluqlarını çıxarmaq, özlərinin əqli və fiziki güclərini bərpa etmək üçün yaratdıqları oyunlarda, atalar sözü və məsəllərində, nəğmələrdə, tamaşalarda, bayatılarda, dastan və mahnılarda, tapmaca və yanıltmaclarda canlı təcəssüm etdirmişdir.

Bu nümunələrin böyük əksəriyyəti öz yığcamlığı, obrazlılığı, dərin ictimai və pedaqoji məzmunu, ədəbi-tarixi kaloriti, əxlaqi-etik tövsiyəsi, nəsihətamiz ruhu ilə xalqın müdriklik dəfinəsi, kamal dünyası, həyat dərsliyidir.

Xalq istirahəti (asudə vaxtı) özlərinin əmək fəaliyyətlərinin səmərəsini şərtləndirən amil kimi qəbul etmiş və yüksək qiymətləndirmişlər.

İnkişaf, onun sosial-pedaqoji, psixoloji tərəfləri kiçik zaman kəsiklərində qurulan fəaliyyətin məzmunu, nəticələri ilə müəyyən olunur, qiymətləndirilir. Yeniyetmə və gənclərin həyat və fəaliyyəti, məhz belə kiçik zaman kəsikləri üzərində qurulur. Müxtəlif yaş dövrlərində, hətta müxtəlif həyat anlarında asudə vaxtın müddəti, məzmunu, forması dəyişir. Vaxtın müəyyənləşdirilməsi müvafiq müddət ərzində yerinə yetiriləcək işin müddətinin həcminin, nəticələrinin müəyyənləşdirilməsi deməkdir. Məsələn, əgər uşaq sinif yoldaşları ilə görüş təyin edirsə, bunun üçün ayırdığı vaxtı dəqiq müəyyən etməli, ondan düzgün istifadə etməlidir. Asudə vaxtını düzgün, səmərəli təşkil edən uşaqlar həm görüşə, həm də təhsilə, gəzintilərə, əyləncəyə və istirahətə, bir sözlə, özünüinkişafa vaxt tapar. Əksinə, əgər yeniyetmə və gənc, məhz,

vaxtını öldürmək üçün görüş təyin edirsə, o halda zaman hissinin sosial-psixoloji mahiyyəti itir. Ona görə də zaman hissinin formalaşdırılması, vaxta dəyər vermək, onu planlaşdırmaq və səmərəli qaydada vəzifələr arasında vaxtını paylaşdırmaq uşağın ümumi daxili mədəniyyəti, əxlaqi ilə bağlıdır. Bu, müasir dövrün aktual problemlərindən biridir. Məktəb və ailədə bu istiqamətdə aparılan pedaqoji işləri gücləndirmək tələb olunur. Yeniyetmə və gənclər bilməlidirlər ki, vaxt gözləmir, onu lazımsız, mənasız əyləncələrə sərf etmək olmaz. Bu, mühüm vaxtdır. Çünki bu mənasız əyləncələrdə onun özünüinkişafı üçün dəyərli heç nə yoxdur. Vaxtdan səmərəli, mənalı və dolğun istifadə etməklə az zaman kəsiyində dəyərli bir mahiyyət əldə etmək olar.

Asudə vaxt insanın həyat və fəaliyyətinin əsas, əlverişli formalarından biridir. Asudə vaxtın məzmunu dedikdə burada yeniyetmə və gənclərin heyranlığının, maraqlarının və hobbisinin bir sıra elementlərinin məcmusu başa düşülür. Elmi ədəbiyyatlarda asudə vaxtın məzmununa daxil olan qırxdan artıq elementləri göstərilir. Hər bir element özünün forması, variasiyası və modelinə malikdir. Asudə vaxt probleminə həsr edilmiş tədqiqat işlərinin, demək olar ki, hamısında onun səmərəli yolları əsasən bir meyar baxımından – asudə vaxtın məzmununa görə təhlil olunur. Asudə vaxtın məzmunlu təşkili, sözün geniş mənasında, xüsusi pedaqoji əhəmiyyət kəsb edir. Asudə vaxtı ünsiyyət fenomeni kimi təhlil etmək daha vacibdir.

Yeniyetmə və gənclərin asudə vaxtları məzmununa görə bir neçə qrupda cəmləşir:

Birinci qrupa yeniyetmə və gənclərin sağlamlığının bərpası ilə bağlı məsələlər daxildir. Yeniyetmə və gənclər hökmən təmiz havada, gəzintilərdə olmalı, idman, istirahət gecələrində iştirak etməli, qayğı ilə əhatə olunmalı, vaxtını oyun və əyləncələrdə keçirməlidir. İdman, hərəki fəaliyyət yeniyetmə və gənclərdə daxili fəallığı aktivləşdirir, sağlamlığı daha da möhkəmləndirir, cəldliyi, dözümlülüyü inkişaf etdirir.

Asudə vaxtın ikinci qrupu yeniyetmə və gənclərin erudusiyasının yüksəldilməsi, mənəvi dəyərlərin dərki ilə bağlıdır. Buraya ədəbi əsərlərin mütaliəsi, bəzi filmlərə və televiziya verilişlərinə baxmaq, muzeylərə, sərgilərə getmək, səyahət və yürüşlər daxildir. Asudə vaxtın bu qrupunun məzmunu yeniyetmə və gənclərdə idrak fəallığını, ümumbəşəri və milli mədəniyyətin, tarixi və bədii dəyərlərin dərk olunmasını stimullaşdırır, dünyagörüşün formalaşmasını təmin edir.

Asudə vaxtın üçüncü qrupu və istiqaməti yeniyetmə və gənclərin mənəvi inkişafı, aktiv, yaradıcı fəaliyyətləri ilə bağlıdır. Buraya yeniyetmə və gənclərin elmi-tədqiqat fəaliyyəti, bədii-teatral, texniki, bədən tərbiyəsi və idman fəaliyyətini, əmək və tətbiqi fəaliyyətlərini daxil etmək olar. Yeniyetmə və gəncləri bu fəaliyyət növlərinə sövq etməklə onlarda fəal həyat mövqeyini, şəxsiyyətin özünüidarə etməsini, yaradıcı fəaliyyətini, özünü fəallaşdırması qabiliyyətlərini inkişaf etdirmək olar.

Dördüncü qrup və istiqamət yeniyetmə və gənclərdə ünsiyyət tələbatının reallaşdırılması ilə xarakterizə olunur. Ye-

niyetmə və gəncləri hökmən görüş gecələrində, yaradıcı birliklərdə, klub və dərnəklərdə iştiraka cəlb etmək vacibdir. Həmyaşıdları ilə ünsiyyətə girmək onlarda kommunikativ qabiliyyətləri inkişaf etdirir, onlarda şəxslərarası münasibətləri qaydaya salır, müxtəlif sosial situasiyalara adaptasiyanı formalaşdırır.

Beşinci istiqamət yeniyetmə və gənclərin məqsədyönlü, yaradıcı təlimi ilə bağlıdır. Bu, hər şeydən əvvəl, istirahət düşərgələrinə getmək, konkurslarda, tamaşalarda, turist səyahətlərində iştirakla bağlıdır. Bu, yeniyetmə və gənclərdə təşkilatçılıq qabiliyyətlərini, özlərinin istirahətini təşkil etmək bacarığını, həmyaşıdlarını mənalı istirahətə cəlb etmək keyfiyyətlərini inkişaf etdirir.

Asudə vaxtı idarə etmək, asudə vaxt büdcəsindən səmərəli istifadə etmək çoxcəhətli problemdir. Bu problem asudə vaxt fondunun tənzim olunmasının, ondan istifadə edilməsinin bütün istiqamətlərini əhatə edir. Asudə vaxtdan istifadə edilməsinin aktuallığı ölkə vətəndaşlarının, xüsusən məktəblilərin asudə vaxtının artması, ondan düzgün və səmərəli istifadə etmək imkanlarının genişlənməsi, asudə vaxtdan məzmunlu istifadə olunmasına ictimai təsirinin güclənməsi kimi getdikcə daha aydın təzahür edən meyllərlə də müəyyən edilir. Bu gün asudə vaxtın artması həyatımızın obyektiv meylinə, onun məzmunlu təşkil edilməsinə tələbat isə mühüm ictimai zərurətə çevrilir.

Müasir dövrdə yeniyetmə və gənclərin asudə vaxt fondu: a) təhsil gününün qısaldılması; b) əməyin və istirahətin ən

səmərəli strukturunu müəyyən etmək məqsədilə məktəblilərin vaxt büdcəsi məsrəfinin yenidən bölüşdürülməsi; c) dərsdənkənar vaxtın səmərəsiz məsrəfinin azaldılması; d) asudə vaxtın özündən istifadə edilməsinin səmərəliliyinin yüksəldilməsi və s. hesabına artırılır. Əgər tənzim etmənin birinci üç yolu asudə vaxtın artırılması üçün ehtiyatlar axtarmaq sahəsində məktəblərin, idarə və təşkilatların, tərbiyə müəssisələrinin, ailə və ictimaiyyətin iş aparmasını nəzərdə tutursa, dördüncü yol vətəndaşlarımızda asudə vaxtından səmərəli istifadə etmək, bacarıq və arzusu tərbiyə etmək sahəsində lazımi iş aparılmasını tələb edir.

Asudə vaxt büdcəsindən səmərəli istifadə edilməsi şəxsiyyətin inkişafının dəqiq göstəricisidir. Asudə vaxtın müəyyən kəmiyyəti, strukturu və məzmunu, ondan istifadə edilməsinin mütəşəkkilliyi cəmiyyətin həyat tərzinin çox mühüm komponentidir.

Yeniyetmə və gənclərin asudə vaxt büdcəsindən istifadə edilməsinin öyrənilməsi həyata və sosial təcrübənin öyrənilməsi mənbələrinə, yollarına, mexanizminə daha bir tərəfdən yanaşmağa imkan verir. Tədqiqatlar göstərir ki, yeniyetmə və gənclər asudə vaxt fondundan düzgün istifadə etməkdə çətinlik çəkirlər. Müşahidələrimizə əsasən belə nəticəyə gələ bilərik ki, asudə vaxtın artması bir sıra subyektiv səbəblər üzündən yeniyetmə və gənclərin bu vaxtdan səmərəli istifadə etmək bacarıqlarının səviyyəsini qabaqlayır. Buna görə də asudə vaxt fondunun artması (beş günlük təhsilə keçid, tədris fənlərinin sayının azaldılması və s.) ilə bundan ötrü tələb olunan şərait və asudə vaxtdan istifadə etmək bacarığı

arasında ziddiyyət yaranır. Asudə vaxtdan səmərəli istifadə edilməsinin müxtəlif mövcud təzahürləri (asudə vaxtın xeyli hissəsinin evdə keçirilməsi, onun fərdiləşməsi, asudə vaxt tədbirlərinin birtərəfli xarakter alması və s.) bu ziddiyyətin nəticəsidir.

Anket sorğusunun nəticəsi göstərdi ki, yeniyetmə və gənclər asudə vaxt fondundan təhsilə 40,6%, ictimai işlərdə iştiraka 25,8%, elmi-kütləvi televiziya verilişlərinə 15,3%, bədii televiziya filmləri və tamaşalara baxmağa 50,2%, kinoya getməyə 20,6%, teatr tamaşalarına baxmağa 17,4%, bədii ədəbiyyat mütaliəyə 18,5%, idman və əyləncəyə 60,2%, kompüterdə oynamağa 65,7% sərf edirlər. 39,8% isə heç bir ictimai işdə, dərnək məşğələlərində iştirak etmirlər. Sorğudan o da məlum oldu ki, yeniyetmə və gənclər ümumiyyətlə, qəzet, jurnal, bədii əsərləri təsadüfdən-təsadüfə oxuyur, ictimai işlərdə könülsüz iştirak edirlər. O da məlum oldu ki, yeniyetmə və gənclər asudə vaxt keçirilməsinin iki formasına: «küçədə boş-boşuna gəzməyə» və «dostları ilə bir yerdə olmağa» daha çox (70,6%) üstünlük verirlər.

Sorğunun nəticələri göstərdi ki, yeniyetmə və gənclər asudə vaxtın yalnız 10 faizini ictimai əhəmiyyətli formalara, dərnəklərdəki bölmələrdə məşğələlərə, ictimai işlərin yerinə yetirilməsinə, klublara, mədəniyyət saraylarına getməyə sərf edirlər. Sıralanma belədir: televiziya verilişlərinə, tamaşalara baxmağa, radio dinləmək birinci yeri (30 faizdən çox), gəzintiyə getmək (25,36), ikinci yeri, bədii ədəbiyyat mütaliəsi (13,4%), üçüncü yeri, kinolara getmək (10,3%) dördüncü yeri, musiqiyə qulaq asmaq (9,7%) beşinci yeri, qonaq get-

mək, dostlarla görüşmək (8,6 5) altıncı yeri, passiv istirahət (7,8 5) altıncı yeri tutur. O da məlum olmuşdur ki, yeniyetmə və gənclərdə asudə vaxt büdcəsi əsasən passiv istirahəti, əyləncələri əhatə edir. Təbii ki, yeniyetmə və gənclərin ictimai-siyasi fəaliyyətdə iştirak etmələri şəxsiyyət xüsusiyyəti kimi onların fəallığının aktivləşdirilməsi ilə, şəxsi özünü istifadə səyi ilə sıx əlaqədardır. Yeniyetmə və gənclər asudə vaxtlarından nə qədər məsuliyyətlə istifadə edərlərsə, şəxsiyyətləri bir o qədər məqsədyönlü və bir o qədər sürətlə inkişaf edər. Orta ümumtəhsil və ali məktəb yeniyetmə və gənclər üçün elə bir mədəniyyət mərkəzidir ki, burada onlar daha artıq dərəcədə mədəni vərdişlərə yiyələnir, sərvət dəyərləri kəsb edirlər. Bu da faktdır ki, yeniyetmə və gənclər bədii özfəaliyyət və texniki yaradıcılıq dərnəklərinə, ictimai işə, marağa görə dərnəklərə, klublara, idman bölmələri və s. kifayət qədər cəlb olunmurlar ki, bu da nəticədə asudə vaxtdan səmərəsiz istifadəyə gətirib çıxarır. Bəzi şəhər və bölgələrdə yalnız «istedadların aşkara çıxarılmasına» cəhd göstərildiyi halda, kütləviliyə az fikir verilir. Fəal istirahət hələ də yeniyetmə və gənclərin həyatı tələbatına çevrilməmişdir.

Müşahidələrimiz nəticəsində müəyyən etmişik ki:

- yeniyetmə və gənclərin məktəblərdə asudə vaxtının təşkili əsasən onların passiv iştirakına yönəldilmişdir.

- ümumtəhsil məktəblərində yeniyetmə və gənclərin asudə vaxtı yalnız istirahət və əyləncələrlə əlaqədar məşğələləri əhatə edir. Asudə vaxtın inkişafetdirici funksiyası kifayət qədər təzahür etmir.

- yeniyetmə və gənclər öz asudə vaxtlarından nə qədər ağılla, qənaətlə və məsuliyyətlə istifadə edərlərsə, nəticə məqsədyönlü olar. Asudə vaxtda məsuliyyət göstərilməsi aydın istiqamət daşıyan fəaliyyət növlərinin ahəngdar qarşılıqlı əlaqəsinin təmin olunmasında təzahür edir.

Asudə vaxtdan istifadə edilməsində müntəzəmlik asudə vaxt sahəsində məsuliyyətin ümumiləşdirilmiş ifadəsidir.

Yeniyetmə və gənclərin asudə vaxtının yalnız mədəniyyət sərvətləri ilə tanışlıqla əlaqələndirilməsi nə qədər vacib olsa da, asudə vaxt ancaq bu növ məşğələlərlə məhdudlaşdırıla bilməz. Vaxt büdcəsinin sosial-pedaqoji məziyyətlərini açıqlamaq üçün onu yeniyetmə və gənclərin ünsiyyət tələbatının təmin edilməsi aspektində də təhlil etmək vacibdir. Yeniyetmə və gənclər arasında sadəcə ünsiyyət və bununla əlaqədar əyləncələr də asudə vaxtın zəruri ünsürüdür. Asudə vaxtda ünsiyyət gənclər üçün, xüsusilə vacibdir, çünki bu ünsiyyət yeniyetmə və gənclərin sosiallaşdırılmasını başa çatdırmağın şərtlərindən biridir.

Müasir dövrdə cəmiyyətdə (xüsusən müasir şəhərlərdə) asudə vaxtda ünsiyyət və əyləncələr yalnız o zaman cəmiyyət nöqteyi-nəzərindən sağlam, istənilən istiqamət kəsb edə bilər ki, onların inkişafı üçün müəyyən maddi təşkilat şəraiti mövcud olsun. Buna görə də, kütləvi asudə vaxt təşkilatları asudə vaxtda bu təşkilatlarda keçən ünsiyyətin qeyri-rəsmi, sərbəst xarakter daşımasını təmin etməlidirlər. Başqa sözlə, indiki şəraitdə asudə vaxt zamanı ünsiyyətin sağlam formalarının üstünlük təşkil etməsi üçün yerli kafe, restoran, hə-

vəskar və dostluq klubları, yaradıcılıq və idman birlikləri, rəqs salonları, oyun otaqları, meydançaları, kompleks ünsiyyət və əyləncə mərkəzləri kimi təşkilatların geniş şəbəkəsi yaradılmalıdır. Halbuki əksər hallarda asudə vaxtda ünsiyyətin və onunla əlaqədar əyləncələrin maddi-təşkilat bazasının inkişafı – mədəniyyətlə əlaqədar əyləncələrin bazasının inkişafında da fərqli olaraq vaxtı çatmış ictimai tələbata heç də kifayət qədər deyildir, onların xarakteri isə asudə vaxtda ünsiyyət edən səmimi qeyri-rəsmi qrupların təbiətinə heç vaxt uyğun gəlmir. Məsələn, şəhərlərdə klubların böyük əksəriyyəti istehsalat əlamətinə görə təşkil olunmuş və əsasən ictimai-siyasi ehtiyacların təmin edilməsi, yaradıcılıq dərnəklərinin işi və kino filmləri göstərməsi üçün nəzərdə tutulmuşdur. Lakin, son dərəcə mühüm sosial funksiyalar yerinə yetirən bu klublar və yaradıcılıq birlikləri nadir hallarda asudə vaxtda sırf ünsiyyət mərkəzi ola bilir. Faktlara əsasən deyə bilərik ki, asudə vaxtda ünsiyyətin və onunla əlaqədar əyləncələri təmin etməli olan təşkilatlar arasında yalnız rəqs meydançaları və rəqs salonları hələlik kütləvi iş aparırlar. Rəqs meydançaları və salonlarına gedənlərin çoxunun davranış və adətlərinin real surətdə idarə olunmasını təmin etmək üçün onların təşkili, onlarla əlaqədar işçilərin sayı və keyfiyyəti lazımi səviyyədə deyildir. Asudə vaxtda ünsiyyətin və əyləncələrin sağlam formalarının inkişafı üçün əslində indiki şəraitdə açıq-aşkar şərait qıtlığı hiss olunur. Asudə vaxtda ünsiyyət obyektiv zərurət olduğuna görə, belə bir vəziyyətdə ünsiyyət çox vaxt qeyri-sağlam, fatik ünsiyyət (fatiks – latınca mənasız, axmaq deməkdir) formalaşır ki, bu da sosial cə-

hətdən təhlükəlidir. Əslində bu, küçəyə, tin başına, idarə olunmayan rəqs meydançalarına gedib çıxır.

Təbii ki, sağlam ünsiyyət üçün şərait qıtlığı, eləcə də asudə vaxt müəssisələrinin kifayət qədər inkişaf etməməsi yeniyetmə və gənclər arasında neqativ halların yaranmasına gətirib çıxarır. Bunun əsas səbəbi ailə və məktəblə bağlıdır. Çünki məktəb ünsiyyət tələbatının ödənilməsində xüsusi yer tutur. Müşahidələr göstərir ki, ailə və məktəbdə yeniyetmə və gənclərə asudə vaxtının təşkili ilə bağlı vərdişlər aşılanır. Yeniyetmə və gənclər özlərinin asudə vaxtlarında bu və ya digər məşğuliyyəti çox zaman təsadüfi, kortəbii, düşünməmiş şəkildə seçirlər. Yeniyetmə və gənclərin asudə vaxtda ünsiyyət tələbatını normal təmin etmək məqsədilə məktəbin və ailənin rolunu bir vasitə kimi artırmaq lazımdır.

Yeniyetməlik və gənclik yaşında ünsiyyətin dairəsi daha da genişlənir, mürəkkəbləşir. Sosial-pedaqoji baxımdan hər bir ailə və məktəb üçün yeniyetmə və gənclərin kimlərlə oturub-durduqları, dostluq edən uşaqların motivləri nədir? Dostluq münasibətləri hansı dəyərlərə söykənir? Dostlar boş vaxtlarını necə keçirirlər? Onlar bir-birilərinə münasibətdə ünsiyyətin qaydalarını gözləyə bilirlərmi? Onları daha çox hansı problemlər narahat edir? Uşaqlar kiminlə oturub dururlar? Bu suallar hələ tarixən də mütəfəkkirləri düşündürmüşdür. Dahi N.Tusi yazırdı: «Tərbiyənin birinci şərti budur ki, uşağı onun təbiətini korlaya biləcək adamlarla, şeylərlə oturub-durmağa və oynamağa qoymayın, çünki uşaq nəfsi sadə olur, ətrafdakıların xarakterini tez götürür».

Müasir şəraitdə uşaqlar öz sinif yoldaşları, başqa bir halda isə kənar (həyət) uşaqlarla oturub-dururlar. Birinci halda yeniyetmə və gənclərin ünsiyyəti əsasən məktəbdə və məktəbin yerləşdiyi meza şəraitdə təmin olunur. İkinci halda isə yeniyetmə və gənclər dostluq etdikləri «kənar» uşaqlarla məktəbdənkənar mühitdə qeyri-rəsmi ünsiyyətdə olurlar. Birinci halda, təbii ki, yeniyetmə və gənclərə həm məktəb, həm də valideynlər nəzarət edirlər, ikinci halda isə onlar sosial nəzarətdən kənarda ünsiyyətə girirlər. Aydın məsələdir ki, belə bir vəziyyətdə kənar təsir daha güclü olur.

Yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkili üzrə sosial institutların birgə işi ilk növbədə, asudə vaxtın struktur komponentləri ilə ayırd edilir. Cəmiyyətin mənəvi sərvəti kimi dəyərləndirilən asudə vaxtın artması ilə yanaşı; ondan istifadə edilməsinin strukturu da dəyişir. Bu onun nəticəsidir ki, bir tərəfdən yeniyetmə və gənclərin mədəniyyət səviyyəsi, onların mənəvi və fiziki tələbatları artır, digər tərəfdən isə yeniyetmə və gənclərin asudə vaxtının keçirilməsini təmin edən maddi baza daha da inkişaf etdirilir.

Asudə vaxtın aşağıdakı struktur komponentləri vardır.

Təşkil olunmuş aktiv yaradıcı fəaliyyət:

- Təhsil və özünütəhsil;
- Şəxsi və sosial xarakterli mədəni tələbatın ödənilməsi;
- Fiziki hazırlığın artırılması;
- Hobbi tipli həvəskar məşğələlər;
- Müxtəlif xarakterli oyunlar;
- Yaşıdlarla və qohumlarla görüşlər;

- Həvəskarlar birlikləri və marağa görə klubların işində iştirak;

Passiv istirahət:

- Televiziya verilişlərinə baxmaq, radioya qulaq asmaq;
- Telefon ünsiyyətləri, məktublaşmalar;
- Kompüter oyunları;
- Evdən kənar yerlərdə keçirilən vaxt;
- Musiqiyə qulaq asmaq və s.

İnkişaf, onun sosial, pedaqoji və psixoloji tərəfləri kiçik zaman kəsiyində qurulan fəaliyyətin məzmunu və nəticələri ilə müəyyən olunur, dəyərləndirilir. Müxtəlif yaş dövrlərində, xüsusən yeniyetməlik və gənclik dövrlərində asudə vaxtın müddəti, məzmunu, forması dəyişir. Bu, təbii haldır. Aparıcı fəaliyyətin səmərəli tənzimlənməsində də asudə vaxt mühüm amil kimi çıxış edir.

Pedaqoji tədqiqatlarda (E.V.Sokolov, V.E.Triodin) asudə vaxtın üç növü göstərilir: istirahət, əyləncələr və özünütəhsil.

İstirahət, latın Recreatio sözündən götürülmüşdü yeniləşmə, yenidən yaradılma və yenidənqurma deməkdir. Ümumiyyətlə, mənası asudə vaxtı qiymətləndirməkdir. Buradakı məna fərdlərin və sosial qrupların boş vaxtlarında könüllü olaraq etdikləri rahatlaşdırıcı və əyləncəli hərəkətlərdir.

Schwilginin sözlərinə görə, aktiv və passiv istirahət iki qrupda araşdırılır: idman fəaliyyəti, qolf, üzgüçülük, qar idmanı, at sürmə, düşərgə, aktiv istirahət qrupu, piknik etmək, balıq tutmaq, zooparkları və botanika bağlarını ziyarət etmək passiv istirahət qrupunda istirahət fəaliyyətləridir.

İstirahət dar mənada qiymətləndirilməməlidir: "Turizm" "istirahət", "idman", "oyun", bəziləri isə "mədəniyyət" ilə inteqrasiya olunur. Həm də çoxlu formaları olan tək bir fenomen deyil. İstirahət yüksək iş tempi, dəyişməz həyat tərzi və ya mənfi ətraf mühit amilləri səbəbindən həyəcanlı və mənfi reaksiya verən insanın fiziki və psixi sağlamlığının bərpası, qorunması və saxlanmasıdır. Boş vaxtlarda yalnız iş və məcburi ehtiyaclar üçün ayrılan vaxt istisna olmaqla, şəxsi məmnuniyyəti təmin edəcək, onun könüllü və fərdi və ya qrup halında, zövq almaq məqsədi ilə etdiyi fəaliyyətlərdir. Əylənmək və yeni təcrübələr əldə etmək üçün edilən fəaliyyətlər isə fərqli perspektivlər əldə etmək, yeni məlumatlar əldə etmək və yeni yerləri kəşf edərək üfüqlərini genişləndirmək istəyən insanlar tərəfindən istrahət fəaliyyəti hesab edilir. İstirahət geniş həyat tərzidir, fərdlər üçün əsas ehtiyacdır. O, insanın yaratdığı ictimai quruluşdan qaynaqlanır, üstəlik, insanın fərdi və ya kollektiv davranışlarında özünü göstərir. Sosial varlıq kimi insanın ən mühüm məqsədi fiziki və mənəvi ehtiyaclarını ödəmək və mənəvi məmnuniyyətini təmin etməkdir. İstirahətdə insanın yeni dəyərlər əldə etməsi, fəaliyyətlərin həyat gücünü və həyat arzusunu yaşatması vacibdir. Üstəlik, yaşından asılı olmayaraq, insana fərqli bir zövq hissi verməklə onu yeni və təzə güclərlə təchiz edə bilmək də vacibdir.

Fərdi istirahət ehtiyaclarının səbəbləri

- İnsana ruhi sağlamlıq verir;
- Fərdin sosiallaşmasına imkan verir;
- Fərdi qabiliyyətlərin inkişafına imkan yaradır;

- Yaradıcılığı gücləndirir;
- İş uğurunu və iş səmərəliliyini artırır;
- İqtisadi hərəkəti təkmilləşdirir;
- İnsana özünü xoşbəxt hiss etdirər;

Sosial istirahətə ehtiyacın səbəbləri

- Sosial həmrəyliyə və inteqrasiyaya töhfə verir;
- Demokratik cəmiyyətin yaranmasına imkan verir. İstirahət fəaliyyəti asudə vaxt fəaliyyətləri sırasındadır. İstirahət fəaliyyətini digər asudə vaxt fəaliyyətlərindən fərqləndirən xüsusiyyətlər istirahət və asudə vaxt fəaliyyətlərində iştirak etməklə baş verən təcrübə və fəaliyyət yaradır. Şəxs istirahət fəaliyyətlərində iştirakını əvvəlcədən müəyyənləşdirir. İstirahətin indiki vaxta aid bir çox attraksionları var. İnsanlar istirahət fəaliyyətlərində könüllü olaraq iştirak edir və bunu boş vaxtlarında edirlər. Bu fəaliyyətlərdə iştirak o zaman baş verir ki, fərd işlə məşğul deyil və ya heç bir məsuliyyəti yoxdur. İstirahət oyun, əyləncə və istirahət kimi fəaliyyətləri əhatə edir və bu fəaliyyətlərin ciddi və konkret məqsədləri var. İştirakçıların eyni məqsədlə istirahət fəaliyyətlərinə qatılmaqlarının gözləntiləri fərqlidir. İstirahət fəaliyyətləri çevikdir, istənilən vaxt edilə bilər, hər yaşda olan iştirakçılar iştirak edib fərdi və sosial xüsusiyyətlər qazana bilərlər. Bu fəaliyyətləri davam etdirmək və ya iştirak etmək könüllüdür. İstirahət fəaliyyəti cəmiyyətin adət və ənənələrinə uyğun olmalı, ictimai dəyərlərə zidd olmamalıdır. Bu fəaliyyətləri yerinə yetirərkən birdən çox fəaliyyətlə maraqlanmaq və həyata keçirmək imkanı yaradır, fərdin özünü ifadə etmə qabiliyyətinə və yaradıcılığına müsbət təsir göstərir. Nəhayət, isti-

rahət fəaliyyətləri planlı və ya planlaşdırılmamış, bacarıqlı və ya bacarıqsız insanlarla, mütəşəkkil və ya qeyri-mütəşəkkil yerlərdə də ola bilər.

Təşkil olunmuş ağıllı və məqsədyönlü aktiv istirahət yeniyetmə və gənclərdə fiziki yorğunluğu və zehni gərginliyi aradan qaldırır, onların fiziki və mənəvi güclərini bərpa edir. İdman yarışlarında fəal iştirak etmək, mütaliə, musiqiyə qulaq asmaq, bağda əmək işləri ilə məşğul olmaq yeniyetmə və gənclərdə əhval-ruhiyyəni yüksəldir, gümrahlığı artırır, onlar gördükləri işdən mənəvi həzz alırlar.

Passiv istirahət də insanda gərginliyi zəiflədir, xəyala dalmağa, dualar etməyə, təbiəti seyrə; gələcək haqqında romantik fikirləşməyə, söhbətə sövq edir.

Əyləncələr asudə vaxt fəaliyyətinin bir növü kimi bərpaedici xarakter daşıyır, bədii filmlərə, konsert və tamaşalara baxmaq, idman yarışlarında iştirak, səyahət, turizm və s. həyata keçirilir. İstirahət və əyləncə daha çox bayram günlərinin qeyd olunmasında reallaşdırılır. Bu vaxt yeniyetmə və gənclər özlərini gündəlik həyatı qayğılardan azad hiss edir, emosional əhval-ruhiyyələri yüksəlir.

Özünütəhsil (özünüidarə) asudə vaxtın bir forması kimi, peşə və təlim fəaliyyəti ilə bağlı olmayan bir istirahət növüdür. Bu, yeniyetmə və gənclərin hər hansı bir sahəyə şəxsi marağı ilə əlaqədardır. Özünütəhsil (özünüidarə) asudə vaxtın bir növu kimi daha çox ədəbiyyat mütaliəsi (bədii, elmi, publisist) seminarlarda, disputda, əyləncəli işgüzar oyunlarda, mühazirə və musiqiyə qulaq asmaqda, bədii, sənədli və

elmi-populyar filmlərə baxmaqda ifadə olunur.

Aktiv istirahətin ən yüksək səviyyəsi yaradıcılıq fəaliyyəti ilə müəyyən edilir. Yeniyetmə və gənclər tədqiqat işlərinə, texniki və bədii yaradıcılığa, kolleksiyaçılığa sövq edildikdə, onlar mənəvi dəyərləri, daha əsaslı dərk edir, həyata tamam başqa gözlə baxırlar.

Yeniyetmə və gənclər özlərinin təhsil səviyyələrini əsasən aktiv asudə vaxtda yüksəldirlər. Ona görə də asudə vaxtdan düzgün istifadə edilməsi yeniyetmə və gənclərin mənəvi təkmilləşməsində çox mühüm şərtlərindən biridir.

Bu sahədə aparılan sosioloji tədqiqatların nəticələri göstərir ki, yeniyetmə və gənclərin ümumtəhsil səviyyəsi asudə vaxtda onların fəaliyyətinin strukturuna daha güclü təsir göstərir. Yeniyetmə və gənclərin ümumtəhsil səviyyəsi nə qədər yüksəkdirsə, bir qayda olaraq, onlar öz asudə vaxtının daha çox hissəsini mənəvi sərvətlərin mənimsənilməsinə, intellektual yaradıcılığa, təhsilə, ictimai işə sərf edirlər.

Müşahidələrimiz və apardığımız sorğunun nəticəsində müəyyən etmişik ki, yeniyetmə və gənclərin asudə vaxtdan istifadə etməsinin mənəvi tələbatının onların təhsilindən asılıdır. Məsələn, yeniyetmə və gənclərin təhsil səviyyəsindən asılı olaraq səmərələşdiricilikdə və ixtiraçılıqda iştirak edirlər – 40,6%, ictimai işlə məşğul olurlar – 50, 9%, bədii özfəaliyyətdə iştirak edirlər – 30,6%, kitabxanalardan istifadə edirlər – 76%, kinoteatrlara gedirlər – 30,5%, teatr tamaşalarına gedirlər – 25,8%. Ümumiyyətlə, götürüldükdə təhsil asudə vaxtdan səmərəli istifadə olunmasına güclü təsir edən

çox mühüm amillərdən biridir, onların təhsilə cəlb olunması isə asudə vaxtın təşkilinin mühüm metodudur. Qəzet, jurnal və kitab oxunuşu, televiziya verilişlərinə tamaşa, kinoya, teatra, konsertə getmək və mənəvi sərvətləri mənimsəməyin başqa növləri yeniyetmə və gənclərin asudə vaxtın strukturunda mühüm yer tutur. Bütün bunlar, təbii ki, yeniyetmə və gənclərin mədəni səviyyəsini yüksəldir, onların mənəvi tələbatını və qabiliyyətlərini, estetik zövqünü inkişaf etdirir, bütün bunlarla birlikdə mənəvi təkmilləşməyə kömək edir. Bütün bunlar yalnız bu şərtlə ola bilər ki, yeniyetmə və gənclər istədikləri məşğələləri özləri seçə bilsinlər, yəni hər nə gəldi deyil, onun təhsil prosesində yaranmış idrak məqsədlərinə və maraqlarına uyğun olsun. Bədii ədəbiyyat mütaliəsindən insan yalnız zövq alırsa, bu, passiv istirahətdir. Əgər bədii ədəbiyyat oxunuşu zamanı emosional fəallıq intellektual fəallıqla tamamlanırsa, alınan informasiya biliklər sisteminə daxil olursa, bu, insan üçün təhsilə çevrilə bilər. Şübhə yoxdur ki, asudə vaxtın göstərilən formaları təhsil məqsədlərinə xidmət edə bilər. Buna görə də asudə vaxtla təhsil fəaliyyəti arasında səmərəli əlaqələr daha da yüksəldilməlidir. Yeniyetmə və gənclərin asudə vaxtında təhsilin rolunun artmasına və asudə vaxt strukturunda onun təsirinin güclənməsinə dolayı yolla – asudə vaxtın müxtəlif növlərində idrak fəaliyyətinin ünsürlərinin indikindən daha geniş miqyasda tətbiq etmək yolu ilə, yəni asudə vaxtın özünü bir növ intellektuallaşdırmaq yolu ilə nail olmaq mümkündür. Klublarda bu iş formalarının çoxunda, ən əvvəl, həvəskar birliklərində, bədii özfəaliyyətdə və iştirakçılarının tərkibi daimi olan asudə

vaxt fəaliyyətinin başqa formalarında təmin edilə bilər. Doğrudur, təlim fəaliyyəti asudə vaxt çərçivəsindən kənarda yerinə yetirilir. Gələcəkdə təhsil fəaliyyətinə, bunun vasitəsilə həm də asudə vaxtdan səmərəli istifadə olunmasına müsbət münasibətin əsasları məhz burada qoyulur. Asudə vaxtdan səmərəli istifadə olunması yeniyetmə və gənclərdə təlim əməyinə sağlam tələbat tərbiyə edir. Çünki insanın tələbatı həmişə qiymət və özünüqiymət obyektidir. İnsanın sağlam – subyektiv tələbatı, onun mənəvi və idrak tələbatı ilə qarşılıqlı əlaqədədir. Təhsildə özünüifadə tələbatı yeniyetmə və gənclərin tələbatlar sistemində xüsusi yer tutur. Əgər maddi tələbatın obyekti maddi nemətlər, idrak tələbatının obyekti bilik, estetik tələbatın obyektiv incəsənətdirsə, özünüifadə tələbatı maddi nemətlərin istehsalı da, biliklərə yiyələnərkən də, yaradıcılıqda da təmin oluna bilər. Şəxsiyyətin özünüidarəsi çoxcəhətlidir. Müxtəlif fəaliyyət növlərində özünüifadə tələbatını ödəyən şəxsiyyət yalnız öz həyati məqsədlərini güdmür, həm də ictimai əlaqələr və münasibətlər sistemində öz bənzərsiz yerini tutur.

# II FƏSİL
# YENİYETMƏ VƏ GƏNCLƏRDƏ SAĞLAM HƏYAT TƏRZİNİN FORMALAŞDIRILMASI YOLLARI

## 2.1. Müasir dövrdə tələbə gənclərin asudə vaxtdan səmərəli istifadə edilməsi problemi

Müstəqillik dövründə sürətlə inkişaf edən ölkəmizdə yeniyetmə və gənclərin asudə vaxtlardan səmərəli istifadəsi vacib ictimai problemdir.

Bu problem milyonlarla yeniyetmə və gəncə aiddir və ümumdövlət əhəmiyyətinə malikdir. Çünki asudə vaxt dincəlmək üçün, fiziki və zehni qüvvələri bərpa etmək üçün, bir insan, bir ailə sahibi və bir vətəndaş kimi öz hüquqlarından istifadə etmək üçün vaxtdır. Bu vaxt, şəxsiyyətin intellektual və fiziki təmayül və qabiliyyətlərinin inkişafına, sosial tələbatlarının ödənilməsinə xidmət edir. Bu mənada asudə vaxt həqiqətən ictimai sərvət meyarıdır.

Müasir dövrdə pedaqoji konteksdə asudə vaxt problemi üzrə maraqlı tədqiqatlar aparılmışdır. M.T.Tayçinov şagirdlərin ictimai-faydalı fəaliyyətini öyrənərkən diqqəti onların asudə vaxtının pedaqoji mənasına cəlb etmişdi.

Müxtəlif istiqamətli araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, məktəblilərin asudə vaxtının məzmunu onların intellektual səviyyəsinin yüksəldilməsinə güclü təsir göstərir.

Bəzi tədqiqatlarda (T.M.Minkovski, V.D.Yermakov, A.B.Koşelkin və b.) şəxsiyyətin formalaşmasında pedaqoji-

psixoloji istiqamətlə yanaşı, hüquqi istiqamətin mühüm əhəmiyyətə malik olduğu göstərilərək, asudə vaxtı uşaq cinayətkarlığının əsas kriminoloji problem kimi nəzərdən keçirmişlər. Bu da təbii nəticədir. Asudə vaxt miqdarının çoxalması, ondan səmərəli istifadə olunmaması təbii ki, müəyyən neqativ halların yaranmasına gətirib çıxarır.

Azərbaycanda asudə vaxt problemi şəxsiyyət problemi kimi dəyərləndirilir. A.Quliyev və B.Məhərrəmov asudə vaxtın «itirilməsini sosial cəhətdən təhlükəli» hesab edirlər. Onların gəldiyi nəticələrə görə, itirilmiş asudə vaxtın «praktiki bərpası» pedaqoji cəhətdən mümkün deyildir. Hər iki müəllif asudə vaxt problemini pedaqoji nöqteyi-nəzərdən araşdırır, onun aktuallığını pedaqoji yönümdə əsaslandırmağa çalışırlar. Onlara görə, asudə vaxt:

1. Yeniyetmə və gənclərin mənəvi inkişafına, ictimai əhəmiyyətli olan işlərlə müstəqil məşğul olmağa, onların imkan və qabiliyyətlərinə məhdudiyyət qoymamağa şərait yaradır.

2. Asudə vaxt məktəblilərin təbii sərbəst və müstəqilliyə, aktiv fəaliyyət, müstəqil, kreativ, yaradıcı düşüncəyə malik olan insan tələbatı üçün əlverişli məkandır.

Asudə vaxt şəraitində qeyri-rəsmi və dərsdənxaric fəaliyyətdən fərqli olaraq yeni sosial vəziyyətdə, rolda çıxış etməyə imkan verir.

3. Asudə vaxt – elə bir xüsusi sosial fəaliyyətdir ki, burada onlar öz şəxsi istəklərini və tələbatlarını təmin edir, özlərini yoxlayıb qiymətləndirirlər.

4. Asudə vaxt şəxsi marağı və tələbatı təmasda təmin edən fəal ünsiyyət şəraitidir. Asudəçiliyin belə formalarına klub, dərnək məşğələlərini, kollektiv oyun, yoldaşlıq, dostluq və məktəblilərin psixoloji uyğunlaşması üçün ən əlverişli vasitədir.

5. Yeniyetmə və gənclər asudəlik mühitində müxtəlif ictimai institutların və təşkilatların təsirinə və nüfuzuna daha səmimi olurlar. Bu, xüsusilə ona görə vacibdir ki, həmin dövrdə uşaq asudə vaxtının xeyli hissəsini nəzarətsiz keçirir.

İndiki şəraitdə, dinamik ictimai inkişaf şəraitində iş vaxtından və işdənkənar vaxtdan səmərəli istifadə edilməsi əhəmiyyətlidir. Öz vaxtını düzgün bölüşdürməyi və ondan səmərəli istifadə etməyi bacaran tələbə fəal iş aparmaq və məhsuldar işləmək keyfiyyətinə malik ola bilər. Ali məktəbdə tələbələrin təhsili və tərbiyəsinin vəhdətini nəzərə alaraq tələbələrin bir mütəxəssis və vətəndaş kimi sosial funksiyaları və peşə funksiyalarını yerinə yetirməyə hazırlanması aktualdır. Tələbə gənclərin ideya-siyasi, vətəndaşlıq, mənəvi keyfiyyətlərinin, dünyagörüşünün, ictimai fəallığının formalaşmasında, gənclərin mənəvi potensialının, mədəniyyət səviyyəsinin yüksəldilməsində asudə vaxtdan istifadənin rolu böyükdür. Tələbələr auditoriyadankənar vaxt büdcəsinin strukturunu təyin etməlidir. Auditoriyadankənar vaxt dedikdə tələbənin məşğələlərdə keçirdiyi müddətdən başqa sutkanın bütün vaxtını nəzərdə tuturuq. Təhsilə bağlı olan saatları (universitetə getmək, oradan qayıtmaq, məşğələlərə hazırlanmaq, öz fizioloji tələbatlarının ödənilməsinə sərf olunan vaxtı (yuxu, şəxsi gigiyena, yemək-içmək və s.) çıxdıqdan sonra yerdə qalan saatlar tələbələrin asudə vaxtını təşkil edir.

Asudə vaxtın səmərəli istifadə edilməsi insan inkişafının hər mərhələsində diqqət yetirilməsi vacib olan məsələdir. Lakin fərdlərin şəxsiyyət inkişafının böyük ölçüdə formalaşdığı və yetkin modelin qurulduğu bir keçid dövrü olaraq görülən universitet gəncliyi baxımından onun təsiri daha da əhəmiyyətlidir. Burada biz universitet tələbələrinin asudə vaxtlarını kimlərlə birlikdə keçirməyə üstünlük verdikləri, hansı fəaliyyətlərə qatılaraq, harada keçirməyə üstünlük verdiklərini müəyyən edəcəyik. Bununla bağlı tədqiqatlar da aparılmışdır. Pamukkale Universitetində 401 tələbə üzərində aparılmış tədqiqatlardan belə nəticəyə gəlinmişdir ki, universitet tələbələri asudə vaxtlarını daha çox passiv fəaliyyətlərlə keçirdirlər. Tələbələrin ən çox üstünlük verdiyi fəaliyyət növü ilk növbədə kitab oxumaq, ikinci yerdə isə musiqi dinləməkdir. Bundan  başqa Universitet tələbələrinin asudə vaxtlarını daha çox dost qrupları ilə keçirməyə üstünlük verdiyi müşahidə edilmişdir. Tədqiqatda universitet tələbələrinin valideynlərinin təhsil səviyyələri ilə ailələrin tələbələrin asudə vaxtlarından səmərəli istifadəyə istiqamətlənməsi arasında əlaqə araşdırılmış və müəyyən edilmişdir ki, tələbələrin valideynlərinin təhsil səviyyələri artdıqca tələbələrin asudə vaxtlarından səmərəli istifadə etmək motivasiyası artmışdır. Dünyada gənclərin asudə vaxtının qiymətləndirilməsi ilə bağlı aparılan sahə araşdırmalarında gənclərin asudə vaxtlarını daha çox passiv fəaliyyətlə keçirdikləri müşahidə edilmişdir. Qız tələbələrin oğlan tələbələrdən daha çox kitab oxumağa üstünlük verdiyi görülür. Üstünlük verdikləri ikinci fəaliyyət növü musiqi dinləməkdir. Üçüncü sırada kinoya,

konsertə getmək üstünlük təşkil edir. Kinoya və konsertə getməyi qız tələbələr oğlan tələbələrə nisbətən daha çox üstünlük verirlər. Tələbələr boş vaxtlarında televizora baxmağa üstünlük verdiyi halda, radioya qulaq asmağa da çox vaxt ayırırlar. Universitet tələbələri boş vaxtlarında ən yüksək nisbətlə kafeyə getməyə üstünlük verirlər.

Universitet tələbələrinin asudə vaxtlarında ən az üstünlük verdiyi məşğuliyyətlər rəsm çəkmək, avtomobil sürmək, musiqi alətində ifa etmək, əl işləri görmək, heykəltəraşlıq və keramika üzərində işləmək, videolara baxmaqdır. Araşdırmanın nəticələrindən də göründüyü kimi, Pamukkale Universitetinin tələbələri asudə vaxtlarını daha çox passiv fəaliyyətlərlə keçirirlər. Tələbələrin idmana marağı daha çox tamaşaçı səviyyəsindədir. Görünür ki, oğlan tələbələr qız tələbələrə nisbətən idman fəaliyyətlərində daha fəal iştirak edirlər. Şagirdlərin fəal iştirak etdikləri idman növləri voleybol, basketbol və futboldur. Tələbələrin bu idman növlərinə daha çox üstünlük verməsinin səbəbini onların hər yerdə edilə bilən və çox maddi yük gətirməyən idman növləri olması ilə izah etmək olar. Ölkəmizdə asudə vaxtın keçirilməsi yolu ümumiyyətlə fərdi xarakter daşımır, daha çox qrupda iştirak edə biləcək fəaliyyətlərdən ibarətdir. Bu araşdırmada universitet tələbələrinin asudə vaxtlarını bir qrup dostları ilə keçirməyə üstünlük verdiyi görüldü. Lakin tələbələr asudə vaxtlarını dost qrupları ilə keçirsələr də, ən çox üstünlük verilən asudə vaxt fəaliyyətlərinin fərdi xarakter daşıdığı görülür (kitab oxumaq,musiqi dinləmək kimi). Gənclərin bu fəaliyyətlərdə fərdi şəkildə iştirak etməsi bu fəaliyyətlərdə təkba-

şına iştirak öhdəliyinin olması ilə bağlıdır.

Araşdırmada universitet tələbələri arasında kafelərə getməyə çox üstünlük verildiyi görülür. Tələbələr bunun səbəbini münasib şəraitdə getmək üçün başqa yerlərinin olmaması ilə izah ediblər. Aldıqları pulun miqdarı tələbələrin asudə vaxtlarında iştirakına əhəmiyyətli dərəcədə təsir göstərir. Tələbələr aylıq nə qədər çox pul alırlarsa, onların asudə vaxtlarına da bir o qədər çox pul xərcləyirlər. Tələbələr etmək istədikləri, lakin maddi imkansızlıq üzündən edə bilmədiklərinin idman fəaliyyəti, musiqi və incəsənətə əsaslanan fəaliyyətlər, ekskursiyalara getmək və kurslara qatılmaq olduğunu bildirirlər. Gənclərin asudə vaxtlarında iştirakına və bu mövzuda üstünlüklərinə ailələrinin təsiri çox yüksəkdir. Ailə gənclərin tərbiyəsində asudə vaxt fəaliyyətini inkişaf etdirə və dəstək verə bilən bir qurumdur. Ailənin keyfiyyəti, valideynlərin təhsil vəziyyəti və övladlarına münasibəti gəncin ailə institutu vasitəsilə öyrənməsinə və asudə vaxtda iştirakına təsir göstərir. Xüsusilə uşaqlıqdan başlayaraq insanın asudə vaxtını dəyərləndirməyə ailənin istiqamətləndirməsi böyük əhəmiyyət kəsb edir. Çünki sübut olunub ki, hər hansı asudə vaxtını qocalıqda da davam etdirənlər arasında gənclik illərində bu işlə məşğul olanlar heç vaxt məşğul olmayanlardan daha çoxdur. Bu baxımdan ailənin fərdləri boş vaxtlarını dəyərləndirməyə istiqamətləndirməsi bir həqiqətdir. Müəyyən edilmişdir ki, şagirdlərin valideynlərinin təhsil səviyyəsi yüksəldikcə onların asudə vaxtlarından gənclərin səmərəli istifadəsinə yönəldilməsi də artmışdır.

Tələbələrdən asudə vaxtlarında nə ilə məşğul olmağı ən vacib hesab etdiklərini soruşduqda, onların təxminən yarısı bilik və bacarıqlarını artırmaq variantını seçmiş, bu fəaliyyətlərin biliklərini təkmilləşdirmək və inkişaf etdirmək baxımından onlar üçün faydalı olduğunu bildirmişlər. Bacarıqlarını və bütün asudə vaxtlarını düşündükləri zaman bu fəaliyyətləri maarifləndirici və faydalı gördüklərini, həyata keçirə bildikləri üçün iştirak etdiklərini bildirdilər. Bununla belə, tələbələrin həyata keçirdikləri asudə vaxtları nəzərə alsaq (çayxanaya getmək, dostları ilə küçədə gəzmək və s.) bu fəaliyyətlərin maarifləndirici və faydalı olmadığı, bilik və bacarıqların artırılmasına yönəlmədiyi görünür. Düşünmək olar ki, tələbələr bu sualların ictimai arzuolunanlığından təsirlənib və əslində etdiklərinə deyil, nə etmək istədiklərinə cavab veriblər.

## 2.2. Yeniyetmə və gənclərin ictimai fəallığı problemləri

İctimai fəallıq çoxplanlı problem, zəruri sosial fəaliyyət kimi aktualdır. Bu fəaliyyətin istiqamətini düzgün müəyyənləşdirmək və qiymətləndirmək çox əhəmiyyətlidir. Şəxsiyyət əsasən asudə vaxtda ictimai fəaliyyət göstərir. Bunun üçün asudə vaxt səmərəli təşkil olunmalıdır. Asudə vaxt yeniyetmə və gənclərin ictimai fəallığını formalaşdırmaq üçün xüsusi əhəmiyyət kəsb edir. Şəxsiyyətin ictimai fəallığı cəmiyyətin sosial-siyasi və iqtisadi inkişafı ilə şərtlənir. İctimai fəallığın növləri: əmək fəallığı, ictimai-siyasi fəallıq, cəmiyyə-

tin mənəvi həyatı sahəsində fəallığı, idrak fəallığı, ictimai fəallığın növlərinin vəhdəti. Şəxsiyyətin əmək fəallığını təşkil edərkən burada mənəvi stimullar əsas götürülməlidir. İctimai-siyasi fəallıq prosesində şəxsiyyətin maraq, meyl və imkanları nəzərə alınmalıdır. İctimai-siyasi fəallıq şəxsiyyətdə siyasi mübariz, ictimai xadim, təşkilatçı və lider keyfiyyətlərini formalaşdırır. İctimai-siyasi fəallıq tələbə gənclərin fəallığının siyasi xarakterini müəyyən edən keyfiyyət göstəricisidir. Yeniyetmə və gənclərin ictimai-siyasi fəallığı cəmiyyətin həyatı, tələbə kollektivinin, həmkarlar birliyinin, şagird və tələbə cəmiyyətinin, asudə vaxt mərkəzinin siyasi və təşkilatçılıq işi ilə əlaqəli aparılmalı və tamamlanmalıdır. İctimai-siyasi fəallıq əmək fəallığı və ictimai həyat sahəsindəki fəallıqla qarşılıqlı əlaqədədir.

Yeniyetmə və gənclərin asudə vaxtı, bu qaydada təşkil edilir:

- Asudə vaxt ailənin, valideynlərin planlaşdırdığı tədbirə görə təşkil olunur;

- Şagird kollektivindəki bu və ya digər məktəblinin, yaxud məktəblilərin təşəbbüsü əsasında, hər bir şagirdin fəal iştirakı ilə təmin edilir;

- Məktəbdənkənar müəssisələr, ictimaiyyət nümayəndələrinin nəzərdə tutduğu tədbirlər hesabına həyata keçirilir;

- Asudə vaxt yeniyetmə və gənclərin vətənpərvərlik hisslərinin daha da qiymətləndirilməsi, doğma diyara aid məlumatların genişləndirilməsi, yaşadıqları ərazi, onun təbiəti, tarixi, insanları, təbii sərvətləri ilə yaxından tanış olmaları üçün zən-

gin imkanlar yaradır. Bu baxımdan sinifdənxaric və məktəbdənkənar tədbirlərin rolu müstəsna dərəcədə böyükdür.

Vaxt yeniyetmə və gənclərin əməyinin ən sadə və asan ölçüsüdür. İnkişafın müvafiq mərhələsində onların əldə etdikləri uğurlar, əqli inkişaf səviyyələri məhz vaxtın effektli təşkili, onu hansı işlərə sərf etmələri ilə izah olunur. Vaxtdan səmərəli istifadə təlim fəaliyyətinə həsr olunmuş müddətlə yanaşı, asudə vaxt ərzində hərəkət və əməliyyatların necə tənzimlənməsi, istiqamətləndirilməsi, məhsuldar qurulması ilə şərtlənir. Hər bir yeniyetmə və gəncin öz vaxtını necə təşkil etməsi, ilk növbədə, məktəb və ailə ənənələri, ailə tərbiyəsi, eyni zamanda yeniyetmə və gəncin mənəvi tələbləri, əxlaqi keyfiyyətləri, özünənəzarəti, özünüqiymətləndirməsi ilə müəyyən edilir. Bu prosesdə yeniyetmə və gəncin özünütərbiyəsi, özünüinkişafı və özününizamlaması mühüm tələb kimi qoyulur.

Asudə vaxtın məhsuldar təşkili dedikdə onun nəticələrinin aşağıdakılara əsaslanması nəzərdə tutulur.

- Yeniyetmə və gənclərin imkanlarına uyğun olaraq onların şüurunda dünyanın kifayət qədər bütöv mənzərəsini yaratmaq;

- Yeniyetmə və gənclərə elmi dərketmənin yollarını göstərmək;

- Buna uyğun praktik fəaliyyətə alışdırmaq;

- Motivasiyası, koqnitiv sferanın, şəxsiyyətin strukturunun formalaşması;

- İntellektin, emosional-iradi sahənin, davranışa mədəniyyətinin təhsil motivləri ilə inteqrasiyası;

- Qarşıya çıxan çətinliklərin dəf edilməsi bacarığının yaranması;

- Özünənəzarət, öz qabiliyyətlərini müqayisə etmək, ölçmək və qiymətləndirmək üzrə təcrübənin təkmilləşdirilməsi;

- Bütövlükdə yeniyetmə və gənclərdə bilik keyfiyyətlərinin yüksəldilməsini təmin edən inkişaf mexanizmlərinin onun özü tərəfindən dərk olunması və reallaşdırılması.

Həm məktəbdə, həm də ailədə bu vəzifələrin həlli üçün iki mühüm prinsip gözlənilməlidir:

1. Yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün fəaliyyətin stimullaşdırılması;
2. Asudə vaxtın məqsədyönlü təşkili üçün dəstəkləyici mühitin yaradılması.

Pedaqoji nəzəriyyə və praktikasında insanların asudə vaxtının təşkilinin çoxlu sayda təşkili formaları mövcuddur. Bu təşkili formalar bir-birindən xüsusi əlamətlərinə görə seçilir:

1. Tərkibinə görə – biri-birindən vaxtına, hazırlanıb keçirilməsinə və iştirakçıların sayına görə fərqlənir.

Keçirilmə vaxtına görə bu formaları bir neçə yerə bölünür:

- qısamüddətli (bir neçə dəqiqə və bir neçə saata görə)
- uzunmüddətli (bir neçə gün və bir neçə həftəliyə görə)
- ənənəvi (müntəzəm təkrara görə).

İştirakçıların sayına görə bu formalar bir neçə yerə bölünür:

- fərdi (tərbiyəçi, tərbiyəolunan)
- qruplar (tərbiyəçi və qrup uşaqları)

- kütləvi (tərbiyəçi və bir neçə qrup, sinif)

2. Fəaliyyət növünə görə (təlim, əmək, idman və bədii özfəaliyyət)

3. Pedaqoqun təsir gücünə görə (bilavasitə və dolayı)

4. Təşkili subyektlərinə görə:

- asudə vaxt və istirahət müəllim, ailə və başqa yaşlıların rəhbərliyi ilə təşkil olunur;

- asudə vaxt və istirahət yaşlılarla uşaqların qarşılıqlı fəaliyyətinin əsasında təşkil olunur;

- uşaqların öz təşəbbüsləri ilə reallaşır;

5. Nəticəyə görə:

- nəticə informasiya mübadiləsi xarakterlidir

- nəticə ümuminin qərarı, rəyi ilə, ictimai əhəmiyyətli səmərə ilə müəyyən olunur.

İşin qrup halında təşkilinə: məsləhət, yaradıcı qrup, özünüidarə orqanları, mikroqrup daxildir.

Bu formanın təşkili və həyata keçirilməsində müəllim, tərbiyəçi özlərini sıravi iştirakçı və təşkilatçı kimi aparırlar.

İşin kollektiv formasından fərqli olaraq qrup formada təşkilində müəllimin təsiri daha effektli olur, o, şagirdlərin diqqətini daha artıq cəlb edir.

Müəllimin, tərbiyəçinin əsas vəzifəsi, bir tərəfdən uşaqların özünüidarəsinə kömək göstərməkdən, digər tərəfdən isə qrupun müsbət nəticə əldə etməsinə şərait yaratmaqdan ibarətdir. Qrup formada asudə vaxtın təşkili müəllim və tərbiyəçilərin uşaqlarla humanist əməkdaşlığına əsaslanır ki, bu da onlarda kommunikativ bacarıqların formalaşmasını təmin edir. Bu əla-

qədə əsas vasitə müəllimin nümunə göstərməsidir. O, uşaqlara demokratik tərzdə, hörmətlə və taktiki yanaşmalıdır.

Asudə vaxtın kütləvi formada təşkilində müəllim uşaqlara: konkurslar, tamaşalar, konsertlər, təşviqat briqadası, yürüşlər, turizm, idman yarışları sahəsində yerinə yetirdikləri müxtəlif işinə görə yanaşmalıdır. Uşaqların yaşından və digər şərtlərdən asılı olaraq tərbiyəçi həmin formanı həyata keçirərkən müxtəlif rollarda: aparıcı şəxs kimi, təşkilatçı, fəaliyyətin sıravi iştirakçısı kimi, həm də şəxsi nümunəsi ilə, uşaqlara güclü təsiri ilə, yenilikçi iştirakçı, məsləhətçi kimi iştirak edir. Asudə vaxtı təşkil edərkən tərbiyəçi, hər şeydən əvvəl, uşaqların fəaliyyətini, maraq və tələbatlarını əsas götürməlidir.

Asudə vaxtı təşkil edərkən unutmaq lazım deyil ki, bu prosesdə hər bir forma qarşılıqlı olaraq biri digərinə keçə bilər. Məsələn: ekskursiya və ya konkurs tədbir kimi götürüldüyü halda, əgər təbdir uşaqların özü tərəfindən təşkil edilərsə, onda o kollektiv yaradıcılıq kimi götürülə bilər.

Tədbirlər müəllimin yeniyetmə və gənclərə bilavasitə tərbiyəvi təsir göstərmək məqsədilə təşkil etdiyi məşğələdir. Tədbirlər müəyyən məqsədlə təşkil edilir. Hər bir tədbir təşkil edilərkən yeniyetmə və gənclərin maraqları, münasibəti, fiziki imkanı və qabiliyyəti nəzərə alınmalıdır. Nəzərdə tutulan tədbir cəlbedici olmasa və formal xarakter daşıyarsa o özünün sosial əhəmiyyətini itirər.

Asudə vaxtın səmərəli təşkilinin əsas formalarından biri də bayram günləri ilə bağlıdır. Tədbirlər arasında bayram

günlərinin keçirilməsi böyük tərbiyəvi əhəmiyyət kəsb edir. Bayramlar çoxaspektli hadisədir.

Zəngin tarixə, əhəmiyyətə malik bayramlar cəmiyyətin bütün həyat sahəsinə güclü təsir göstərir. Bayramlar məişətdən tutmuş böyük tarixi hadisələri, ümumxalq hadisələrini əhatə edir. Bayramlar cəmiyyətin sosial və mədəni həyatını əks etdirir. Yeniyetmə və gənclərin ahəngdar inkişafında, vətəndaşlıq ruhunda tərbiyəsində böyük tərbiyəvi imkanlara malikdir. Asudə vaxtda yaxşı təşkil olunmuş bayramlar uzun müddət şagirdlərin yaddaşında qalır, onlarda gümrahlığı, əhval-ruhiyyəni yüksəldir. Bayramlar bütün dövrlərdə cəmiyyətin ən yüksək idealını əks etdirir. Siniflərin bayram günlərində bəzədilməsi, divar qəzetinin ilk nömrəsinin buraxılmasının, ad günlərinin, tarixi günlərin qeyd olunması, şəhər tamaşalarında iştirak etmək üçün hazırlıq – bunların hamısı uşaqları çox maraqlandıran, onları həyəcanlandıran ən sevimli işlərdir. Bu təəssürat uşağın həyatında silinməz izlər buraxır. Bayramlar yeniyetmə və gəncləri müqəddəs amallar uğrunda mübarizədə daha möhkəm, mənəvi tellərlə bağlayır, tədbirin daha orijinal, dəqiq, əla, səliqəli və fəal surətdə yerinə yetirilməsinə mənəvi təkan verir. Bayramlar keçirilən digər tədbirlərdən bir sıra xüsusi əlamətlərinə görə fərqlənirlər:

Birincisi, insanlarda bayramqabağı duyğular, sevincli gözləmələrdə formalaşır. Bu sevincli həyəcanlar, gözləmələr, bayram tədbirini hazırlayıb keçirən təşkilatlarda uşaqlarda əvvəlcədən gözəl əhval-ruhiyyə, bütün hərəkətləri sevinclə qəbul etmək, könül xoşluğu ilə hər hansı tamaşaya bax-

maq və s. keyfiyyətləri tərbiyə edir. Bu dövrdə təşkilatçı çoxlu sayda aksiyalar keçirir, uşaqları şənliyə hazırlayır.

Bayramların təşkilini məktəb gecələrindən, konsertlərdən fərqli olaraq əvvəlcədən hazırlıq keçirmədən təşkil etmək qeyri-mümkündür. Bayramın keçirilməsinə bir gün qalmış elan vermək olmaz. Əvvəldən elan vermək (ən azı bir həftə ərzində) və afişa asmaq lazımdır.

İkincisi, bayram hamı üçün ən sevimli, hamı ilə bir yerdə fəallıq şəraitində keçirilən vaxtdır. Bayramın ssenarisini hazırlayandan böyük ustalıq, fantaziya tələb olunur. Məktəbdə on illərdən bəri fəaliyyət göstərən «İlk zəng», «Son zəng», «Müəllim günü», «Əlifba bayramı», «Məzunlarla görüş», «Nəğmə bayramı», «Əmək bayramı», tarixi günlərin, ailədə keçirilən ad günlərinin, «Bahar bayramı», «8 Mart bayramı», «Novruz bayramı» və s. məktəblə ailə, ictimaiyyət arasında işgüzar, faydalı əməkdaşlığa geniş imkan verir.

Üçüncüsü, bayram həm də geniş masştablı bir hadisədir. Bu tədbirlər bir gündə və başqa günlərdə deyil, birbaşa bir neçə yerlərdə təşkil edilə bilər. Məsələn: zalda konsert gedir, foyedə rəqs konkursu və bal, idman zalında yarış, siniflərdə isə məzunlarla görüş keçirilə bilər. Göstərilən bu bayramların hər biri üçün proqram tutulması vacibdir.

Bahar bayramı fikrimizcə, sırf milli xarakter daşıyır. O, min illərdir ki, xalqın məişətinə, mənəviyyatına, psixologiyasına nüfuz etmiş, qəlbinə, ürəyinə hakim kəsilmişdir. Bahar bayramı yeniyetmə və gənclərdə həyat eşqi, gələcəyə böyük ümid, xoş arzular, onlarda vətənə dərin, bəşəri məhəb-

bət, dostluq, qarşılıqlı istək, gözəl, estetik zövq, nəcib duyğular aşılamağa kömək edir.

## 2.3. Asudə vaxt yeniyetmə və gənclərin mənəvi inkişafının amili kimi

Asudə vaxt cəmiyyətin və şəxsiyyətin inkişafının səviyyəsindən asılıdır. Asudə vaxt mənəvi tərbiyə vasitəsidir. Mənəvi tərbiyənin bir neçə funksiyası var: tənzimedici, tərbiyəvi, dərketmə, qiymətləndirici, istiqamətləndirici, kommunikativ və s.

Borc, vicdan, şərəf, ləyaqət, namus, qeyrət, abır, həya, mərdlik, halallıq, saflıq, paklıq, əməyə vicdanlı münasibət, vətənpərvərlik, milli iftixar hissi, humanizm, böyüyə hörmət, dostluq və yoldaşlıq, şüurlu intizam və s. mənəvi zənginliyin təzahürü olan milli-mənəvi dəyərdir. Şəxsi həyat təcrübəsinin yüksək mənəvi xarakter kəsb etməsi üçün münbit sosial şərait yaradılmalıdır. Asudə vaxt mənəvi təkmilləşmə üçün ehtiyat vaxt mənbəyidir. Mənəvi tərbiyə sistemində mədəni-maarif müəssisələrinin yeri çox böyükdür. Mədəniyyət müəssisələri şəxsiyyətinin asudə vaxtının təşkilinə birbaşa təsir edir. Mədəniyyət evlərində, klublarda, kitabxanalarda, muzeylərdə, mədəniyyət və istirahət parklarında, universitetdə keçirilən ictimai-siyasi mühazirələr, mədəniyyət universitetləri, mənəviyyat üzrə lektoriyalar, şifahi jurnallar, nəzəri konfranslar, adlı-sanlı adamlarla, görkəmli alimlər, mədəniyyət və incəsənət xadimləri ilə görüşlər mənəvi tərbiyənin əsas vasitələridir.

İnsan qabiliyyətlərinin daha dolğun aşkara çıxması yalnız

ictimai əhəmiyyətli fəaliyyət sahəsində mümkündür. O da vacibdir ki, bu fəaliyyətin yerinə yetirilməsi yalnız xarici tələbdən (cəmiyyətin, kollektivin tələblərindən) asılı olmasın, habelə şəxsiyyətin özünün daxili tələbatından irəli gəlsin.

Bu halda şəxsiyyətin fəaliyyəti özfəaliyyət olur. Həmin fəaliyyətdə onun qüvvə və qabiliyyətlərinin təzahürü özünüifadə tələbatı öz başlanğıcını insanın fərqlənmə meylindən, öz fərdiyyətini, öz «Mən»inin bənzərsizliyini dərk və təsdiqetmə meylindən götürür. Özünüifadə tələbatı yeniyetmə və gənclərin tələbatlar sistemində xüsusi yer tutur.

Şəxsiyyətin mənəvi özünüifadəsində asudə vaxt xüsusi rol oynayır. Cəmiyyətin hər bir üzvünə getdikcə daha artıq miqdarda asudə vaxt verərkən onun bu vaxtdan necə istifadə etdiyinə əsla biganə qalmır. Yeniyetmə və gənclər belə bir sadə həqiqəti dərk etməlidirlər ki, asudə vaxt əvəzsiz ictimai sərvətdir və ondan gərək ağılla, özü üçün və cəmiyyət üçün faydalı şəklində istifadə edəsən. Çox vaxt asudə vaxt boş-boşuna keçir, mənasız, bəzən isə həm də əxlaq qaydalarına zidd, cəmiyyət üçün zərərli olan əməllərə, necə deyərlər, hədər yerə sərf olunur. Asudə vaxt cəmiyyətin mənəvi sərvəti, ictimai sərvət meyarıdır. Asudə vaxt şəxsiyyətin intellektual və fiziki təmayül və qabiliyyətlərinin inkişafına, sosial tələbatının ödənilməsinə xidmət edir. Bu baxımdan asudə vaxt yeniyetmə və gənclərin mənəvi-əxlaqi, ideya-siyasi, əmək, ekoloji və əqli keyfiyyətlərinin inkişafında müstəsna əhəmiyyət kəsb edir. Asudə vaxt problemi müasir cəmiyyətimizdə getdikcə daha böyük məna daşıyır. Çünki asudə vaxt yalnız o zaman həqiqətən ictimai sərvət hesab oluna bilər ki,

bu vaxtdan insanın, onun qabiliyyətinin hərtərəfli inkişafı xeyrinə və beləliklə də bütün cəmiyyətin maddi və mənəvi qüvvəsinin daha da artması xeyrinə istifadə edilmiş olsun. Məhz buna görə də asudə vaxtdan düzgün istifadə edilməsi bütün yeniyetmə və gənclərdə yüksək mənəvi mənafe və tələbatın ödənilməsi imkanlarının təmin edilməsi problemləri müasir dövrdə getdikcə daha qlobal problemlərə çevrilir.

Asudə vaxtın səmərəli təşkili və həyata keçirilməsi yeniyetmə və gənclərin bütün həyat fəaliyyətinin müəyyən növlərini həyata keçirmək üçün – istirahət etmək, habelə ailədə və yoldaşlarla ünsiyyətə girmək üçün, gündəlik həyat fəaliyyətindən ötəri mütləq olan fiziki və zehni qüvvə və qabiliyyəti hərtərəfli inkişaf etdirmək üçün zəruri vaxt məkanıdır. Çünki asudə vaxtın mənalı keçirilməsi yeniyetmə və gənclərin fəal həyat yaşamasına imkan yaradır. Fəal həyat mövqeyi yeniyetmə və gənclərin hadisələrə, ictimai hallara, əməllərə prinsipinin münasibəti deməkdir. Fəal həyat mövqeyi insanın bir şəxsiyyət kimi formalaşmasının, sosial fəallığının mühüm tərkib hissəsi olub, onun həyata fəal təmasını, həyatda fəal iştirakını, müstəqilliyini, möhkəm əlaqəyə malik olmasını nəzərdə tutur. Fəal həyat mövqeyi həyatda yoxlanmış bilik və əqidələri, hissləri və iradəni əhatə edir, insan xarakterinin elə bir keyfiyyət vəziyyətidir ki, onun sosial və əxlaqi möhkəmliyini müəyyən edir. Fəal həyat mövqeyinin möhkəmliyi dünyagörüşün məzmunu ilə, onun ideya-siyasi istiqaməti ilə müəyyən edilir, məsuliyyətlə və müstəqil surətdə qərar qəbul etmək, sözdən işə, müəyyən edilmiş məqsəddən onun yerinə yetirilməsinə keçmək qabiliyyəti ilə müəyyən

edilir, ictimai və şəxsi davranış praktikası isə yoxlanılır. Fəal həyat mövqeyinin əsas istiqamətlərindən biri ictimai-siyasi fəallıqdır. İctimai-siyasi fəallıq şagirdlərin tərbiyə işləri planına uyğun olaraq siyasi məlumatların kollektiv dinlənilməsi və müzakirəsi, xalqımızın döyüş və əmək yerlərinə onların yürüşü, kütləvi tədbirlərdə, iməciliklərdə, ictimai-faydalı və məhsuldar əməkdə iştirakı və s. təmin olunur.

Yeniyetmə və gənclər asudə vaxtda ictimai fəallıq göstərdiklərinə görə, asudə vaxtın mənalı təşkili problemləri onların ictimai fəallığını formalaşdırmaq vəzifələrinin yerinə yetirilməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Asudə vaxtda yeniyetmə və gənclərin hərtərəfli inkişaf etdirilməsi üçün mənəvi sahədə onların fəallığının böyük əhəmiyyəti vardır. Apardığımız sosioloji sorğunun materiallarından görünür ki, yeniyetmə və gənclərin asudə vaxtının çox hissəsi (40,5%) onun mədəni formalarında (mütaliə, tamaşalar, təhsil, sevimli məşğələlər və s.), xeyli hissəsi mədəni sərvətlərin mənimsənilməsinə (80,2%) sərf olunur. Sorğuya cavab vermiş yeniyetmə və gənclərin 90 faizi hər gün qəzet oxuyur, 80 faizi televiziya verilişlərinə və radioya qulaq asır, 70 faizi təhsillə məşğuldur, 30 faizi teatr tamaşalarına gedir, 50 faizi musiqiyə qulaq asır.

Yeniyetmə və gənclər bilirlər ki, onların təhsil səviyyəsindən asılı olaraq ictimai fəallıqları o qədər yüksəkdir. Göründüyü kimi, yeniyetmə və gənclərdə ideoloji işin vəziyyəti ilə onların əmək və ictimai fəallığı arasında bilavasitə əlaqə vardır.

1. Araşdırmalar göstərir ki, ictimai-siyasi fəallıq məqsədilə yeniyetmə və gənclərin asudə vaxtın təşkilində fəal iştirakı,

birinci növbədə, dərin bilik və bacarıq tələb edir. Bilik və bacarıqlar isə öz-özünə yaranmır, ciddi fəaliyyətlə əldə edilir.

2. Yeniyetmə və gənclərin ictimai fəallığı təşəbbüskarlıq və müstəqillik tələb edir. Yeniyetmə və gənclər həmişə buna tam nail ola bilmirlər. Ona görə də, müəllimlər və sinif rəhbərləri yeniyetmə və gənclər üçün metodist, məsləhətçi, köməkçi olmalıdırlar.

3. Hər hansı bir asudə vaxt tədbirini hazırlayarkən yeniyetmə və gənclər həmin tədbirin həm ssenaristi, həm iştirakçısı, həm də rejissoru olurlar. Yeniyetmə və gənclər çox vaxt siyasi məlumatçı, təbliğatçı, dərnək rəhbəri və fəaliyyətə bilavasitə aparıcı kimi iştirak edirlər. Bu prosesdə ona müəllimin və sinif rəhbərinin pedaqoji məsləhəti çox lazımdır.

4. Ən çətin və zəruri problemlərdən biri də ictimai-siyasi təbirlərin (asudə vaxt məzmunu nöqteyi-nəzərindən) tərbiyəvi təsirinin, faydalılığının müəyyən edilməsidir. Yeniyetmə və gənclər üçün öz fəaliyyətlərinin nəticələrini yekunlaşdırmaq və qiymətləndirə bilməsi çox vacibdir.

Yeniyetmə və gənclərin ictimai fəallığı cəmiyyətin sosial-siyasi və iqtisadi inkişafı ilə şərtlənir. Yeniyetmə və gənclərin ictimai fəallığı əmək fəallığı, ictimai-siyasi fəallıq, cəmiyyətin mənəvi həyatı sahəsində fəallıq, idrak fəallığı və s. təzahür edib formalaşır. Yeniyetmə və gənclər asudə vaxtda fəal həyat mövqeyinin psixoloji əsaslarını bilməlidir. Bu ona görə vacibdir ki, fəal həyat mövqeyinin formalaşması təkcə tərbiyə vasitələrinin köməyi ilə deyil, həm də təlim və şəxsiyyətin inkişafının psixoloji aspektləri ilə fəal həyat mövqeyinə psixoloji hazırlıqla əlaqədardır. Deyək ki, yeniyetmə və

gənclər ictimai vəzifə və borca sədaqətliliyi, əməyin həm onun özünün, həm də cəmiyyətin həyatında rolunu, əsgəri xidmətin zəruriliyini tərbiyə yolu ilə keçirir, dərk edirlər, lakin bunun üçün möhkəm iradə, əqidə, hiss, qətiyyət, mütəşəkkillik, inadkarlıq, səy, mənəvi maraq və stimullar olmalıdır. Başqa sözlə, insan nə qədər yüksək əxlaqi keyfiyyətlərə malik olsa belə, onda möhkəm iradə, prinsipiallıq, qətiyyət, motivləşmə olmasa, fəal həyat mövqeyi tam formalaşa bilməz. Bu fəaliyyətdə yeniyetmə və gənclərin daxili mənəvi qüvvələri, bu və ya başqa mənəvi prinsipinin həyata keçirilməsi uğrunda fəal mübarizə əzmi həlledici rol oynayır.

Fəal həyat mövqeyi mənəvi yetkinlik göstəricisidir. Belə hesab edirik ki, gənclərimizin böyük əksəriyyətinin Vətənə məhəbbət, düzlük və doğruluq, mənəvi saflıq, ictimai və şəxsi həyatda sadəlik və təvazökarlıq, haqsızlığa, müftəxorluğa, əli əyriliyə, mənsəbpərəstliyə, qənimətçiliyə qarşı barışmazlıq və s. kimi yüksək mənəvi keyfiyyətlər səciyyələndirir.

Yeniyetmə və gənclik şəxsiyyətin formalaşmasının ən mühüm dövrüdür. Bu yaşlarda insanı yüksək dinamiklik, təəssüratların zənginliyi, böyük informasiya yükünü mənimsəmək bacarığı, öz qabiliyyətlərinin fəal şəkildə meydana çıxarmaq meyli xüsusilə fərqləndirir. Fəal həyat mövqeyi, sözün ən geniş mənasında, sosial fəallıq deməkdir. Belə mövqe həm mənəvi tədbirlərin nəticəsi, həm də onun səmərəliliyinin başlıca göstəricisidir. Fəal həyat mövqeyi yeni ictimai ideal və məqsədlərin mahiyyətini dərk etməyi, konkret şəraitdə yeridilən siyasətdən baş çıxarmağı, vətəndaş yetkinliyinin və mənəvi yetkinliyi, əməli işlərə hazırlıq səviyyəsinin,

əməyə, yaradıcı, vicdanlı münasibəti nəzərdə tutur.

Fəal həyat mövqeyini həm də fəal mənəvi mövqe ola bilməsi qarşıya qoyulmuş məqsəddən çox asılıdır. Mənəvi fəallıq yüksək şəxsi məsuliyyəti və intizamı da nəzərdə tutur. Bu bəşəri, mənəvi keyfiyyətlərin yeniyetmə və gənclərdə formalaşması üçün onlara konfort (rahat) asudə vaxt və istirahət şəraiti yaradılması, onların dövrün, zamanın qayğıları ilə yaşamasına, onların xidməti (şagird) vəzifəsini vicdanla yerinə yetirməsinə, bir növ imkan verilməsidir.

Asudə vaxtın mənalı və səmərəli keçirilməsində mədəniyyət sərvətləri ilə tanışlıq da mühüm rol oynayır. Müntəzəm olaraq bədii filmlər, teatr tamaşalarına baxılması, sərgilərə gedilməsi, bədii ədəbiyyat mütaliəsi və s. şəxsiyyətin mədəniyyət səviyyəsini yüksəldən əsas amillərdən biridir. Lakin hər cür incəsənət məhsulu deyil, yalnız ideya-bədii keyfiyyətlərə malik sənət əsərləri yeniyetmə və gənclərin mənəvi-estetik tərbiyəsi üçün həqiqi əhəmiyyət kəsb edə bilər.

Asudə vaxtdan istifadə olunmasında şəxsiyyətin mənəvi mədəniyyətini yüksəltmək üçün böyük ehtiyat mənbələri mövcuddur. Mədəniyyət müəssisələrinin tərbiyəvi məqsədi asudə vaxtı düzgün, maraqlı və mənalı təşkil etməkdir, onu sosial cəhətdən mənalandırıb, dolğunlaşdırmağa və beləliklə insanın mənəvi cəhətdən yüksəlməsinə kömək etməsinə çalışmasıdır. Mənəvi mədəniyyət yeniyetmə və gəncə öz marağını, həvəsini formalaşdırmaq və təmin etmək, yaradıcılıq qüvvələrinin inkişaf etdirmək imkanına malikdir. Mənəvi mühit nə qədər mədənidirsə, imkanlar diapazonu bir o qədər

genişdir, mənəviyyat bir o qədər zəngindir, rəngarəngdir. Asudə vaxtdan səmərəli istifadə edilməsində şəxsiyyətin münasibəti də böyük rol oynayır. Məhz bu məqsədə mənəvi-estetik tərbiyə ilə əlaqədar çoxlu problem vardır. Mədəni mühitdə yaşamaq, bilavasitə mədəni sərvətlərin əhatəsində olmaq da mümkündür, məhdud və naşı insan kimi qalmaq, öz asudə vaxtından israfçılıqla istifadə etmək də mümkündür. Mədəni cəhətdən inkişaf etmiş adamın həyat mövqeyinin fəallığı vaxt ehtiyatlarını üzə çıxarır, onun diqqətini mənəvi yüksəkliyinə cəlb edir; modanın kor-koranə yamsılanması, adət halını almış adamın davranış qaydaları belə ağılın asudə vaxtını keçirməsi çox az təsir göstərə bilər.

Yeniyetmə və gənclərdə mənəvi mədəniyyət tələbatının formalaşdırılması çox vacibdir. Çünki mənəvi mədəniyyət onların sosial yetkinliyinin əsası kimi çıxış edir. Mənəvi mədəniyyət yeniyetmə və gənclərin bilik və hisslərinin ahəngdarlığında, əqidə və hərəkətlərində, münasibətlərində, sözlə işin vəhdətində, davranış tərzinin ardıcıllığında öz ifadəsini tapır.

Yeniyetmə və gənclərdə istirahət mədəniyyətinin formalaşması da günümüzün vacib problemlərindən biridir. Yeniyetmə və gənclər aydın bilməlidirlər ki, asudə vaxt heç bir şeylə əvəz edilə bilməyən mənəvi sərvətdir. Hər bir yeniyetmə və gənc asudə vaxtdan həm özü üçün, həm də cəmiyyət üçün ağılla, faydalı istifadə etməlidir. Hər bir yeniyetmə və gənc özünün gündəlik, həftəlik və illik istirahət rejimini ağılla qurmağı bacarmalıdır.

Araşdırmalar göstərir ki, yeniyetmə və gənclərin adi gün-

lərdə beş saatlıq, istirahət günlərində on saatdan artıq asudə vaxtı vardır. Bu qədər çoxlu asudə vaxtın olması və bir çox yeniyetmə və gəncin sosial tələbatının, ünsiyyət vərdişlərinin, davranış mədəniyyətinin hələ kifayət qədər inkişaf etməməsi tam bir sıra təşkilati, pedaqoji problemlər, tərbiyə və elmi-tədqiqat problemləri irəli sürür. Yeniyetmə və gənclərin sosial cəhətdən kifayət qədər yetkin olmadıqları bir şəraitdə boş vaxtın keçirilməsində tam sərbəstlik verilməsi çox vaxt neqativ halların yaranmasına gətirib çıxarır. Əksinə, daim qəyyumluq (valideynlər, müəllimlər, tərbiyəçilər tərəfindən) passiv həyat mövqeyinin formalaşmasına: qətiyyətsizliyə, qeyri-ciddiliyə, qayğısızlığa, məsuliyyətsizliyə və müstəqil hərəkət etməyi bacarmamağa səbəb olur. Bütün bu bilik və bacarıqlar yalnız şəxsiyyətin fəal həyat mövqeyinin əsasını təşkil etdikdə, onun üçün həqiqi mənəvi sərvətə çevrilir. Mənəvi istehlakın genişliyi şəxsiyyət mədəniyyətinin göstəricilərindən yalnız biridir, mühüm göstəricidir, lakin başlıca göstərici deyildir. Şəxsiyyətin mənəvi aləminin zənginliyinin əsas meyarı, onun coşğun dəyişdirici fəaliyyətidir, onun yaradıcılıq potensialının cəmiyyətin rifahı naminə sərf olunması dərəcəsidir. Yeniyetmə və gənclərin təhsil və mədəniyyətinin daim yüksəkliyi, onların asudə vaxtının artdığı bir şəraitdə mədəni-maarif müəssisələri ideya-siyasi, əmək və mənəvi tərbiyə işinə getdikcə daha böyük kömək göstərməlidirlər. Yeniyetmə və gənclərin məzmunu asudə vaxtının təmin olunmasında, şəxsiyyətin mənəvi inkişafında onların rolu xüsusilə böyükdür.

Yeniyetmə və gənclərin asudə vaxtının düzgün təşkili həm də onlarda estetik mədəniyyətin formalaşmasına şərait yaradır. Yeniyetmə və gənclərin incəsənətlə təması, hər şeydən əvvəl, asudə vaxtda həyata keçirilir. Bununla əlaqədar olaraq cəmiyyət həyatında incəsənətin rolu, onun estetik əhəmiyyəti və bir sıra digər məsələlər asudə vaxt problemi ilə üzvü surətdə bağlıdır. İncəsənət yeniyetmə və gənclərin hissinə, şüuruna və iradəsinə təsir göstərərək real aləmin gözəlliklərini onların daha dərindən qavramasına şərait yaradır. Yeniyetmə və gənclərin bədii təhsilə malik olması, heç də onların hökmən xüsusi bədii məktəbdə oxuması nəzərdə tutulmur. Onlar bədii təhsilə teatrlara getmək, kinofilmlərə, təsviri incəsənət əsərləri sərgisinə tamaşa etmək, gözəl musiqi əsərləri ifa edilən konsertləri dinləmək, bədii ədəbiyyat oxumaq, mədəniyyət və incəsənətin müxtəlif problem və məsələlərinə dair mühazirə və söhbətləri dinləmək, respublikamızda geniş surətdə yayılmış bədii özfəaliyyət dərnəklərində iştirak etmək yolu ilə də əldə edə bilərlər. İncəsənət insan idrakının, onun bütünlükdə dünyagörüşünün, zövqünün, bədii və mədəni səviyyəsinin inkişafında çox böyük rol oynayır.

Yeniyetmə və gənclərin estetik tərbiyəsinin qarşısında duran başlıca vəzifə onlarda həyat və incəsənətdəki gözəlliyi ictimai-estetik ideal nöqteyi-nəzərindən qavramaq və qiymətləndirmək qabiliyyəti yaratmaqdan, zövqsüzlüyə, eybəcərliyə və o cümlədən əxlaq antipodlarına qarşı ikrah hissi tərbiyə etməkdən ibarətdir.

Müasir dövrdə yeniyetmə və gənclərin asudə vaxtlarının strukturuna onların estetik hisslərinin, bədii zövq və mədə-

niyyətinin inkişafında, peşəkar incəsənətə cəlb olunmasında son dərəcə mühüm rol oynayan bədii özfəaliyyət yaradıcılığı daxildir. Yeniyetmə və gənclərin ümummədəni inkişafı və estetik səviyyəsinin yüksəlməsi onların bədii yaradıcılığa daha geniş miqyasda cəlb edilməsi ilə qırılmaz surətdə bağlıdır. Bədii özfəaliyyət yalnız incəsənətin düzgün qavranılması ilə məhdudlaşmayıb, eyni zamanda, bədii qabiliyyətin meydana çıxmasına, zehni əməklə fiziki əmək arasında fərqlərin aradan qaldırılmasına, cəmiyyət üzvlərində kollektivçilik hissəsinin inkişafına və onların ictimai borcu düzgün dərk etməsinə kömək edir.

## 2.4. Yeniyetmə və gənclərin fəal həyat mövqeyinin formalaşması

Fəal həyat mövqeyi insanın elmi dünyagörüşünə, kollektivçilik əhval-ruhiyyəsinə malik olmasına, siyasi cəhətdən şüurlu olmasını, sosial həyat tərzi normalarına sahib olması amili kimi rol oynayır. Yeniyetmə və gənclərin fəal həyat mövqeyinin formalaşması dedikdə yeniyetmə və gənclərin onları və yaşadıqları cəmiyyəti narahat edən bütün müzakirələrdə, qərarlarda, mexanizmlərdə, proseslərdə, fəaliyyətlərdə, kampaniyalarda, fəaliyyət və proqramlarda haqlı iştirakının təmin edilməsidir. Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır. Dövlətin gənclə-

rin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib.

Dövlət gənclər siyasəti - gənclərin öz bilik və bacarıqlarını, təbii potensialını effektli reallaşdırmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə dövlət tərəfindən müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir. Dövlət gənclər siyasəti müvafiq hüquqi sənədlərdə öz əksini taparaq hökumət qurumları tərəfindən həyata keçirilir. Gənclər siyasətinin əsas istiqamətləri "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyənləşdirilib: Gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı; İstedadlı gənclərə dövlət qayğısı; Gənclərin sağlamlığının qorunması və fiziki inkişafı; Gənclərin məşğulluğunun təmin edilməsi; Gənc ailələrə dövlət yardımı; Gənclər təşkilatlarına dövlət yardımı.

Azərbaycan gənclərinin cəmiyyətin inkişafında və öz problemlərinin həllində rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək, paytaxt və regionlarda yaşayan gənclərin fikir mübadiləsinə şərait yaratmaq, gənclər və dövlət qurumları, hökumət nümayəndələri ilə açıq ünsiyyəti asanlaşdırmaq məqsədilə 2 fevral 1996-cı ildə müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirildi. 1997-ci il fevralın 1-də "2 fevral" - Azərbaycan gəncləri gününün elan edilməsi haqqında Sərəncam imzalandı. Həmin vaxtdan etibarən ənənəvi olaraq hər il 2 fevral günü Azərbaycan gənclərinin bayramı kimi təntənəli şəkildə qeyd olunur.

Gənclər bu gün dövlət orqanlarında, parlamentdə, bələdiyyələrdə, biznes strukturlarında və s. sahələrdə təmsil olu-

nur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər. Son illər həyata keçirilən tədbirlər gənclərin hərtərəfli inkişafının təmin olunması üçün siyasi, sosial-iqtisadi, təşkilati - hüquqi şərait və təminatların yaradılmasını sürətləndirmiş, onların ictimai-siyasi fəallığının artmasına kömək etmişdir. 6 aprel 2011-ci il tarixində prezident İlham Əliyev tərəfindən "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında sərəncam imzalanıb. Gənclər siyasətilə bağlı elm, təhsil, mədəniyyət və digər sosial sahələrə yönələn fəaliyyətlərin stimullaşdırılması məqsədilə Gənclər Fondu yaradılıb.

Ölkədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının əksəriyyəti gənclərlə bağlıdır. Ümumiyyətlə, vətəndaş cəmiyyətinin bir tərkib hissəsi olaraq gənclər QHT-lərinin də cəmiyyətdə əsas rolu vətəndaşların tələbatının ödənilməsi istiqamətində onların öz potensial qüvvələrinin səfərbər edilməsindən, bu yöndə vətəndaş şüurunun artırılması və işlək mexanizmlərin formalaşdırmasından ibarətdir. Dövlət tərəfindən gənclərə göstərilən yüksək diqqət və qayği ildən-ilə artırılmaqdadır. Yüksək intellekti və bacarığı ilə seçilən gənclərin dövlət idarəetmə işlərinə cəlb olunması deyilənləri bir daha təsdiqləyir. Gənclər siyasətinin həyata keçirilməsində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi gənclərlə işin səmərəsini artırmaqla yanaşı, onların informasiya cəmiyyətinə uyğunlaşmasına real zəmin yaradır.

Azərbaycanda gənclərin hərtərəfli inkişafı istiqamətində genişmiqyaslı işlər aparılır. Prezident İlham Əliyevin 26 yanvar 2015-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" da dövlət

gənclər siyasətinin yeni mərhələyə qədəm qoyduğunu bir daha göstərdi. Strategiyanın məqsədi 2015-2025-ci illərdə Azərbaycan gəncliyinin potensialını müasir dövrün tələblərinə uyğun inkişaf etdirmək, həmin potensialdan Azərbaycan Respublikasının mənafeləri naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyi formalaşdırmaqdır.

"2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" göstərilən müddəti əhatə edən dövrdə gənclər siyasətinin məqsədlərini, vəzifələrini və icra mexanizmlərini müəyyən edir. Həmçinin qeyd olunur ki, strategiyanın səmərəliyini qiymətləndirmək məqsədilə qiymətləndirmə indikatorları sistemi və onların ölçmə mexanizmləri yaradılmalıdır. Bu indikatorlar görülən işlərlə gənclərin vəziyyəti arasında əlaqəni özündə ehtiva etməlidir. Mövcud "Azərbaycan gəncləri" statistik toplusunun təkmilləşdirilmiş formatı və keçirilən sosioloji tədqiqatlar bu sistemin əsasını təşkil edəcək. Strategiyanın icrasının nəticəsi olaraq 2025-ci ilin sonuna qədər gənclər arasında təhsil səviyyəsinin və peşə təhsili alanların sayının artırılması, gənc məzunların ixtisaslarına uyğun işlə təmin edilməsi səviyyəsinin yüksəldilməsi, gənclər arasında işsizliyin səviyyəsinin aşağı salınması, gənclərin təhsil müddətində yaşayış şəraitinin yaxşılaşdırılması üçün ali, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin şagird və tələbələrinin yataqxanalarda yerlə təmin olunması, ali və orta ixtisas təhsili müəssisələri məzunlarının öz regionlarında ixtisaslarına uyğun işlə təmin edilməsi kimi məsələlər nəzərdə tutulub.

# III FƏSİL
# YENİYETMƏ VƏ GƏNCLƏRİN ASUDƏ VAXTININ TƏŞKİLİNDƏ MÜXTƏLİF AMİLLƏRİN ROLU

## 3.1. Asudə vaxtın səmərəli təşkilində ailənin rolu

Asudə vaxtın məzmunlu və səmərəli təşkili pedaqoji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir. Yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkilində ailənin rolu böyükdür. Yeniyetmə və gənclərin tərbiyəsi məişətdə insan fəaliyyətinin ən mühüm formalarından biridir. İctimai mənəviyyatı qoruyub inkişaf etdirmək işində bu fəaliyyət formasının əvəzsiz əhəmiyyəti vardır. Ailənin həyat tərzi, demoqrafik inkişafı və onunla əlaqədar məişət formalarının üstünlüklərindən biri adət və sərvətlərin möhkəm olmasından ibarətdir ki, həmin adət və sərvətlər uyğun olaraq valideynlər uşaqlarla gündəlik ünsiyyətə daha çox fikir verirlər. O da inkar edilməz faktdır ki, ailədə valideynlər kiçik yaşlı uşaqlarla (məktəb yaşına çatmamış və kiçik yaşlı məktəblilərlə) bilavasitə yeniyetmə və gənclərlə nisbətən sərf etdiklərindən təqribən bir dəfə yarım çox vaxt keçirirlər.

Müasir dövrdə şərait kökündən dəyişilmişdir. Yeniyetmə və gənclərin əsas kütləsi əmək fəaliyyətinə çox gec başlayır. Valideynlərin və uşaqların birgə əməyi bir qayda şəklini almayıb çox vaxt istisnaya çevrilir.

O da faktdır ki, bir çox hallarda yeniyetmə və gənclərin ərazicə ailədən ayrı həyata nisbətən tez başlayır. Sorğuların nəticəsi göstərir ki, on beş, on doqquz yaşlı şəhərlilərin bir

onda beş hissəsi ailədən ayrı yaşayır. Təbii ki, belə şəraitdə yeniyetmə və gənclərlə valideynlərin kortəbii təsir mexanizmi bir nəticə vermir. Ümumiyyətlə, getdikcə daha aydın olur ki, şüurlu tərbiyəyə, bir növ şüurlu ailə pedaqogikasına keçid valideynlərin öz tərbiyə funksiyalarını lazımi səviyyədə yerinə yetirməsi üçün zəmin yaradır.

Yeniyetmə və gənclərin asudə vaxtının təşkilində və mənəvi tərbiyədə gənc ailələr üçün yaşayış kompleksləri tikilməsi çox böyük rol oynaya bilər. Bu cür komplekslər gənc ailələrin bir sıra problemlərini həll etməyə, onları daha da möhkəmləndirməyə imkan verməklə yanaşı, həm də mənəvi ünsiyyət mərkəzinə, ictimai şənliklərin birgə keçirilməsi və mədəniyyət tədbirləri üçün şərait yaradan bir mərkəzə çevrilər.

Məlum məsələdir ki, asudə vaxt sahəsindəki meyllərdən biri «Ev» asudə vaxtının xüsusi çəkisinin artmasından ibarətdir. Sosioloqların hesablamalarına görə, yeniyetmə və gənclər təlimdənkənar vaxtlarının üç onda yeddi faizini ev şəraitində keçirir. Bu yalnız kütləvi informasiya və təbliğat vasitələrinin məişətə tətbiq edilməsi, qeyri-formal ünsiyyətə tələbatın artması nəticəsi deyildir. «Ev» asudə vaxtına meyl xeyli dərəcədə onunla bağlıdır ki, bir tərəfdən, əmək kollektivləri, digər tərəfdən isə mədəni-maarif müəssisələri bütün əhalinin, xüsusən yeniyetmə və gənclərin yeni tələbatına, asudə vaxtın çoxalmasına, onların təhsil və mədəni səviyyəsinin yüksəlməsinə vaxtında, çevik reaksiya verə bilməməsindədir.

Yeniyetmə və gənclərin «Ev» asudə vaxtına meylinin əsas səbəblərindən biri, fikrimizcə, asudə vaxtın təşkilinə

fərdi qaydada yanaşılması işinin zəifliyi, bu işin yaradıcı formalarına kifayət qədər diqqət yetirilməməsidir.

Müasir cəmiyyətimiz üçün vətəndaşların asudə vaxtını, mədəni, əxlaqi-estetik səviyyəsini müntəzəm olaraq yüksəltmək artıq səciyyəvi şəkil almışdır. Ailədə yeniyetmə və gənclərin asudə vaxtının və istirahətinin şən, mənalı və məzmunlu keçirilməsi ailə üzvlərinin sağlam və gümrah olmalarına şərait yaradır, zehni və fiziki yorğunluğu bərpa edir, ailə üzvləri arasında ünsiyyət münasibətlərinin səmimi olmasına kömək edir, xoş əhval-ruhiyyə təmin olunur. Belə olduqda uşaqlar dərslərə yaxşı hazırlaşır, ictimai işdə həvəslə və fəal iştirak edirlər.

Ailədə yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkilinə yalnız demoqrafik və əxlaqi amillər deyil, həm də psixoloji amillər ciddi təsir edir. Ailənin əsas tərbiyə imkanları, hər şeydən əvvəl, ailədaxili münasibətlərin, ilk növbədə, valideynlərlə uşaqların qarşılıqlı münasibətləri və psixoloji uyuşma və uyuzmazlıqla müəyyən olunur. Təbii ki, ailə üzvləri bir-birilərinə hörmət və qayğı ilə yanaşılarsa, qarşılıqlı kömək hissi hökm sürərsə, psixoloji iqlim əlverişli xarakter daşıyar. Ailənin psixoloji iqlimi valideynlər vasitəsi ilə uşaqlara sirayət edir. Uşaqların həm fiziki, həm də mənəvi sağlamlığı ailənin psixoloji iqlimindən bilavasitə asılıdır. Psixoloji uyuşma olmayanda valideynlərin və digər ailə üzvlərinin uşaqlar üzərində nəzarəti zəifləyir, ailə daxilində, ailənin ətrafında gərginlik yaranır, valideynlər affektiv vəziyyətdə öz münasibətlərini aydınlaşdırır, bir-birilərini günahlandırır, evə dava-dalaş salır, uşaqları öz tərəflərinə çək-

mək üçün hər cür kobud üsula əl atırlar. Yeniyetmə və gənclərin asudə vaxtının ailədə səmərəli təşkili, ailədə mədəni vərdişlər tərbiyəsinin normal qorunması ilə şərtlənir. A.S.Makarenko yazırdı: «O ailədə ki, valideynlər özləri fəal, mədəni həyat sürürlər, qəzet və kitab, əyləncələr məişətin zəruri ünsürüdür, teatr və kino məsələləri hamını çox maraqlandırır, belə ailədə, hətta valideynlər ilk nəzərdə mədəni vərdişlər haqqında düşünməsələr də mədəni vərdişlər tərbiyəsi özünü mütləq göstərəcəkdir». Ailədə mədəni vərdişlər tərbiyəsi yalnız şüurlu surətdə təşkil olunduqda, müəyyən planla, düzgün üsul və nəzarətlə müşayiət edildikdə faydalı olur. Yaxşı olar ki, valideynlər uşaqlar qarşısında yaxın, orta və uzaq perspektiv xəttinin planını cızsınlar, uşaqlarda bu plana maraq oyansın, planın yerinə yetirilməsinə kollektiv nəzarət etsinlər. Ailədə yeniyetmə və gənclərin asudə vaxtı təşkil edilərkən, çalışmaq lazımdır ki, mədəni vərdişlər tərbiyəsi işində yalnız əylənmək həvəsi, ləzzətli vaxt keçirmək qayğısı üstün yer tutmasın. Ailədə uşaqların sevinci böyük tərbiyə işi ilə ahəngdar aparılmalıdır. Hər bir ailədə uşaq üçün sağlam «Sosial inkişaf» şəraitinin yaradılması çox vacib problemdir. Bu mənada ailədə uşaqların asudə vaxtının səmərəli və məzmunlu təşkili yollarının izahı və valideynlərlə pedaqoji iş də mühüm yer tutur. Valideynlərlə edilən söhbətdən sonra müzakirənin keçirilməsi hər bir valideynin məsələyə münasibətini, izah edilən məsələnin necə mənimsənilməsini aydınlaşdırmağa və onun fikirlərində müəyyən korrektə işləri aparmağa imkan verir. Ailədə yeniyetmə və

gənclərin asudə vaxt və istirahətləri konkret işlə əlaqələndirdikdə nəticə daha sərfəli olur.

Ailədə keçirilən ad günü ənənəsi, əsgərliyə yola salma ənənəsi, ilk maaş mərasimi, təqaüdə yola salma ənənəsi, bahar bayramı adət-ənənələri, əmək ənənələri yeniyetmə və gənclərin həyat və fəaliyyətlərində böyük rol oynayır. Onlar bu günləri təkrar-təkrar yaşamaq istəyirlər. Bəzən elə olur ki, ailə üzvlərinin ilin hər ayına ad günləri düşür. Bu səadətli anı böyükdən kiçiyə hamı gözləyir, hazırlıq işləri görülür, qohum-qardaşlar yığışıb təbrikə gəlirlər. Bütün ailə üzvləri bu tədbirin hazırlanması və keçirilməsində iştirak edir, hamı özünü gümrah, şən hiss edirlər. Bahar bayramı – Novruz ənənəsi sırf milli xarakter daşıyır. Yeniyetmə və gənclər bu ənənənin hazırlanıb, həyata keçirilməsində fəal iştirak edirlər, asudə vaxtlarını şən keçirirlər.

Ailədə yeniyetmə və gənclərin asudə vaxtının səmərəli və məzmunlu təşkili və keçirilməsində «Sosial inkişaf şəraitinin yaradılması və optimallaşdırılması baxımından bir sıra nəticələri irəli sürmək olar və vacibdir:

«Sosial inkişaf şəraiti və sağlam tələbat tərbiyəsi» anlayışı özündə bir sıra pedaqoji-psixoloji və sosial amilləri birləşdirməklə inkişafda olan insanın tərbiyəsi, təlim və sağlamlığı üçün yaradılmış normal, əlverişli, inkişafetdirici sosial mühiti nəzərdə tutur.

Psixoloji amillər sırasında yeniyetmə və gənclərdə asudə vaxt üçün sağlam tələbat tərbiyəsi formalaşdırmaq da vacibdir. Tələbatın sağlamlığı, ağlauyğunluğunun meyarları

ümumbəşəri əxlaq ölçüləri ilə qiymətləndirilir. Bu əxlaqın norma və tələbləri əsrlər boyunca formalaşmış, şifahi xalq yaradıcılığında, məişət mərasimlərində və dini mərasimlərdə, gündəlik həyat tərzində təcəssüm tapmışdır. Tələbat olmadan heç fəaliyyət sahəsində nailiyyətlər əldə etmək mümkün deyil. Hələ də yeniyetmə və gənclər özlərində yaşamaq, normal və şən istirahət etmək üçün psixoloji-mənəvi tələbat formalaşdıra bilməmişlər. Onlar bu vacib və həyatı problemin həllində yenə də kənar təsirlərə üstünlük verirlər. Yeniyetmə və gənclərin hələ də bir qismi gözləmə mövqeyində durur, onların asudə vaxtını kimlərinsə təşkil edəcəyini gözləyirlər. Onu da qeyd etməyi vacib bilirik ki, yeniyetmə və gənclərin asudə vaxt və ictimai tələbatının strukturunda baş verən keyfiyyət dəyişiklikləri sosial-mədəni tələbatın birinci yerdə durduğunu, həyat fəaliyyətində bu tələbatın mühüm əhəmiyyət kəsb etdiyini bilmələri çox vacibdir. Onlar bilməlidirlər ki, ictimai həyat dəyişdikcə, ən zəruri ehtiyac və tələbat ödənildikcə, maddi və mənəvi tələbatın qarşılıqlı nisbəti dəyişir, sosial, yaradıcı, mənəvi tələbatın əhəmiyyəti və rolu getdikcə artır. Bu mənada, asudə vaxt yeniyetmə və gənclər üçün həm də mənəvi tələbatdır. Yeniyetmə və gənclərin asudə vaxtının səmərəli və məzmunlu keçirilməsinə, təbii ki, sosial şəraitin yaradılması da az əhəmiyyət kəsb etmir.

Sosial inkişaf şəraiti anlayışı özündə bir sıra pedaqoji, psixoloji və sosial amilləri birləşdirməklə daim, müntəzəm olan inkişaf və formalaşmaqda olan insanın tərbiyəsi, təlimi və sağlamlığı üçün yaradılmış normal, əlverişli, inkişafetdirici sosial mühiti nəzərdə tutur. Bu anlayışın struktur kom-

ponentlərinə insanın biogenetik təbiəti, fərdi-psixoloji xüsusiyyətləri, mühitin və ailənin etnomədəniyyəti, insanın yaşadığı konkret mühitin (kənd, şəhər, qəsəbə, tin, dalan və s.) real vəziyyəti, tərbiyə şəraiti və tərbiyə tərzi daxildir.

Sosial şəraitin normal qurulması, asudə vaxtın və istirahətin məqsədyönlü və şüurlu təşkili yeniyetmə və gənclərin inkişafına güclü təsir göstərir. Bu təsir yeniyetmə və gənclərin özünüifadə və özünü reallaşdırılması yaranan sağlam-mənəvi tələbat, maraq, arzu və münasibətlərin məzmunundan asılı olaraq dəyişə, yeni mahiyyət ala bilər. Müasir şəraitdə ailənin tərbiyə sahəsində başlıca vəzifəsi bütün uşaqlar, xüsusən, yeniyetmə və gənclərin davranışının, tələbatının, arzu və meyllərinin yeni ictimai tələblərə uyğun, məqsədyönlü, düşünülmüş, ağıllı qaydada təşkili yollarını müəyyən etməsidir.

Hazırda yeniyetmə və gənclərin asudə vaxtının və istirahətinin təşkili ən aktual problemlərdən biridir. Müasir ailə tərbiyəsi və ailə mühiti ilə dəyişən cəmiyyətdə modernləşdirilmiş təhsil arasında məzmun eyniliyi, inkişafın tələblərdə vəhdəti yaradılmalıdır. Məktəb və ictimaiyyət ailə mühitində yeniyetmə və gənclər üçün normal inkişaf şəraitinin yaradılmasına kömək etməlidir.

Araşdırmalar göstərir ki, müasir ailələrin sadələşməsi, nuklear ailə tipinə keçidlə bağlı həm cəmiyyətdə, həm də ailədə sosial inkişaf şəraitinin yeniləşməsinə baxmayaraq, valideynlərin yeniyetmə və gənclərin asudə vaxtının məzmunlu təşkili sahəsində apardıqları pedaqoji iş təcrübəsi müasir tələblərə əsaslı cavab vermir, onun müasirləşməsinə,

yeniləşməsinə ciddi ehtiyac vardır. Xüsusən bu, valideynlərin uşaqlarla dərsdənkənar fəaliyyətində olan boşluqlarla bağlıdır.

Hər bir ailə bilməlidir ki, müasir dövrdə yeniyetmə və gənclərin asudə vaxtının və istirahətinin normal səmərəli və məzmunlu təşkilinə nəzarət hələ də cəmiyyətimizdə prioritet istiqamət olaraq qalmaqdadır. Hər bir valideynin əsas vəzifəsi yeniyetmə və gənclər üçün fəaliyyət növü seçmək azadlığı, sosial-pedaqoji, mədəni, bədii-estetik tədbirlərdə iştiraka cəlb etmək, onların həyatının mənalı qurulması üçün lazım olan sosial, pedaqoji psixoloji şəraitin yaradılmasına kömək etməkdən ibarətdir.

Ailədə yeniyetmə və gənclərin asudə vaxtının mənalı keçməsi üçün əlverişli şərait yaradılmadıqda ünsiyyət əksər hallarda sağlam olmayan, bəzən də sosial cəhətdən təhlükəli formalar kəsb edir, onlar küçəyə, tin başına, əslində idarə olunmayan yerlərə və s. can atırlar. Sağlam ünsiyyət üçün lazımi sosial inkişaf şəraitinin yaradılmaması, idman məşğələlərinin və yaradıcılıq xarakterli məşğələlərin kifayət qədər səmərəli keçirilməsi yeniyetmə və gənclərin sərxoşluğa və alkoqolizmə meyl etmələri ilə nəticələnir.

Öz asudə vaxtlarını və istirahətini məzmunlu keçirmək imkanından və şəraitindən məhrum olan yeniyetmə və gənclər neqativ ünsiyyətə meyl edirlər. Bu cür həyat tərzinin isə çox vaxt acınacaqlı nəticələrə, birgəyaşayış normalarının, hüquq qaydalarının pozulmasına, hətta cinayətkarlığa gətirib çıxarması hamıya yaxşı bəllidir.

Sosioloji və demoqrafik araşdırmalar göstərir ki, müasir ailədə onun bütün üzvlərinin, xüsusən, yeniyetmə və gənclərin ailədənkənar asudə vaxt sahəsi hiss olunacaq dərəcədə artmışdır. Yeniyetmə və gənclərin asudə vaxtının (ailələrin savad dərəcəsinin aşağı səviyyədə olması, uşağın asudə vaxtının səmərəli təşkilində bacarıq və vərdişlərin kifayət qədər olmaması, ailədə uşaqların asudə vaxtına və istirahətinə laqeyd münasibət göstərilməsi, uşaqların şəxsi təşəbbüsünün boğulması və s.) ailə daxilində keçirilməsi formaları tədricən əvvəlki ideallığını itirməkdədir.

Son dövrlərdə ululların (toy bayramları istisna olmaqla) yaratdığı ailə adət-ənənələrinin, xüsusən düşünülmüş mərasim və ritualların: valideynlərin, uşaqların doğum günlərinin, «baba günü», «nənə günü»nün maddi vəziyyətdən asılı olaraq təntənəli keçirilməməsi, işlə bağlı valideynlərin vaxtının azlığı, yeniyetmə və gənclərin ailə daxilində yadlaşmasına gətirib çıxarır. Belə şəraitdə yeniyetmə və gənclər ailədən uzaqlaşırlar, təkliyə meyl edirlər, özlərini ailədə artıq adam kimi dəyərləndiririrlər, əməkdaşlıq və həmrəylik hissini itirirlər, bu halətlər ciddiləşdikcə, adiləşdikcə, onların özləri və başqa adamlar haqqında da təsəvvürləri kəskin dəyişir. Onlar ailədə tapmadıqları nəvazişi, qayğını kənar yerlərdə axtarmağa səy göstərirlər.

V.D.Papova görə, bu, əsasən, nuklear ailə şəraitində «valideynlərlə uşaqlar arasındakı ünsiyyətin, informasiya mübadiləsinin azalması ilə bağlıdır. Ona görə ki, uşaqlar və valideynlər müxtəlif qəzet və kitablar oxuyur, müxtəlif tamaşa və filmlərə baxır, idmanın müxtəlif növləri ilə məşğul olur,

müxtəlif tərzdə əylənir və istirahət edirlər. Onlar hətta eyni bir televizorda müxtəlif proqramlara baxmağa macal tapırlar». Bu mənada da asudə vaxt ailəni birləşdirmir, əksinə ayırır. Digər tərəfdən kompüterə və internetə aludəçilik ailədə uşaqlar arasındakı informasiya rabitələrini, canlı ünsiyyəti zəiflədir. Təbii ki, bu, uşaqlar arasında ünsiyyət tələbatının təmin olunmasına mənfi təsir göstərir. Yeniyetmə və gənclərin asudə vaxtlarını ailəndənkənarda, küçə qruplarında keçirməsini də, məhz bu aspektdə qiymətləndirmək lazımdır. Küçə həyat tərzi yeniyetmə və gənclərin asudə vaxt mədəniyyətinin səviyyəsini istər-istəməz aşağı salır. Bir sıra hallarda onların qrupdaxili fəaliyyəti antisosial xarakter daşımağa başlayır. Ailədə «xoş gün görməyən», «yeri gəldi, gəlmədi alçaldılan, hətta təhrif olunan», «əlindən heç bir iş gəlməyən artıq adama çevrilməsi», bir sözlə, nəzarətdən kənar olan yeniyetmə və gənclərin küçə qruplarına qoşulmasına imkan yaradır. Belə uşaqların əksəriyyəti təlimdə çatdırmır, dərsdə müəllimə qulaq asmır, dərsdə kənar işlərlə məşğul olur, tez-tez dərsdən qaçır, bütün gününü öz «sadiq dostları və rəfiqələri» ilə keçirir, sinif kollektivindən təcrid olunurlar. Nəhayətdə, belə yeniyetmə və gənclər «çətin tərbiyə olunan», bəzi hallarda isə yetkinliyə çatmamış cinayətkara çevrilirlər. Küçə dostluğu «coğrafiyası»nın genişlənməsi nəticəsində onlar asudə vaxtlarını, ailədə, məktəbdə, sinifdə, kollektivdə, həyət və məhəllədə deyil, şəhərin, kəndin müxtəlif yerlərində keçirirlər. Onların sosial aktivliyi, sərvət meylləri, hətta dəyərlərin xarakteri başqa-başqa istiqamətlərə yönəlir.

Yeniyetmə və gənclərin həyat və fəaliyyətlərinin belə demək mümkünsə, daha çox hissəsi yaşayış yerində keçir. Bu, təbii haldır. Çünki bazar iqtisadiyyatı münasibətləri şəraitində hər iki valideyn işlədiyindən dərsdən sonra uşaqların asudə vaxtının təşkilində iştirak edə bilmirlər. Yaşayış yerində yeniyetmə və gənclər məktəbdən fərqli olaraq, daha müstəqildirlər və öz asudə vaxtlarını bacardığı və lazım bildikləri kimi keçirirlər.

Müşahidələrimiz və apardığımız sorğuya cavab olaraq yeniyetmə və gənclər bildirirlər ki, yaşayış yerində sağlam sosial şərait olmadığına görə onlar dərsdən sonrakı həyatlarını evdə keçirməli olurlar. Valideynlərin səriştəsizliyi də bu prosesdə az rol oynamır. Onlar istəsələr belə evdə və məhəllədə uşaqların asudə vaxtını səmərəli təşkil edə bilmirlər. Bu da əlavə çətinliklərin yaranmasına səbəb olur. Təcrübə göstərir ki, yeniyetmə və gənclərin asudə vaxtının təşkilində məhəllə nümayəndələri, mənzil istismar sahəsi işçiləri, polis, müxtəlif ictimai təşkilatlar – deputat qrupları, ev komitələri, xalq drujinaları, bələdiyyələr, yoldaşlıq məhkəmələri və başqaları iştirak etdikdə bu işdə müəyyən səmərə əldə edilir. Yaşayış yerlərində aparılan tərbiyə işinin miqyası və xüsusiyyətləri bu işə geniş ictimaiyyətin cəlb olunmasını tələb edir.

## 3.2. Asudə vaxtın təşkilində məktəb və ictimaiyyətin birgə işi

Kimliyindən asılı olmayaraq təhsil alan hər bir insanın həyat yolu məktəb mərhələsindən keçir. Hər bir şəxs bu mərhələni keçərkən məktəbin ab-havası, özünəməxsus aurası onun əqlinin, əxlaqi-mənəvi keyfiyyətlərinin, fiziki kamilliyinin formalaşmasına təsir göstərir, onu yaşadığı cəmiyyətin, zamanın kamil insanı kimi yetişdirir. Çünki, «məktəb bilik deməkdir, maarif deməkdir, savad deməkdir». Təbii ki, məktəb özünün cəmiyyət qarşısında olan bu məsul və şərəfli vəzifəni daha ləyaqətlə, şərəflə yerinə yetirmək üçün özünün bütün potensial imkanlarından istifadə etməli, ən başlıcası, cəmiyyət qarşısında fəaliyyəti barədə hesabat verməli, həqiqi qiymətini almalıdır.

Qlobal dünyanın informasiya bolluğu şəraitində məktəbin, təhsilin vəzifələri dəyişir. Ağılın, intellektin inkişaf etdirilməsi ön plana keçir. Cəmiyyətimizin indiki mərhələsində gəncliyin ahəngdar inkişafında məktəbin rolu böyükdür. Çünki məktəbdə şəxsiyyətin inkişafı üçün məqsədyönlü, planlı və mütəşəkkil tərbiyə işi aparılır. Yeniyetmə və gənclərdə mənəvi münasibətlər – yoldaşlıq, qarşılıqlı yardım, məsuliyyət, borc və prinsipiallıq, etimad və səmimiyyət, hörmət və s. məktəbdə formalaşır, məqsəd aydınlığı və ideyalılıq, sözlə əməlin vəhdəti, müsbət keyfiyyətlər məktəbin tərbiyəvi gücünü xeyli artırır.

Başqa sahələrdə olduğu kimi, yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkilində məktəb böyük imkanlara malikdir. Məktəbdə yeniyetmə və gənclərin asudə vaxtının məzmunlu, mənalı və səmərəli təşkili, küçənin, həyatin neqativ təsirlərinin aradan qaldırılmasında həlledici rol oynayır.

Bu zaman neqativ demoqrafik təsirləri neytrallaşdırmaq üçün hansı cəhətlərə daha çox diqqət yetirilməlidir? Son dövrlərdə ümumtəhsil və ali məktəblərdə şagirdlərin (tələbələrin) asudə vaxtının, istirahətinin normal təşkilinə sosial, mənəvi, psixoloji və pedaqoji problem kimi daha çox diqqət yetirilir. Bu da təbiidir. Çünki şəxsiyyətin tərbiyəlilik səviyyəsini təyin etmək, onun nə etdiyinə, necə etdiyini, kim üçün etdiyini, nə iş gördüyünü, hansı üsullarla yerinə yetirdiyini bilmək çox vacibdir. Təbii ki, şəxsiyyət nə etməsi ilə deyil, həm də necə etməsi ilə səciyyələnir. Şəxsiyyəti ən çox yüksəldən onun həyatda necə mövqe tutması, öz həyatını, boş, asudə vaxtını necə keçirməsidir. Ona görə də asudə vaxt və ondan səmərəli, dolğun və mənalı istifadə məsələsi çox vacib sosial-pedaqoji bir problemdir. Yeniyetmə və gənclərin asudə vaxtının və istirahətinin məzmunlu təşkili və keçirilməsində məktəbin xüsusi payı və mövqeyi vardır. Lakin faktlar və araşdırmalar göstərir ki, həm ailədə, həm də məktəblərin iş təcrübəsində bu sahədə ciddi qüsurlar özünü göstərir.

Məktəblilərin asudə vaxt fondu artsa da, ondan lazımi şəkildə, səmərəli istifadə olunmur. Bu sahədə özünü göstərən ən ciddi nöqsanlar, birinci növbədə, yeniyetmə və gənclərin vaxt büdcələrinin düzgün bölünməməsi, onların dərs tapşırıqları ilə həddən artıq yüklənməsi, həm məktəbdə, həm də

evdə onlar üçün sosial inkişaf şəraitinin yaradılmaması ilə, digər tərəfdən isə onlarda asudə vaxt mədəniyyətinin, istirahət mədəniyyətinin səviyyəcə aşağı olması ilə əlaqədardır. Bu sahədə məktəb müəllimləri, xüsusən, sinif rəhbərləri səriştəli iş apara bilmirlər. Onlar artan informasiya bolluğu şəraitində yeniyetmə və gənclərin maraq, arzu, qüvvə və qabiliyyətlərini nəzərə almırlar, onların təşəbbüsü ilə, sadəcə olaraq, hesablaşmırlar. Sinif rəhbərləri və rəhbərlik daha çox şagirdi əhatə edən kütləvi tədbirlərə: bayram günlərinin, turizm və ekskursiyaların keçirilməsinə üstünlük verir, yeniyetmə və gənclərin asudə vaxtını müəyyən reqlamentlə məhdudlaşdırır, daha çox «əyləncəli» və standart xarakter daşıyan tədbirlərdən istifadə edirlər. Bütün təşkilatçılıq funksiyasını sinif rəhbəri öz üzərinə götürür, yeniyetmə və gənclərin çoxcəhətli şəxsi özünüifadəsinə imkan yaratmırlar. Ona görə də, asudə vaxt, istirahət onlar üçün ağır, mənasız, boş yerə sərf olunan bir mahiyyət alır, onların inkişafı üçün stimul yaratmır, bu da onların mənəvi cəhətdən təkmilləşmək səylərini məhdudlaşdırır. Yeniyetmə və gənclərin mənəvi özünüifadəsində asudə vaxt kimi xüsusi rol oynayır. Cəmiyyət, hər bir ayrıca şəxsə getdikcə daha artıq miqdarda asudə, istirahət vaxtı verərkən onun bu vaxtdan necə istifadə etdiyinə əsla biganə qalmır, əksinə bu işə daha çox diqqət yetirir. Cəmiyyət üçün onun, vətəndaşlarının ağır zəhmətdən sonra mənalı, məzmunlu istirahət etməsi, zehni və fiziki əməyə sərf olunmuş enerjisini bərpa etməsində maraqlıdır. Yeniyetmə və gənclərdə mənəvi əqidənin, milli ruhun, milli şüurun, mənəvi motivlərin, mənəvi hisslərin, adət və vərdişlərin, mə-

nəvi borc, şərəf və ləyaqətin, prinsipiallıq, mənəvi ideal kimi yüksək əxlaqi keyfiyyətlərin formalaşmasında asudə vaxtın və istirahətin necə böyük imkanlara malik olduğunu hər bir məktəb yaxşı bilir. Yeniyetmə və gənclərlə aparılan anket sorğularının təhlili göstərir ki, onlar vətənpərvərliyi, milli qürur və biliklərə yiyələnməyi, əməyə və əmək adamlarına məhəbbəti, əməkdə və ictimai həyatda fəal iştirak etdiyi insanlar arasında həmrəyliyi, kollektivçiliyi, iradəli və dözümlü olmağı, sadəliyi və təvazökarlığı daha çox qiymətləndirirlər. Əlbəttə, bu işdə məktəbdə, dərsdən sonra təşkil olunan fənn və marağa görə dərnəklərin, müxtəlif mövzularda təşkil olunan disputların, görüşlərin, bədii ədəbiyyat mütaliəsinin, şəhidlər xiyabanına və bayraq meydanına yürüşlərin və s. yeniyetmə və gənclərdə fəal həyat mövqeyinin, fəal həyat tərzinin, bir sözlə, vətəndaşlıq keyfiyyətlərinin formalaşmasında əvəzsiz rolu danılmazdır. Məktəbin bütün pedaqoji kollektivi yeniyetmə və gənclərin sinifdənxaric işlərdə asudə vaxtını daha səmərəli, daha mənalı, məzmunlu və dolğun keçməsini təşkil etməklə, onların meyl, arzu, qüvvə və bacarıqlarını inkişaf etdirilməsinə nail olmalıdırlar.

Məktəbdə, təlim fəaliyyəti çərçivəsindən kənarda yeniyetmə və gənclərin mənəvi və fiziki inkişafı davam edir, onların çox vaxt istər müəllimə, sinif rəhbərinə, rəhbərliyə, istərsə də valideynlərə məlum olmayan potensial imkanları məlum olur, idmanın, özfəaliyyətin ayrı-ayrı müxtəlif növlərində istedadları aşkara çıxır, habelə onların şəxsiyyətlərinin digər, xüsusi cəhətləri müəyyən olunur. Yeniyetmə və gənclərin daim artan hərtərəfli marağını və tələbatını formalaşdır-

maq, həm də ödəmək kimi olduqca vacib iş məhz burada, məktəbdə həyata keçirilir. Müəyyən dərəcədə hökm vermək olar ki, şəxsiyyətin tələbatı necədirsə, onun özü də elədir, çünki tələbatın şəxsi strukturunda onun həyati meylləri, arzu və sərvət meylləri bariz şəkildə ifadə olunmuşdur.

Adi bir misal. Təcrübəli tələbə, dərsdənkənar tərbiyə işi ilə əlaqədar təhkim olunduqları on, on birinci sinif şagirdlərinin iştirakçı ilə məktəbdə ədəbi-bədii tədbir keçirməyi planlaşdırmışdılar. Müəyyən vaxtda bu plan həyata keçirildi.

Məktəbdənkənar tərbiyə işləri yeniyetmə və gənclərin maraq, meyl və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam böyümələri üçün əlverişli şərait yaradır, onların istirahətinin, asudə vaxtlarının mənalı təşkilini təmin edir.

Məktəbdənkənar təlim-tərbiyə işi könüllülük prinsipi əsasında qurulur, ailə, təhsil müəssisələri, ictimai təşkilatlar, yaradıcılıq birlikləri, cəmiyyətlər, fondlar, əmək kollektivləri ilə birlikdə, həmçinin ayrı-ayrı vətəndaşların köməyi ilə aparılır. Məktəbdənkənar tərbiyə – təhsil müəssisələrinə aşağıdakılar: uşaq-gənclər yaradıcılıq sarayları, evləri, klublar, bədii, estetik, texniki, ekoloji, turizm və diyarşünaslıq yönümlü mərkəzlər, uşaq-gənclər idman və şahmat məktəbləri və s. daxildir. Məktəbdənkənar tərbiyə müəssisələrində məşğul olan uşaqlar, yeniyetmə və gənclər, tələbələr həmin müəssisələrin xidmətlərindən pulsuz və güzəştlə istifadə edirlər.

Məktəbdənkənar tərbiyə – təhsil müəssisələrində işin növləri və formalarını həmin müəssisələrin şuraları müəyyən

edir. Məktəbdənkənar tərbiyə və təhsil müəssisələrinin əsas fəaliyyət istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Dərnək məşğələləri;

2. Mədəni-kütləvi tədbirlərin, idman yarışlarının keçirilməsi;

3. Təlimati-metodiki işlər.

Məktəbdənkənar tərbiyə-təhsil müəssisələrində məşğul olan uşaq, yeniyetmə və gənclərlə istirahət, bayram və tətil günlərində aparılır.

Bu gün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi sistemində üç yüz yetmiş dörd məktəbdənkənar müəssisə fəaliyyət göstərir. Həmin müəssisələrə üç yüz otuz iki min uşaq, yeniyetmə və gənc cəlb edilib. Onların təlim-tərbiyəsi ilə on bir min yeddi yüz pedaqoji işçi məşğul olur. Hazırda Nazirliyin sistemində səksən üç Uşaq və Gənclər Yaradıcılıq Mərkəzi tərbiyə işi ilə məşğuldur. Bu mərkəzlərdə əsasən «Bacarıqlı əllər», «Bədii qiraət», «Rəsm», «Xalçaçılıq», «Dram», «Bədii özfəaliyyət», «Məktəb teatrı», «Rəqs», «Gənc idmançılar», «Texniki estetika», «Xor», «Tar», «Heykəltəraşlıq», «Kukla teatrı», «Coğrafiya-diyarşünaslıq», «Foto», «Tarix-diyarşünaslıq», «Qarmon» və s. adlarda dərnəklər təşkil olunur. Bu yaradıcılıq mərkəzlərində bütün təqvim ili ərzində dərnək üzvləri ilə müxtəlif mədəni-kütləvi tədbirlər, idman yarışları, müsabiqələr, sərgilər, bayram şənlikləri, ekskursiyalar keçirilir, respublika və beynəlxalq səviyyəli tədbirlərdə iştirakı təmin olunur.

Respublikada altmış üç texniki yaradıcılıq Mərkəzi fəaliyyət göstərir. Yeniyetmə və gənclərin asudə vaxtlarını səmərəli təşkil etmək, qabiliyyət və istedadlarını müəyyənləşdirib düzgün istiqamətləndirmək, onlarda təlimə marağı artırmaq, bir sözlə, onları gələcək ictimai və əmək həyatına hazırlamaqda, onlarda texniki yaradıcılıq işi üzrə təlim tərbiyə işini təşkil etməkdə Texniki Yaradıcılıq Mərkəzləri müstəsna rol oynayır. Bu mərkəzlər yeniyetmə və gənclərdə elmə həvəs, istehsalata, texnikaya məhəbbət tərbiyə etməklə, onlarda elmi axtarış, səmərələşdirmə, texniki yaradıcılıq keyfiyyətləri formalaşdırır. Texniki yaradıcılıq mərkəzləri öz işlərini məktəb, ailə və ictimaiyyətlə birlikdə həyata keçirirlər. Texniki yaradıcılıq mərkəzlərində əsasən «İbtidai modelçilik», «Radioelektrotexnika», «Elektrotexnika», «Bacarıqlı əllər», «İnformatika», «Texniki estetika», «Əyləncəli fizika», «Texniki ekologiya», «Gənc konstruktorlar», «Avto», «Raket», «Təyyarə modelçiliyi», «Kimya» və s. adlarda dərnəklər fəaliyyət göstərirlər. Texniki yaradıcılıq mərkəzinə cəlb olunan uşaq, yeniyetmə və gənclərin texniki yaradıcılıq potensialları inkişaf etdirilir, onlar erkən yaşlardan səmərələşdiricilik və ixtiraçılıq işlərinə cəlb olunurlar. Bu müəssisələrdə məşğul olan məktəblilər ümumtəhsil məktəblərində fizika, kimya, riyaziyyat, informatika, astronomiya dərslərində aldıqları nəzəri bilikləri konstruktiv fəaliyyətləri zamanı daha yaxşı mənimsəyir, həm də asudə vaxtlarını şən, yorulmadan keçirirlər.

Yeniyetmə və gənclərin asudə vaxtının mənalı təşkilində respublikada yaradılan on «Gənc Turistlər və diyarşünaslıq»

mərkəzlərinin işi də diqqətəlayiqdir. Bu mərkəz öz işini əsasən:

- Bizim irs;
- İncəsənət aləmində;
- Azərbaycan Beynəlxalq aləmdə;
- Azərbaycanın müstəqilliyi uğrunda mübarizə;
- Təbiət sirlərinə doğru kütləvilikdən turizm ustalığınadək istiqamətlər üzrə qurur. Bu bölmələrdə aparılan işlərin əsas məqsədi tariximizi, soy-kökümüzü, mədəniyyət, ədəbiyyat və incəsənətimizi yeniyetmə və gənclərə öyrətmək, vətənimizin flora və faunası haqqında onlara bilik vermək, tarixi abidələrimizi qorumaq, vətənə məhəbbət hissi aşılamaqdır. Turizm, diyarşünaslıq və ekskursiyalar artıq yeniyetmə və gənclərin həyatına möhkəm daxil olmuşdur. Turist, diyarşünaslıq və ekskursiya yürüşlərində iştirak edən yeniyetmə və gənclərin dünyagörüşü genişlənir, peşəseçmə meylləri aydınlaşır, estetik zövqləri inkişaf edir.

Turizm müasir dövrdə hər bir məktəbin həyatına möhkəm daxil olmuş, asudə vaxtın müxtəlif pedaqoji problemlərini həll etməkdə müəllimlərə və sinif rəhbərlərinə yaxından köməklik edirlər. Turizmin çoxsahəli imkanlarından pedaqoji kollektivlər şagirdlərin asudə vaxtda ideya-siyasi, əmək, mənəvi, estetik, fiziki, ekoloji və hüquqi tərbiyə prosesində daha səmərəli istifadə edirlər.

Turizm səyahətləri məktəblilərdə özünəxidmət, özünütərbiyə, dostluq, yoldaşlıq, qarşılıqlı kömək, tapşırılmış işə cavabdehlik, mənəvi təmizlik və s. kimi hisslər aşılanır. Turiz-

mə cəlb edilmiş məktəblilər içərisindən gənc geoloqlar, arxeoloqlar, tarixçilər, meşəçilər, yaşıl patrullar və s. yetişir.

Turist qrupları səyahətlər zamanı müxtəlif kolleksiyalar, herbarilər toplayır, bu isə dərslərdə alınmış bilikləri möhkəmləndirir, toplanmış materialların məktəb muzeyinə təqdim edilməsi məktəbin vasitələrlə zənginləşməsinə səbəb olur.

Görməli, gəzməli yerlərə, tarixi abidələrə, iri şəhərlərə turizm səyahətləri zamanı yeniyetmə və gənclərə bu yerlər haqqında maraqlı məlumatlar verilir ki, bu da onların yaşadığı yerlərə, bütünlükdə ölkəmizə məhəbbətini daha da artırır, günü-gündən çiçəklənən və gözəlləşən ölkəmiz onlarda iftixar hissi oyadır. Xüsusən bölgələrdən gözəl Bakımıza, Naxçıvana tez-tez turist səyahətləri təşkil edilir. Səyahət zamanı yeniyetmə və gənclərə hər iki şəhərin tarixi, mədəniyyəti, sənayesi, ali məktəbləri, muzeyləri haqqında məlumatlar verməklə yanaşı, şəhərlərimiz haqqında digər xalqların nümayəndələrinin, görkəmli adamların, yazıçı və şagirdlərin, siyasi xadimlərin ümumiyyətlə respublikamız, xüsusən gözəl Bakımız haqqında rəyləri onlarda qüsur və şərəf hissini formalaşdırır. Turizm zamanı məktəblilərdə kollektivçilik hissləri daha tez formalaşır. Çadırın qurulması, tonqalın hazırlanması, naharın tədarükü və digər işlərin yerinə yetirilməsi. Məktəblilər arasında bərabər əmək bölgüsü, yoldaşlıq hissi, qayğıkeşlik kimi xeyirxah hisslər yaranır. Turizm gəzintiləri zamanı məktəblilər bir-birinə tez isinişir, bir-birini yaxşı tanıyır, çətin anlarda bir-birinə kömək edir, lazım gəldikdə ümumi işin xeyrinə öz qüvvələrinə tirləşdirirlər. Tu-

rizm səyahətləri məktəblilərdə eqoistlik, tənhalıq, qorxaqlıq və s. kimi mənfi halların aradan qaldırılması üçün əlverişli şərait yaradır, uşaqlarda romantizm, çətinlikdən qorxmamaq, təbii çətinliklərlə üzləşdikdə öz qüvvələrini sınamaq vərdişləri tərbiyələndirir. Turizm əmək tərbiyəsi və idmanla çox sıx bağlıdır. Turizm yürüşləri zamanı məktəblilərdə cəldlik, çeviklik, qətiyyətlilik, dözümlülük kimi əxlaqi iradi keyfiyyətlər formalaşır.

Turizm, diyarşünaslıq və ekskursiyalar, gəzintilər də asudə vaxtın mənalı, məzmunlu, dolğun keçməsində çox böyük əhəmiyyətə malikdir. Təbiətşünaslıq ekskursiyaları öz tərbiyəvi və idrak məzmununa görə dəyərli hesab olunur. Ekskursiyalar zamanı yeniyetmə və gənclər təbiətin müxtəlif hadisələri ilə bilavasitə tanış olur, onun sirlərini öyrənirlər. Ədəbi mövzular, təsviri sənət, musiqi, kino, arxitektura, teatr mövzularına həsr olunmuş ekskursiyalar gözəlliyi hiss edib başa düşmək qabiliyyətini formalaşdırır, bədii zövq, mənəvi ideal hissi, yüksək mənəvi keyfiyyətlər tərbiyə edir. Yaxşı təşkil edilmiş ekskursiyalar dövrlər və nəsillər arasında qırılmaz əlaqələr olduğunu daha dərindən başa düşməkdə yeniyetmə və gənclərə kömək edir, onlarda öz xalqının şanlı tarixi, zəngin mədəniyyəti üçün iftixar hissi oyadıb, onu inkişaf etdirir, nəticə etibarilə onların ruhən daha da zənginləşdirir və mənən daha da saflaşdırır.

Asudə vaxtın fəal və mənalı keçirilməsində idmanın rolu da misilsizdir. İdmanın bütün növləri yeniyetmə və gənclərin nəinki fiziki cəhətdən bərkiməsində, həm də onların fəal həyat mövqeyinin təmin olunmasında, onların əməyə və və-

tənin müdafiəsinə hazırlanmasında ən önəmli, ən vacib vasitədir. Bu gün ölkə əhalisinin sosial tərkibinə nəzər salsaq, əhalinin yeni strukturunda gənclərin artımının sürətləndiyini görərik. Öz asudə vaxt büdcəsindən düzgün istifadə etməyən, bəlkə də heç istəməyən yeniyetmə və gənclər həyətlərdə boş-boşuna vaxt öldürdüyünü, əlində siqaret küçələri, dalanları dolaşan, çayxanalarda saatlarla vaxt keçirən, küçə və bazarlarda saqqız, siqaret, çörək, dondurma, müxtəlif şirniyyat satan, yaxud ictimaiyyətin gözü qabağında, metro girəcəyində, həyət və küçələrdə üzüklə, zərlə, kartla qumar oynayan görəndə xəcalət çəkməyə bilmirsən. Bir qisim yeniyetmə və gənclərin tüfeyli həyata meyli nəticəsində getdikcə onların mənəvi dünyalarının kasıblaşması, milli əxlaq və mədəniyyətimizdə mənfi ünsürlərin özünü açıq-aydın biruzə verməsi hallarına tez-tez rast gəlirik. Axı, bu gün xalqımızın ağıllı, savadlı, sağlam düşüncəli, həm də sağlam və güclü, qeyrətli, namuslu, əməksevər, vətənpərvər övladlarına daha çox ehtiyacı var. Yeniyetmə və gənclərin bədən tərbiyəsi və idmanla müntəzəm məşğul olmaları üçün həm şəhərlərdə, həm də bölgələrdə idman qurğuları, komplekslər, hovuzlar, nişangahlar, idman dərnəkləri və bölmələri fəaliyyət göstərir. Elm və Təhsil Nazirliyi sistemində yüz əlli yeddi gənclər idman və şahmat məktəbi mövcuddur. Bu bölmələr yeniyetmə və gənclər arasında yarışlar keçirir, onlar respublika və beynəlxalq səviyyəli yarışlarda iştirak edir. Onlardan iyirmisi Olimpiya idman (ağır atletika, akrobatika, boks, badminton, basketbol, bədii gimnastika, idman gimnastikası, üzgüçülük, velosiped idmanı, voleybol, futbol, sərbəst və Roma

güləşi, cudo, sambo, karate, stolüstü tennis, şahmat, dama) növüdür. Elm və Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən uşaq-gənclər məktəblərinin (uşaq-gənclər idman məktəbi – 93, onlardan kompleks uşaq gənclər idman məktəbi – 63) əsas vəzifəsi yeniyetmə və gənclərin asudə vaxtının nümunəvi təmin olunmasına şərait yaratmaqdan ibarətdir.

Yeniyetmə və gənclərin asudə vaxtlarının düzgün, səmərəli təşkil edilməsində muzeylər də mühüm rol oynayır. Muzeylər tariximizin mühafizəçisi olmaqla yanaşı, həm də milli ənənələrimizin, keçmişimizin fəal təbliğatçısıdır. Muzeylərdə həm də dövlətin mühüm sənədləri, qanun və qərarları nümayiş etdirilir ki, bu da buraya gələn yeniyetmə və gənclərin biliyinin artmasınaköməklik edir, onlara ideya-siyasi mətinliyi verir, keçmiş mədəni irsə, bədən tərbiyəsi və idman tarixinə məhəbbət hissinin tərbiyə edilməsinə şərait yaradır. Çalışmaq lazımdır ki, muzeylər qiymətli zinət əşyalarının, sadəcə toplanması yerinə yox, böyük əhəmiyyəti olan tərbiyə məktəbinə çevrilsin. Muzeylər tərbiyə işində böyük rol oynayır, yeniyetmə və gəncləri öz milli idealları uğrunda xalqımızın mübarizəsini işıqlandıran qəhrəmanlıq tariximizin əsil yadigarları ilə tanış edir. Ölkəmizdə muzeylərin miqyası, coğrafiyası getdikcə genişlənir, onların işinin formaları daha da müxtəlifləşir. Bakı şəhərində yerləşən «Tarix muzeyi», «İncəsənət muzeyi», «Təhsil muzeyi», «Kənd təsərrüfatı muzeyi», «İdman muzeyi», «Velosiped muzeyi» və s. muzeylər yeniyetmə və gənclərin ideya-siyasi, mənəvi tərbiyəsində, onlarda mənəvi əqidənin, vətəndaşlıq hisslərinin formalaşmasında, keçmiş mədəni irsə maraq və məhəbbətin tər-

biyə edilməsinə şərait yaradır.

Muzeylər maddi mədəniyyətin qoruyucusu kimi çıxış edərək yeniyetmə və gəncləri öz xalqının həyatının mühüm bir sahəsilə tanış olmalarına şərait yaradır. Muzeylər əyani ensiklopediyalardır. Muzeylərdəki eksponantlar milli hissləri oyadır, hisslər vasitəsilə elmi, əxlaqi-etik biliklərlə yeniyetmə və gənclərin silahlanmasını təmin edir. Muzeylər hər bir xalqın sağlamlığını (bədən tərbiyəsi və idman muzeyləri), onun keçmişini və gələcəyə baxışlarını (tarix, diyarşünaslıq, ədəbiyyat və incəsənət, təhsil muzeyləri və s.) əks etdirən canlı mənəviyyat ocaqlarıdır. Əlbəttə, muzeyə gələn yeniyetmə və gənclərin hər birinin fərdi idrak və mənimsəmə təcrübəsi, müxtəlif fəaliyyət motivləri vardır. Buna görə də yeniyetmə və gənclərin fakt və hadisələri mənimsəmə keyfiyyətlərinin yüksəldilməsində başlıca amil muzey bələdçisinin üzərinə düşür. Bələdçinin professional hazırlığı, məharət və ustalığı, bacarıq və eləcə də nitq mədəniyyəti səviyyəsinin yüksək olması zəruridir.

Yeniyetmə və gənclərin asudə vaxtının məzmunlu və dolğun təşkilində teatrların rolu da inkar edilməzdir. Teatr tamaşaçıya böyük emosional, mənəvi təsir qüvvəsinə malikdir. Yeniyetmə və gəncləri teatra cəlb etməyin xüsusi əhəmiyyəti vardır. Respublikamıza xeyli sayda uşaq-gənclər teatrı işləyir. Uşaq və gənclər teatrının ən mühüm mənəvi əhəmiyyəti gənc tamaşaçının qəlbinə yol tapmaqdan, onlara yaxşı nə varsa, hamısını müdafiə etməyi, pis əməllərə, ədalətsizliyə qarşı mübarizə aparmağı, ölkənin və öz həyatının fəal qurucusu olmağı öyrətməkdən ibarətdir. Gənc Tamaşa-

çılar Teatrı və bələdiyyə teatrları nəinki gənc, həm də yaşlı tamaşaçılar arasında böyük nüfuz qazanmışdır. Teatr daim repertuar üzərində işləyir, gənclərlə əlaqələrin formalarını genişləndirir.

Gənc tamaşaçılar teatrı nəinki uşaq, gənc, həm də yaşlı tamaşaçılar arasında böyük nüfuz qazanmışdır. Məsələn, Gənc Tamaşaçılar teatrı Dövlət dram teatrı ilə birlikdə «Teatr və uşaqlar» həftəsi keçirir. Həftəyə gənc tamaşaçının ilk dəfə teatra gəlməsi münasibətilə böyük şənliklər təşkil edirlər. Məktəbdə gənc tamaşaçılar teatrı günü keçirilir, bu yeniyetmə və gənclərin tamaşalara cəlb olunmasında müstəsna rol oynayır. Bütün bu tədbirlər təsadüfdən təsadüfə deyil, daim və hər ili aparılır. Valideynlərin və uşaqların teatra birlikdə getməsi üçün nəzərdə tutulan «ailə abonementləri» ailənin, məktəbin və teatrın tərbiyə sahəsindəki səylərini birləşdirməsinə kömək edir. Teatrlarda yeniyetmə və gənclərin mənəvi-estetik tərbiyəsi problemləri geniş müzakirə olunur. Teatrın fəaliyyətinin müxtəlif formaları gənclərin tərbiyəsində onun rolunu xeyli artırır.

Yeniyetmə və gənclərin asudə vaxtının təşkilində və mənəvi tərbiyəsində klubların və mədəniyyət saraylarının böyük imkanları vardır.  Klub və mədəniyyət sarayları elə mürəkkəb mədəniyyət kompleksləridir ki, burada yaradıcılıq və maariflənmək, istirahət və əyləncələr, kütləvi şənliklər və şəxsi görüşlər keçirmək üçün sosial şərait mövcuddur. Mədəniyyət sarayları bədii özfəaliyyətin, elmi-texniki yaradıcılığın, tətbiqi sənətin inkişafına kömək edir, marağa görə klublarda birləşirlər. Klublar və müəssisələr, klublar və

ümumtəhsil məktəbləri arasında mədəni əməkdaşlığını bir çox formaları üzrə kollektiv müqavilələr bağlanmışdır.

Klub işlərində yeniyetmə və gənclər məqsədyönlü iştirak etməli, bu fəaliyyət prosesində öz şəxsiyyətlərinin dəyərli olduğunu hiss etməli, özünütəsdiq sevinci duymağı, bu fəaliyyətin müsbət nəticələrindən təmənnasız məmnunluq hissi keçirməlidirlər. Klubun, yeniyetmə və gənclər bölməsi dərnəklərinin, studiyalarının, kollektivlərinin, həvəskar birliklərinin işi həqiqətən o zaman pedaqoji məna kəsb edir ki, məktəblilər bu işi sosial sərvət kimi dərk etsinlər. Klublarda tərbiyə işi, istirahət məhdud xarakter daşımamalı, səmərəliliyə doğru yönəldilməlidir.

Klubların fəaliyyəti həm də bədii xüsusiyyətə malik olub yeniyetmə və gənclərin həyata mənəvi-estetik münasibətinin formalaşmasına daha müstəqim kömək edə bilər.

Klublarda yeniyetmə və gənclər emosional xoşbəxtlik halı keçirir, özünün əhəmiyyətli, insanlara gərəkli olduğuna möhkəm inanırlar, yeni sosial münasibətlər tərbiyəsi əldə edirlər. Klublarda keçirilən mühazirə, söhbət, tematik gecə və digər mədəni tərbiyə tədbirləri, bədii özfəaliyyət konserti tamaşalar yeniyetmə və gənclərin mənəvi tərbiyəsində böyük əhəmiyyət kəsb edir.

Yeniyetmə və gənclərin asudə vaxtının və istirahətinin mənalı təşkilində, onlarda fəal həyat mövqeyinin və ictimai fəallığının artırılmasında kitabxanaların üzərinə də böyük iş düşür. Kitabın məzmunu, bir qayda olaraq, insanın əqlinə, onun hisslərinə, emosiyalarına da güclü təsir edir, bir növ in-

tellektual-emosional kompleks yaradır. Bundan başqa, mütaliə prosesində oxucuda çox vaxt özünü qəhrəmanlarla eyniləşdirmək, özünü onların ən yaxşıları ilə bərabər tutmaq kimi bir hal baş verir. Yeniyetmə və gənclər öz tələbatlarına uyğun olaraq kitabı da özü seçir, mütaliənin şərtlərini, sürətini özü müəyyənləşdirir, əsərin məzmununu təxəyyülündə yenidən canlandırır. Ona görə də kitab mütaliəsi daha yaradıcı və fərdiləşdirilmiş prosesdir, fəal, düşünən şəxsiyyətin tərbiyə olunmasına daha artıq dərəcədə kömək edən prosesdir. Mütaliə heç də əyləncə vasitəsi deyil, insanların ictimai-faydalı fəaliyyəti, əmək və siyasi fəallığı üçün çox mühüm stimuldur.

Yeniyetmə və gəncləri kitaba cəlb etməkdən əsas məqsəd ictimai inkişafın mürəkkəb məsələlərini müstəqil surətdə və müvəffəqiyyətlə həll etmək iqtidarında olan fəal şəxsiyyət formalaşdırmaqdır.

Müasir dövrdə elmi-texniki inqilab, yeni texnologiyaların, kompüter və internetin mövcudluğu kitabla canlı ünsiyyəti ikinci pilləyə endirmişdir. Toplanmış materiallar və verilən proqnozlar yenə mütaliənin yüksək sosial mövqe tutduğunu sübut edir. Mütaliənin rolunun yenə artacağına inananların (70 faiz) üstünlük təşkil etməsi göstərir ki, mütaliə daha çox yayılmış asudə vaxt forması olmasa da (məsələn, televiziya verilişlərinə, kinoya tamaşa, internet və kompüter, fəaliyyətsiz istirahətə az vaxt ayrılması və s.) indi də çox yüksək dərəcəli sərvət kimi başa düşülür. Kitabla ünsiyyəti gündəlik zərurət hesab edən daimi oxucuların sayı, ümumiyyətlə, oxucuların sayından, təəssüf ki, azdır. Bu işdə təkcə kəmiy-

yət göstəricilərini artırmaqdan deyil, həm də mütaliənin məzmun cəhətinə diqqəti gücləndirməkdən ibarətdir. İdeya-siyasi biliklər sistemi verən elmi dünyagörüşünü formalaşdıran kitablar mütaliənin mərkəzində durmalıdır. Müasir oxucunu daha çox maraqlandıran bədii ədəbiyyat əsərləri sırasında Qarabağ müharibəsi haqqında kitablar, tarixi romanlar və dedektiv əsərlər üstünlük təşkil edir. Bu maraq təbiidir. Maraqlıdır ki, yeniyetmə və gənclər daha çox ictimai-siyasi problemləri işıqlandıran kitablara, jurnal və qəzetlərə müraciət edir, bu da təəccüblü deyil, ictimai həyatın özünün siyasiləşməsinin təzahürüdür. Bu gün oxucuların müxtəlif marağı fonunda mütaliənin mövzu diapazonunun müəyyən məhdudluğu müşahidə olunur ki, bu da bütöv şəxsiyyətin tərbiyə olunmasına kömək edə bilmir. Oxucuların marağı əsasən bəzi başlıca mövzular, problemlər, müəyyən ədəbi janrlar ətrafında təmərküzləşir. Bu, görünür, təkcə oxucuların marağının müəyyən mənada birtərəfli olması, onların müəyyən dərəcə inkişaf etməməsi ilə deyil, həm də kitabın oxucuya çatdırılmasının təşkilində olan nöqsanlarla, oxucuların tələb etdiyi kitabların yoxluğu ilə, habelə kitablardan kifayət qədər yüksək elmi-bədii səviyyədə olmaması ilə bağlıdır.

İstər məktəb, istərsə də mərkəzi kitabxanaların işçilərinin təşəbbüsü ilə hər yerdə oxucuların əmək qəhrəmanları, Qarabağ müharibəsi döyüşçüləri, elm xadimləri ilə görüşləri keçirilir. Müxtəlif bədii, ictimai-siyasi və başqa mövzularda disputlar yeniyetmə və gənclər arasında çox müvəffəqiyyətlə keçir.

Buna görə də kitabxana işini elə təşkil etmək lazımdır ki, kitabxanalar bütün oxucuların, xüsusən, inkişaf etməkdə olan yeniyetmə və gənclərin tərbiyəsinə, onların asudə vaxtının şən və mənalı keçməsinə kompleks halında yanaşılsın, həm də işin praktikada özünü doğrultduğu müxtəlif formalarından istifadə olunsun, konkret sosioloji tədqiqatların nəticələri daha operativ nəzərə alınsın.

Dövlət və özəl kitabxanalar yeniyetmə və gənclərin dünyagörüşünün formalaşmasında fəal iştirak edirlər. Vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsi sahəsində daim iş aparırlar. Yeniyetmə və gənc oxucularla aparılan işdə tərbiyəmizə yad ünsürlərə, onun ideologiyası və əxlaqının tənqidinə çox fikir verilir. Əməyə vicdanlı münasibətin tərbiyə edilməsi, milli əxlaqi normaların formalaşdırılması və bərqərar edilməsi, yeniyetmə və gənclərin şüurunda və davranışında mühüm yer tutur.

Kitabxana işçilərinin və məktəblilərin iştirakı ilə «İctimai fəal gənci sən necə təsəvvür edirsən?», «Həyatda nəyə ən çox dözə bilmirsən?», «Dünyada sən hər işə qarışa bilərsənmi?», «2026-cı ilin gənci sən kimsən?», «Öz dövrünə layiq olmaq nə deməkdir?», «Kiməsə gərək olmaq nə deməkdir?», «Yer üzündə gərək insan olasan?», «Sən və hünər?», «Sən istirahət etmək mədəniyyətinə sahibsənmi?» və s. mövzularda keçirilən disputlar yeniyetmə və gənclərdə mənəvi-əxlaqi keyfiyyətlərin tərbiyəsində əvəzsiz rol oynayır. Kitabın köməyilə yeni bilikləri yaradıcılıqla seçib toplamaq, müntəzəm surətdə təhsil almaq qabiliyyətinin tərbiyə olunması ətraf mühiti fasiləsiz dəyişikliyi qavranmağa və öz sosial və mə-

nəvi davranışını müvafiq surətdə qurmağa kömək edir.

Kitabxanaların rolunu və tərbiyə prosesini gücləndirmək üçün onların hər biri işi yeniyetmə və gənclərin asudə vaxt və istirahəti ilə daha sıx uyğunlaşdırmalı, kitabxanalardakı fəaliyyəti ideoloji işin digər vasitələri ilə əlaqələndirilməlidir.

Yeniyetmə və gənclərin asudə vaxtlarının və istirahətinin səmərəli təşkilində, həm Bakıda, həm də bölgələrdə yaradılan şəhər parkları böyük mədəni-maarif işi aparırlar. Bakının dənizkənarı Milli Parkında, Bakının rayonlarında və bölgələrdə yaradılan Heydər Əliyev parkları bütöv rəngarəng kütləvi tədbirlər kompleksi, tədbirlər, yeniyetmə və gənclərin mənəvi tərbiyəsinə yönəldilmiş şənliklər, tematik gecələr, şifahi jurnallar, kino gecələri və maraqlı, sərgilər, ictimai siyasi mühazirələr, professional kollektivlərin və özfəaliyyət kollektivlərinin yaradıcılıq hesabatları keçirilir. Yeniyetmə və gənclərin bu parkların həyata keçirdiyi tədbirlərdə fəal iştiraka cəlb edilməsi, onların mənalı istirahətinə səbəb olur. Artıq bu parklar ölkənin bütün sahələrdə əldə etdiyi nailiyyətləri təbliğ edən mərkəzə çevrilmişdir. Burada əmək şöhrəti günləri qeyd olunur, həmin günlərdə qabaqcıl əmək müəssisələrinin hesabatları dinlənilir. İstehsalat qabaqcıllarının və yenilikçilərinin toplanışları keçirilir, ayrı-ayrı müəssisələrin buraxdığı keyfiyyət nişanlı məmulatlardan ibarət sərgilər təşkil olunur, əmək şöhrəti xiyabanları tərtib edilir. Bayram günlərində, həftənin hansı günündə isə uşaqlar, yeniyetmə və gənclərə pulsuz xidmət göstərilir, şəhər məktəblilərinin kollektiv gəzintiləri təşkil edilir. Mərkəzi Milli parkda «Sağ-

lam yay», «Əməkçi gənclər», «Qızıl payız», «Qış gecəsi» kimi səhnələşdirilmiş şənliklər artıq ənənəvi hal almışdır. Ümummilli lider, böyük öndər Heydər Əliyevin doğum günü ilə əlaqədar hər ilin may ayında keçirilən Gül bayramı yüz minlərlə uşaq və gənclərin əsil istirahət bayramına çevrilmişdir.

Ümumiyyətlə, asudə vaxt gərək elə təşkil edilsin ki, o yeniyetmə  və gənclərin həm fiziki inkişafına, həm də ideyaca zənginləşməsinə, yüksək mədəni tələbat və estetik zövqün formalaşdırılmasına, bütün dünya mədəniyyətinin ən yaxşı nailiyyətlərinə qovuşmasına kömək etsin.

5. Müasir dövrdə tələbə gənclərin asudə vaxtının səmərəli təşkili və ondan istifadə

1. Ali məktəblərdə tələbə gənclərin gələcək müəllim kimi pedaqoji fəaliyyətində yeniyetmə və gənclərin asudə vaxtını və istirahətini təşkil etməyə hazırlanması.

2. Tələbələrin asudə vaxt büdcəsini düzgün bölüşdürməsi və ondan səmərəli istifadə olunması yolları

3. Tələbələrin asudə vaxtının və istirahətinin səmərəli təşkilinə ictimai təşkilatların, fakültə dekanları, ictimai kafedraların rəhbərliyi.

Bu günün tələbəsi sabahın müəllimi, həkimi, alimi və ictimai xadimidir. Onların gələcəkdə bu müqəddəs və bəşəri vəzifələri bir vətəndaş kimi məsuliyyətlə yerinə yetirmələrinə, ali məktəb partalarından başlayaraq onları bu işi icra etmələri üçün sosial-pedaqoji və psixoloji hazırlıq tələb olunur. Yeni pedaqoji təfəkkür baxımından, müasir dinamik inkişaf şə-

raitində iş vaxtından və işdənkənar vaxtdan səmərəli istifadə edilməsinin zəruriliyi ön plana keçir.

Cəmiyyətin sosial strukturunda xüsusi qrup olan tələbə ali təhsil müddətində öz asudə vaxtını düzgün bölməyi və ondan ağılla, mənalı və dolğun istifadə etməyi bacarmalıdır. Bu keyfiyyət onların məhsuldar işləmələri, fəal ictimai iş aparmaq iqtidarında olmalarına bir növ təkan verə bilər.

İşdə səmərəlilik və keyfiyyət xətti, hər şeydən əvvəl, tələbələrin asudə vaxtdan səmərəli istifadə etmələri ilə üzvü surətdə bağlıdır. Ali məktəblərdə tələbələr (xüsusən müəllim qrupunda oxuyan tələbələrin) elmlərin əsaslarına yiyələndikcə, həyat təcrübələri zənginləşdikcə onların nəzəri getdikcə özünün daxili aləminə, daxili qüvvələrini dərk etməyə yönəlir və idrak imkanı gücləndikcə, uşaqlarla işləmək metodikasına sahib olduqca rəftarlarının tənzimlənməsi arasında münasibət yaranır. Bu, getdikcə biliklərin mənəvi əqidəyə, mənəvi motivlərə, mənəvi hisslərə və vərdişə, mənəvi borca, şərəf və ləyaqət, mənəvi ideala çevrilir. Səriştəli müəllim yeniyetmə və gənclərin əxlaqi şüuruna təsir etməklə onlar qarşısında hər hansı fəaliyyət məqsədi qoyur və onları həmin fəaliyyətə yönəldir. Məktəbliləri, xüsusən, yeniyetmə və gəncləri fəaliyyətin istiqamətləri baxımından formalaşdırmaq o qədər də asan məsələ deyildir. Bu sahədə orta məktəbdə müəllim kimi fəaliyyət göstərəcək tələbələrin idarəetmə bacarığına yiyələndirilməsi mühüm məsələdir. Ali məktəbdə qazanılmış biliyi orta məktəb təcrübəsində tətbiq etmək bacarığı tələbələrdə böyük məsuliyyət hissi tələb edir. Tələbələr ali məktəblərdə ixtisasları ilə bağlı bilikləri mək-

təb təcrübəsində sınaqdan keçirir, həqiqiliyini yoxlayır, pedaqoji təcrübədə daha da möhkəmləndirirlər. Onlar seçdikləri ixtisasa olan məhəbbətini, sevincini, məktəbdə şagirdlərinə də sevdirməyi bacarmalıdır. Bu, özünü, həm tərbiyəçi müəllim və sinif rəhbəri kimi aparmaq məsuliyyətini formalaşdırır, eyni zamanda, özünə tələbkarlıqla yanaşmaq, rəftarına, geyim tərzinə, hərəkətlərinə ciddi fikir vermək hissləri aşılayır. Ona görə ki, o, ilk növbədə, öz şəxsi timsalında şəxsiyyət tərbiyə edir. Bu vacib məsələləri tələbələr auditoriyada nəzəri cəhətdən mənimsəyirlər. Yeniyetmə və gənclərin tərbiyə işini aparmaq metodikasını isə pedaqoji təcrübə müddətində əldə edirlər. Pedaqoji təcrübə vaxtı tələbələr ixtisasları ilə bağlı aldıqları nəzəri bilikləri sinif rəhbəri kimi təhkim olunduqları siniflərdə həyata keçirirlər. Tələbələr, ilk növbədə, pedaqoji təcrübə zamanı yeniyetmə və gəncləri ictimai işlərə cəlb etmək, sinifdənkənar vaxtda mütəmadi olaraq əmək veteranları, elm adamları, şair və yazıçılarla, Qarabağ döyüşçüləri, ictimai maarif işçiləri ilə görüşlər keçirməyə, ekskursiyalar aparmağa hazırlanmalıdırlar. Tələbələri bədii yaradıcılıqla məşğul olmaqla, yeniyetmə və gənclərlə bədii əsərlərin müzakirəsini keçirməsinə, özfəaliyyət dərnəklərində fəaliyyət göstərmələrinə, rollu oyunlarda həvəslə iştirak etmələrinə böyük təsir göstərə bilər. Yeniyetmə və gənclərin asudə vaxtlarının səmərəli təşkili, əməli bacarıq və vərdişlərə yiyələnmələri onların mənəvi və intellektual inkişafı, potensial tədqiqatçılıq qabiliyyətlərinin formalaşdırılması baxımından çox faydalıdır.

Ali məktəblərdə tələbələrin mənəvi cəhətdən formalaşma-

sı prosesi təhsillə tərbiyənin qırılmaz vəhdəti olub, tələbələrin bir mütəxəssis və vətəndaş kimi sosial-pedaqoji funksiyaları və peşə funksiyalarını yerinə yetirməyə hazırlanmasına kömək edir. Sabahın mütəxəssisinin hazırlanması kompleks xarakter, sistem xarakteri daşıyır, onun ideya-siyasi, vətəndaşlıq, mənəvi keyfiyyətlərinin, dünyagörüşünün, ictimai fəallığının formalaşmasını, yeniyetmə və gənclərin mənəvi potensialını əks etdirən mədəniyyət səviyyəsinin yüksəldilməsini əhatə edir.

Tələbələr yeniyetmə və gənclərin tədris zamanı aldıqları bilikləri sinifdənxaric məşğələlərdə daha dərindən təkmilləşdirmək, müstəqil mühakimə yürütmək əldə etmələrinə nail olmalıdırlar.

Ali məktəbdə təhsil-tərbiyə işinin səmərəliliyinin və keyfiyyətinin artırılması tələbələrin təlim və təlimdənkənar fəaliyyətinin təşkili ilə bağlıdır.

Ali məktəb təcrübəsi göstərir ki, tələbələrin davranışının və təliminin səmərəliliyi həm ali məktəbdə, həm də auditoriyadankənar vaxtdan səmərəli istifadə etməkdən çox asılıdır. Odur ki, təhsilin ilk günlərindən tələbəyə öz asudə vaxtından səmərəli istifadə etmək bacarığı, vaxtı düzgün bölüşdürmək mədəniyyəti aşılamaq vacibdir.

Tələbənin vaxt büdcəsi üç əsas komponentdən ibarətdir:

- tədris müddəti (təlim prosesilə əlaqədar müəyyənləşdirilmiş vaxt-reqlament, müstəqil işləməyə ayrılan vaxt)

- auditoriyadankənar vaxt (yola, nəqliyyata, özünəxidmətə, qidalanmağa, yuxuya və s. sərf olunan vaxt)

- asudə vaxt (ictimai fəaliyyətə, estetik, mənəvi və fiziki inkişafı, istirahətə ayrılan vaxt).

Asudə vaxtın düzgün təşkili tələbənin məqsədindən, şüurluluq səviyyəsindən, əmək və istirahət rejimindən, maraq və meyllərindən, adətlərindən, fəaliyyət formalarını seçə bilmək bacarığından asılıdır. Təbii ki, tədris ili ərzində tələbələrin təlim və elmi fəaliyyətinin həcmi və intensivliyi, asudə vaxtın strukturu və məzmunu daim dəyişir, vaxt büdcəsi dinamik xarakter daşıyır. Tələbənin vaxt büdcəsinin təşkilinə və istifadəsinə yönələn pedaqoji təsirlər çevik, mütəhərrik və diferensial xarakter daşıyır. Təcrübə göstərir ki, aşağı kurslarda tələbələr asudə vaxtdan ekstensiv surətdə istifadə edirlər. Yuxarı kurslarda isə müstəqil işlərə, elmi fəaliyyətə, ixtisaslaşmaya ayrılan vaxtın artması ilə əlaqədar pedaqoji təsirlər intensiv istifadə bacarığının formalaşmasına yönəldilir.

Hər bir ali məktəb tələbələrdə özünün təlim fəaliyyətini və asudə vaxtını düzgün təşkil etmək mədəniyyəti formalaşdırmalıdır. Hər bir tələbə: tədris həftəsi üçün vaxt büdcəsindən istifadə cədvəli, rejimi üzərində düşünməli; tədris illərinin ilk aylarında müxtəlif xarakterli praktik məşğələlərdə, seminar və laboratoriya məşğələlərində fəallıq göstərməli, fakültə və universitetdə həyata keçirilən mədəni-kütləvi işlərə maraq göstərməli, fəal ictimaiyyətçi kimi tanınmalı, teatr tamaşalarına, konsertlərə, bədii-sənədli filmlərə, muzeylər və sərgilərə kollektiv baxmalı, fikir-rəy mübadiləsi keçirməli, ən aktual mövzularda disput və diskussiyalarda iştirak etməlidirlər və s.

Asudə vaxt tələbə gəncin istirahətini təmin etməklə bərabər, həm də onun ahəngdar inkişafı üçün möhkəm zəmin yaradır.

Asudə vaxtın düzgün təşkili tələbələrin mənəvi-estetik inkişafını təmin etmək, onların bilik, bacarıq və təhsil səviyyələrini yüksəltmək üçün çox böyük əhəmiyyətə malikdir.

Son dövrlərdə ali məktəblərdə tələbələrin asudə vaxtı və onun tərbiyə prosesində tətbiqi əhəmiyyətli səviyyədə həm sosial-pedaqoji, həm də psixoloji cəhətdən tədqiq olunmuşdur. Bu da dərsdənkənar vaxt büdcəsinin strukturunu təyin etməyə, tələbələrin asudə vaxtının, həmçinin həmin dövrdə keçirilən məşğələ növlərinin, onların xüsusi çəkisinin və siyasi hazırlığının, peşə hazırlığının səviyyəsini yüksəltmək, fiziki kamilləşmə və mənalı istirahət üçün məqsədəuyğun olub-olmadığını müəyyən etməyə, tələbələrin asudə vaxtdan məqsədyönlü istifadə etməsinə universitet və institutun ictimai təşkilatçılarının təsirini öyrənməyə şərait yaratmışdır. Dərsdənkənar vaxt dedikdə, tələbələrin məşğələlərdə keçirdiyi müddətdən başqa əyləncəli istirahəti, öz zehni və fiziki qabiliyyətlərini daha da inkişaf etdirməsi nəzərdə tutulur. Məlumdur ki, tələbənin bacarıq və vərdişlərinin hərtərəfli inkişaf etdirilməsi, ilk öncə, təhsillə əlaqədardır.

Mürəkkəb ictimai hadisə olan təhsilin mənəvi amil kimi tələbənin inkişafına təsiri çoxcəhətlidir.

Təbii ki, cəmiyyətin iqtisadi-mədəni inkişafı səviyyəsi, başlıca olaraq, təhsillə bağlıdır. Gələcəyin müəllimi, həkimi, alimi və ictimai xadimi olan tələbələrin dərin təhsil alması

çox vacib məsələdir. Məhz, təhsilin köməkliyi ilə hər bir tələbə təbiətin, ictimai həyatın, insan təfəkkürünün və davranışının qanunları haqqında müəyyən biliklərə yiyələnərək, təbii və ictimai hadisələri, onların əlaqələrini və inkişaf meyllərini izah edə bilər. Təhsil məqsədyönlü idrak prosesidir, elə bir fəaliyyətdir ki, insan müxtəlif məsələlərə təsadüfi tanışlıqdan, pərakəndə biliklər, müəyyən məsələlər dairəsi barəsindəki bilikləri sistemləşdirməyə keçir, obyektiv elmi məntiqi getdikcə daha dərindən mənimsəyir, düşünmək və müstəqil fikir yürütmək qabiliyyətini inkişaf etdirir. Şübhə yoxdur ki, tələbənin asudə vaxt büdcəsinin xeyli hissəsi (60%) təhsil məsələlərinə sərf olunur. Anket sorğusunun nəticəsi göstərir ki, tələbələr vaxt büdcəsindən səmərəli istifadə etmirlər. Sadəcə onu bölüşdürə bilmirlər. Alınmış materialların təhlili tələbələrin sutkalıq vaxt büdcəsinin həcmini və strukturunu müəyyənləşdirmək (universitetdə keçən vaxt – 86%, kitabxana v laboratoriyalarda müstəqil iş 3,2%, dərsdənkənar vaxt 15,6%,  asudə vaxt 3,6%) və onların dərsdənkənar vaxtını ayrılıqda göstərmək üçün əsas olmuşdur.

Tələbələrin kursdan, yaşayış yerindən asılı olaraq sərf etdikləri vaxt büdcəsini bilmək də çox vacibdir.

Məsələn: asudə vaxta (1 kurs) 2,6%, (2 kurs) 3,6%, (3 kurs) 3,8%, (4 kurs) 4,3%, universitetə getmək və qayıtmağa 2,5 saat, məşğələlərə hazırlaşmaq 2,3 saat, ev işlərini yerinə yetirməyə 2,2 saat) vaxt sərf edirlər. Kirayə qalan tələbələr valideynləri ilə bir yerdə yaşayanlarla müqayisədə 28% çox vaxt sərf edirlər.

Tələbələrin asudə vaxtının təşkilinə təsir göstərən obyektiv və subyektv səbəbləri də öyrənməyə səy göstərmişik. Buraya (tələbəni əhatə edən sosial-demoqrafik, məişət və maddi şərtləri, ali təhsilin inkişaf səviyyəsini, ərazi iqlim şəraiti, milli-psixoloji xüsusiyyətləri, tələbə əməyinin xarakterini, əməyə sərf olunan vaxt büdcəsini, tələbələrin bilik səviyyəsini, ictimai təcrübələrini, elmin, mədəniyyətin, ədəbiyyatın və kütləvi informasiya vasitələrinin inkişaf səviyyəsini və s.) daxil etmək olar. Tələbənin aktiv asudə vaxt keçirməsinə, istirahətinə həm də onun yaşadığı mikromühitin şərtləri, fəaliyyətinin funksional xüsusiyyətləri və psixoloji strukturu da təsir göstərir. Əlbəttə, sosial hadisə olan aktiv asudə vaxtın bir çox kəmiyyət və keyfiyyət səviyyəsi konkret tələbə qrupunun və ayrıca hər bir tələbənin subyektiv mövqeyindən, əlamətindən, ustanovkalarından, onların asudə vaxta münasibətlərindən, yetkinlik səviyyəsindən də asılıdır. Bu prosesdə demoqrafik amillərin təsiri də çox qüvvətlidir. Sorğunun nəticələrinə görə, asudə vaxtdan səmərəli və dolğun istifadə oğlanlara nisbətən qızlarda (75%) daha yüksəkdir. Tələbənin asudə vaxtının müəyyən hissəsi (2,8%) ictimai-faydalı işlərə sərf olunur. Bu, təbii haldır. Çünki asudə vaxt ictimai vaxtdır və ondan istifadə edilməsi də məqsədyönlü olmalı, sosial cəhətdən fəal şəxsiyyət tərbiyə etməlidir.

Tələbələrin asudə vaxtı müstəsna mürəkkəbliyi ilə fərqlənir və bu ictimai qrupun başlıca xüsusiyyətlərini əks etdirir.

Təqdimat prosesində universitetin (BDU) fakültələrinin (Tarix, Coğrafiya, Sosial elmlər və psixologiya, Filologiya, Kimya, Beynəlxalq hüquq, Jurnalistika və s.) və ayrı-ayrı tə-

ləbə qruplarının maksimum təmsil olunmasına xüsusi fikir verilmişdir.

Alınmış məlumat universitet üzrə ümumi mənzərəni əks etdirir. Sevindirici işdir ki, demoqrafik əlamətlərinə görə universitetdə təhsil alan tələbələrin altmış faizi bölgələrdən (fəhlə və kəndli ailələrindən), qırx faizi isə şəhərlərdən (ziyalı ailəsindən) olmuşdur.

Tədqiqat prosesində universitetin ictimai təşkilatlarının, ictimai elmlər kateqoriyalarının fəaliyyəti, əsas kitabxananın, tələbə elmi cəmiyyətinin işi, auditoriyadankənar fiziki tərbiyəsinin, bədii özfəaliyyətin və s. vəziyyəti öyrənilmişdir. Asudə vaxtın həcmini, strukturunun və məzmununun öyrənilməsi gedişində müsahibələr və anket doldurulması keçirilmişdir ki, bu da tələbələrə nəzərdən keçirilən məsələlər barəsində öz konkret təkliflərini irəli sürməyə və tənqidi qeydlərini söyləməyə imkan vermişdir. Alınmış materialların təhlili tələbələrin sutkalıq vaxt büdcəsinin həcmini və strukturunu müəyyənləşdirməyə və onların auditoriyadankənar vaxtına ayrılıqda öyrənilməsinə imkan vermişdir.

Tələbələrin mədəni həyatının öyrənilməsi də maraqlıdır. Tədqiqat göstərir ki, tələbələrin səksən faizi təkcə bir ay müddətində orta hesabla yalnız iki dəfə kinoteatra gedir, üç onda iki faizi konsertdə və ya teatrda olur, əlli faizi sərgiyə və ya muzeyə gedir və otuz səkkiz faizi vaxtını musiqi gecələrində, ədəbi gecələrdə keçirir.

Sevindirici haldır ki, tələbələrin mütaliəyə tələbatı daim artır. Bu tələbat tələbələrin təhsil və mədəni səviyyəsinin

yüksəlməsi ilə bağlıdır. Məqalə və tezislə elmi konfranslarda çıxış edirlər. Asudə vaxtın səmərəli təşkili tələbə gənclərdən yüksək sağlamlıq, fiziki hazırlıq tələb edir. Asudə vaxtda tələbələrin estetik və hərbi-vətənpərvərlik tərbiyəsinə də fikir verilməlidir. Tələbələrin elmi dünyagörüşü təkcə təlim vaxtı deyil, asudə vaxtda da davam etdirilməli, onların ictimai-siyasi praktikasının, ictimai-siyasi attestasiyasının hazırlanması və keçirilməsi dövründə, ictimai peşələr fakültəsi bölməsinin və gənc mühazirəçi məktəbin məşğələlərində, siyasi informasiyalar keçirilməsi zamanı və başqa tədbirlərdə də formalaşır.

Sosial cəhətdən fəal şəxsiyyətin inkişafına fəaliyyətin təsir etməsi nöqteyi-nəzərindən fəaliyyət göstərilməsinin xarakteri asudə vaxt strukturunun təsnifatı üçün əsas götürülmüşdür. Universitet tələbələrinin artıq asudə vaxt büdcəsinin məzmunu faizlə belədir: kitab mütaliəsi 25,1%, televiziya verilişlərinə tamaşa 40,5%, sevimli işə 30,6%, idman məşğələləri 40,5%, kinoteatrlara getmək 6,7%, muzeylərə getmək 2,5%, bədii özfəaliyyət məşğələləri 1,7%, teatrlara, konsertlərə getmək 12,8%, istirahət gecələri 15%, şəhər kənarına, gəzintilər, turizm 8,3%, texniki yaradıcılıq dərnəklərində iştiraka 16,5%, dostlarla görüşlər 30,2%, kolleksiyaçılıq 1,2%, kompüter və internetlə oyuna 39,2% və s.

Sorğudan o da aydın olundu ki, orta məktəbin ictimai həyatında fəal olan məzunlar tələbəlik illərində də fəaldırlar (84%). Tələbələrin aktiv asudə vaxt sərfi, həm də onların psixoloji xüsusiyyətlərindən, partiyalılıq mənsubiyyətindən (90,7%), ailə vəziyyəti və yaşadığı yerdən də asılıdır. O da

sevindirici haldır ki, ictimai işlərdə fəallıq göstərənlər (elmi yaradıcılıqda (42,4%), idmanda (41,5%), tələbə inşaat dəstələrində (38,5%), bədii özfəaliyyətdə (24,6%), elmi konfranslarda (32,5%, magistrantlar), «Gənc lektorlar», «Təravət», «Gənclik və beynəlmiləl dostluq», «Nəsimi» asudə vaxt mərkəzinin işində (25,5; 18,7; 30,3%) fəal iştirak edirlər. Tələbələrin asudə vaxtının səmərəli təşkili həm də onların seçdikləri ixtisasın və fakültənin təmayülündən də asılıdır.

Sorğunun nəticəsi göstərir ki, seçilən ixtisasın ictimai təsiri böyükdür. Humanitar (filologiya, tarix, kitabxanaçılıq, hüquq, informatika, sosial elmlər və psixologiya fakültəsi tələbələri ilə) fizika, kimya, riyaziyyat, tətbiqi riyaziyyat və kibernetika, biologiya, coğrafiya, ekologiya fakültəsi tələbələrinin asudə vaxtdan səmərəli istifadə fəallığı arasında böyük fərq vardır. Humanitar fakültə tələbələrində özlərini elmi, ədəbi, bədii yaradıcılığa, ictimai xadimliyə, rəhbərlik fəaliyyətinə hazırlamaq imkanı vardır. Bu isə onlardan daha yüksək fəallıq göstərmək və mənəvi təkmilləşmə tələb edir. Tələbələrin praktiki ictimai fəaliyyətdə iştirakının kəmiyyət və keyfiyyət göstəriciləri həm də onların bu fəaliyyətə sərf etdikləri vaxt büdcəsinin miqdarı ilə ölçülür. Aldığımız cavablardan məlum olur ki, tələbələrin 60% özlərinin ictimai borclarını hər gün və ya həftədə bir neçə dəfə, 25% isə ayda bir neçə dəfə yerinə yetirirlər. Yalnız 14% ictimai işlə təsadüfi hallarda məşğul olur. Tələbələrin otuz bir, onda beş faizi hər gün ictimai işə, üç saat, 65% üç, dörd saat vaxt sərf edir. Asudə vaxt sizə nə verir? Sualına tələbələrin (82,4%), «Cəmiyyətə xeyir vermək», «İctimai borc, vəzifə hissi»

(62,8%), «Kollektivdə olmaq arzusu» (75,3%), «Ümumi inkişafa kömək edir» (82,5%), «Yaxşı oxumağa kömək edir» (76,9%), «Şəxsi maraqlar» (30,5%).

Cavablar göstərir ki, tələbələr ictimai mənafeyi şəxsi mənafedən üstün tutur, asudə vaxtın özündə belə ideya-siyasi və mənəvi zənginliyə daha böyük vaxt ayırırlar.

Asudə vaxtda aparılan elmi-tədqiqat işi, elmi-texniki nailiyyətləri əməli fəaliyyətdə yaradıcılıqla tətbiq etməyi bacaran mütəxəssislər hazırlanmasının və tərbiyə olunmasının keyfiyyətini yüksəltmək üçün səmərəli vasitədir. Son illərdə universitetin beş mindən artıq tələbəsi, yəni hər beş tələbədən üç nəfəri elmi-tədqiqat işlərində iştirak edirlər.

Fiziki tərbiyə ali məktəblərdə bütün təlim-tərbiyə prosesinin üzvi bir hissəsidir.

Asudə vaxtın, bizə belə gəlir ki, çox hissəsi tələbə gənclərin fiziki tərbiyəsinə, onların sağlamlığı məsələsinə sərf olunmalıdır. «Sağlam bədəndə sağlam ruh olar» kəlamı bu gün daha aktual səslənir. Gənclərin fiziki inkişafına nail olmaq dövlətin yürütdüyü siyasətdə prioritet faktor olaraq qalır. Bakı şəhərində və rayonlarda tikilən, yeniyetmə və gənclərin istifadəsinə verilən Olimpiya kompleksləri fiziki cəhətdən sağlam, mənən mətin gəncliyin inkişafına xidmət edir. Ayrı-ayrı fakültələr arasında və başqa ali məktəblərlə keçirilən futbol, voleybol yarışları, məhz bu tələbatın ödənilməsinə xidmət edir.

Gənclərin yay tətillərini səmərəli keçirməsi üçün yaradılan yay məktəbləri layihəsi çərçivəsində gənclər həm mənalı

istirahət edir, həm də onların digər gənclərlə mənəvi ünsiyyəti təmin olunur. Sözsüz ki, dövlət tərəfindən gənclərin asudə vaxtının səmərəli keçirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin və gənclərə verilən dəstəyin, onların milli-mənlik şüurunun inkişafına və vətənpərvərlik hissinin artmasına böyük təsiri var. Tələbələrin asudə vaxtının mənalı, məzmunlu təşkili baxımından Bakıda, Sumqayıtda, Gəncədə, Mingəçevirdə və Naxçıvan şəhərində tikilib istifadəyə verilən «Gənclər evləri»ni bu istiqamətdə olan əlamətdar hadisələrdən saymaq olar. Bu məsələdə «Mədəniyyət və turizm», Təhsil Nazirliklərinin və hər bir ali məktəbin imkanları genişdir.

Bu istiqamətdə ali məktəblərdə auditoriyadankənar və məktəbdənkənar tərbiyə orqanlarında tələbələrin maraq, meyl və bacarıqlarının, intellektual səviyyələrinin, yaradıcılıq qabiliyyətlərinin inkişafı, fiziki cəhətdən sağlam, estetik və etik cəhətdən zəngin, bədii zövqlü gənc kimi formalaşmasına şərait yaradılmalıdır. Tədqiqat zamanı tələbələrə: «Tələbələrin asudə vaxtından Sizcə nə yolla daha səmərəli və məzmunlu istifadə etmək olar?» sualına tələbələrin çox hissəsi belə hesab edir ki, tələbələri asudə vaxtı boş-boşuna, hədər yerə verməyib, onu planlaşdırmağı, düzgün təşkil etməyi və ondan düzgün, dolğun istifadə etməyi öyrətmək lazım gəlir. İctimai-siyasi mövzularda mühazirələrin sayını artırmaq, fakültativ mühazirə silsilələrini genişləndirmək, ictimai peşə fakültələrinin bölmələrinin işini gücləndirmək, daha çox idman yarışları keçirmək, teatr tamaşalarına, konsertlərə, kinofilmlərinə, sərgilərə daha tez-tez, kollektiv baxışlar təşkil etmək, ölkəmizin tarixi və abidələri ilə tanışlıq

üçün turizm səfərlərinə çıxmaq, yaşlı nəsillərin, əmək və döyüş şöhrəti ilə bağlı olan yerlərə, şəhidlər xiyabanına və «Bayraq meydanı»na daha çox yürüşlər keçirmək təklifləri diqqəti cəlb edir.

Tətil günlərində tələbələrin mənəvi dünyasının daha artıq zənginləşməsi, dünyagörüşünün genişlənməsi, fiziki kamilliyinin və fiziki hazırlığının artırılması üçün geniş imkanlar yaranır. Bu imkanlardan bacarıqla və səmərəli şəkildə istifadə olunmalıdır. Buna nail olmaq üçün hər bir tələbə tətil günləri başlamazdan əvvəl qarşısına müəyyən məqsəd qoymalı, özü üçün müvafiq rejim cədvəli tərtib etməlidir.

Tələbələrin vaxt büdcəsindən səmərəli istifadənin məqsədəuyğun təşkili üçün bir sıra sosial-pedaqoji və psixoloji tələblərin gözlənilməsi vacibdir:

- tələbələrin asudə vaxt büdcəsinin sistematik və diferensial (fakültə və kursdan asılı olaraq) surətdə öyrənilməsi;
- fakültə və kursdan, fəaliyyət növlərindən, nəzərdə tutulan və görülən işlərin xarakterindən asılı olaraq tələbələrin əmək (zehni və fiziki) və istirahət rejiminin optimal surətdə təşkil edilməsi;
- əqli əmək və fəal istirahət gigiyenasının, vaxt rejiminin əhəmiyyətinin izahı və təbliği;
- fakültələr və kurslar üzrə vaxt büdcəsini düzgün, mənalı və dolğun təşkil edən fakültə və kurs tələbələrinin əldə etdiyi nailiyyətlərinin optimal modellərinin təbliği və yayılması;
- tələbələrin kollektiv elmi, mədəni, əxlaqi və estetik fəaliyyətinin təşkili;

- kollektiv əmək və istirahət prosesində tələbələrdə ünsiyyət mədəniyyətinin tərbiyə edilməsi;

- tələbə-müəllim əməkdaşlığını, ünsiyyət münasibətlərinin müntəzəm inkişaf etdirilməsi və s.

5.3. Tələbələrin asudə vaxtının və istirahətinin səmərəli təşkilinə ictimai təşkilatların, fakültə dekanları və ictimai tərbiyə kafedralarının rəhbərliyi

Tələbələrin asudə vaxtı ölkəmizin mənəvi sərvətidir. Ali məktəb rəhbərlərinin, dekanlıqların, kafedraların, ictimai təşkilatların, asudə vaxt mərkəzlərinin əsas vəzifəsi tələbələrin asudə vaxtlarından daha səmərəli və sərfəli istifadə etmələri üçün lazımi şərait yaratmaqdan ibarətdir.

Asudə vaxtın təşkil və strukturunun təkmilləşdirilməsi düşünüldüyü kimi, o qədər də sadə məsələ deyildir.

Asudə vaxt çoxcəhətli bir prosesdir. Burada bir çox vacib məsələlərin düzgün, həm də kompleks həll edilməsi tələb olunur. Bu, hər şeydən əvvəl, tələbənin sərvət meylindən, maraq və motivasiyasından, tərbiyəlilik səviyyəsindən, özünüifadə etmək qabiliyyətindən, ünsiyyət münasibətindən, həyat mövqeyi və ictimai fəallığından asılıdır. Bu işdə ali məktəblərin dekanlıqları, ictimai təşkilatları, ictimai elmlər kafedraları, kitabxanalar, fakültə tələbə gənclər təşkilatı, fakültə həmkarlar təşkilatı, tələbə gənclər təşkilatı, tələbə elmi cəmiyyəti və s.  öz işlərini əlaqələndirə bilməlidirlər.

Ali məktəb rektorluğu, tərbiyə işləri üzrə prorektor, dekanlıqlar, ictimai kafedralar, tələbə həmkarlar təşkilatı, ali məktəbdə olan mövcud bazadan: saraylardan, klublardan, ki-

tabxanalardan, stadionlardan, studiyalardan siyasi-tərbiyə, kütləvi-mədəni və idman işinin genişləndirilməsi üçün maksimum səmərə ilə istifadə etməli, tələbələrin asudə vaxtının və istirahətinin məzmunlu təşkili təmin olunmalıdır. Mövcud bazadan tələbələrin asudə vaxtdan səmərəli istifadə olunması üçün məsuliyyət rektorluğun, dekanlıqlar, ictimai kafedraların üzərinə düşür.

Birinci kursdan başlayaraq tələbələr müntəzəm olaraq bədən tərbiyəsi və idman məşğələlərinə, bədii özfəaliyyət dərnəklərinə, klubların, asudə vaxt mərkəzinin işinə cəlb edilməli, onların könüllü iştirakı üçün şərait yaradılmalı, tələbələrin vətəndaşlıq tərbiyəsində turizmdən və ekskursiyadan, idmanın hərbi-texniki növündən geniş istifadə olunmalıdır. Asudə vaxtın təşkili və strukturunun təkmilləşdirilməsi sahəsində bütün çoxcəhətli iş dekanlıqların və ictimai kafedraların rəhbərliyi altında aparılır. Hər bir ali məktəb bu sahədə işini məktəbdənkənar mədəniyyət, idman, məktəb, tədris müəssisələrinin, əmək kollektivlərinin fəaliyyəti ilə mütəmadi olaraq əlaqələndirməlidirlər. Bir çox ali məktəblərdə yaradılmış xüsusi qərargahlar, şuralar, komissiyalar bu sahədə müəyyən iş görür, asudə vaxtı əlaqələndirir, planlaşdırır və nəzarət edirlər. Asudə vaxtın perspektiv planlaşdırılması da çox vacib məsələdir. Bu iş planlaşdırılarkən bütün fakültə rəhbərləri aktiv iştirak etməli, geniş tədbirlər proqramı müəyyən edilməlidir.

Fakültə tələbələrin elmi işə cəlb olunması intensivləşdirməli, fakültə tələbə elmi cəmiyyəti xətti ilə onların elmi konfranslarda, simpoziumlarda fəal iştirakı təmin olunmalı-

dır. Fakültə tələbələri yalnız təhsil göstəriciləri ilə deyil, həm də ali məktəbin ictimai həyatında aktiv fəaliyyəti ilə fərqlənməlidirlər. Bu sahədə ictimai elm kafedralarının üzərinə ciddi iş düşür. Faktlar göstərir ki, ali məktəblərdə elmi-nəzəri və elmi-praktik konfransların, ən aktual problemlər üzrə disputların keçirilməsi ənənəyə çevrilmişdir. Bu konfranslarda və disputlarda həm professor-müəllim heyətinin, nümayəndələri, həm də müxtəlif kursları təmsil edən magistr və tələbələr ciddi elmi maraq doğuran məruzələrlə çıxış edirlər. Tələbə gənclərin asudə vaxtının təşkili də fakültə rəhbərlərinin və gənclər təşkilatlarının diqqət mərkəzindədir. Universitetlərarası keçirilən müxtəlif idman yarışlarında, bədii özfəaliyyət dərnəklərində fakültə gəncləri müəyyən uğurlar qazanır, öz istedadlarını nümayiş etdirirlər.

Tələbələrin asudə vaxtının məzmunlu, dolğun və mənalı təşkilində ali məktəb müəlliminin tərbiyəçi kimi rolu əvəzsizdir. Bu, hər şeydən əvvəl, ali məktəbdə təlim prosesinin və ictimai həyatın iştirakçısı, təşkili və rəhbəri olan müəllimin əməyi ilə müəyyənləşir. Müəllimin dərin elmi, nəzəri, peşə hazırlığı, həyat təcrübəsi, davranışı, mədəniyyəti, ali məktəbdə özünəməxsus tərbiyəvi mühit yaradır. Təlim əməyini və tərbiyə prosesini vəhdətdə həyata keçirən pedaqoq tərbiyə sahəsində də az-çox müvəffəqiyyət qazana bilir. Tələbəni heç vaxt təlimdənkənar vaxtda belə tək qoymaq olmaz, ona etibarlı, məsləhətçi, mənəvi dəstək lazımdır. Bu vəzifəni yalnız müəllim-tərbiyəçi öz üzərinə götürə bilər. Müəllimin ancaq elmi, yeni texnologiyanı bilməsi kifayət

deyil. Prometey funksiyasını öz üzərinə götürən müəllim həm də tələbələrlə işləmək bacarığına malik olmalıdır.

Ali məktəb müəllimi təkcə himayəçi, nəzarətçi, qəyyum rolunu oynamamalıdır, o, əsil nümunə, nüfuz sahibi olmalıdır. O, ali məktəb kollektivinin yüksək mədəniyyətinin daşıyıcısı olduğunu bir an belə unutmamalı, elmi erudisiyası, dərin biliyi, ideyalılığı, mədəni davranışı və hərəkətləri, aydın və səlis nitqi ilə fərqlənməlidir. Müəllim özünün təlim-tərbiyə fəaliyyətini qurarkən, tələbə auditoriyasının xüsusiyyətlərini, bilik və hazırlıq səviyyəsini, seçdikləri ixtisası, təhsil ilini müstəqil işləmək bacarığını, praktik təcrübəsini və digər mühüm amilləri mütləq nəzərə almalıdır.

Məlumdur ki, tələbə həm də ali məktəbdə tərbiyə prosesinin aktiv iştirakçısıdır. Ona görə də, müəllim tələbə təşəbbüskarlığının, müstəqilliyinin, özfəaliyyətinin təşkilatçısı, təhrikedicisi kimi çıxış etməli, tərbiyəvi tədbirlərin, asudə vaxtın təşkilində həlledici rolu onların üzərinə qoymağı bacarmalıdır. Tərbiyə işinin məhz bu cür qoyuluşu tələbələrdə təşkilatçılıq bacarıqlarını və siyasi-ideoloji bilikləri inkişaf etdirir. Ali məktəbdə məhz belə bir sfera yaradılması tərbiyə işinin əsas məqsədi olmalıdır.

Tələbə kollektivi içərisində tərbiyə işi aparmaq müəllimdən dərin və hərtərəfli bilik, kommunikativ bacarıq və xüsusi hazırlıq tələb edir. Ali məktəbdə təhsil və tərbiyənin, təlim və elmi işin, ideya və siyasi, əmək və estetik, fiziki və ekoloji hüquqi tərbiyənin vəhdəti bir məqsədə – gələcək fəal, mədəni, möhkəm əqidəyə malik mütəxəssislərin tərbiyəsinə yö-

nəldilməlidir. Tələbə özfəaliyyətinin, bədii yaradıcılıq, siyasi təbliğat, tələbə klubları kimi iş formalarının da tərbiyəvi imkanları çox böyükdür və müəllim bu imkanlardan istifadə etməlidir. Fəlsəfi dialoqlar, gənc mühazirəçilər məktəbi, «dəyirmi stol» ətrafında söhbətlər, ədəbi diskussiyalar, peşə klubları, təbliğat və təşviqat işləri müəllimin tərbiyə məqsədilə istifadə elə biləcəyi iş formalarıdır.

Tələbələr gələcək pedaqoji fəaliyyətində yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkili metodikasına pedaqoji təcrübə müddətində yiyələnirlər.

Pedaqoji təcrübə əsasən təlim-tərbiyə xarakteri daşıyır. Onun gedişində müəllimlərin və metodistlərin rəhbərliyi altında gələcək müəllimlərdə pedaqoji və təşkilatçılıq bacarıqları formalaşır. Təcrübəçi tələbələr sinifdənxaric və məktəbdənkənar tərbiyə işlərini təşkil edərkən, gələcək fəaliyyətinin təşkilatçıları kimi həm orta məktəbdə şagirdlərin asudə vaxtının təşkili xüsusiyyətlərinə və metodikasına sahib olurlar:

- Ali məktəblərin bütün pedaqoji heyəti, dekanlıqlar, kafedra əməkdaşları, ictimai təşkilatlar, asudə vaxt mərkəzləri tələbə gənclərin asudə vaxtının təşkilini həmişə diqqət mərkəzində saxlamalıdırlar;
- Məcburi və müstəqil işlərə sərf edilən vaxt arasındakı nisbət tələbənin xeyrinə dəyişdirilməli;
- Tələbələrin asudə vaxtdan səmərəli istifadə etmələrinə nəzarət artırılması;
- Tələbələrin kafedra üzrə və kitabxanalarda asudə vaxtlarından istifadə edilməli;

- Tələbələrin əmək və istirahətinin elmi təşkili ilə bağlı informasiya verilməli, müvafiq bacarıq və vərdişlər aşılamalı;

- Əmək və istirahətin mədəni təşkili tələbə məişətinin ayrılmaz tərkib hissəsinə çevrilməli;

- Tələbə gənclərin aktiv təlimdənkənar fəaliyyətinin kollektiv formaları inkişaf etdirilməli;

- Tələbələrdə asudə vaxtın düzgün, məzmunlu və dolğun təşkili və vaxt büdcəsi mədəniyyəti inkişaf etdirilməli;

- Tədris yükü, məcburi məşğələləri mümkün qədər yüngülləşdirilməli.

## 3.3. Asudə vaxtın səmərəli təşkilində oyunların rolu

Asudə vaxtın oyun şəklində təşkili şəxsiyyətin ahəngdar inkişafında unikal əhəmiyyət kəsb edir. Oyunlar universal xarakter daşıyır və bütün yaş dövrlərini əhatə edir. Uşağın həyat və fəaliyyətində oyun müstəsna rol oynayır. Uşaq ətraf aləmi oyun vasitəsilə dərk edir. Məktəbəqədər yaşlı uşaqların bütün həyatını, onun əsas fəaliyyət sahəsini əhatə edir. Kiçik məktəb yaşında oyun istiqamətini dəyişir. Müstəqil, sərbəst həyata keçirilən məişət oyunları daha məntiqi xarakter alır. Bir oyun digəri ilə – idrak oyunu ilə əvəz olunur. Məktəbli oyunda özünü tapır, şəxsi fəallığı artır. Yeniyetməlik və gənclik yaşında oyun gerçəkliyin dərk olunmasına, ünsiyyət münasibətlərinin formalaşması üsulu kimi çıxış edir. A.S.Makarenkonun fikrincə, «uşaqlıq yaşında oyun normadır. Uşaq həmişə oynamalıdır, hətta ən gərgin şəraitdə belə oynamalıdır. Uşaq-

larda oynamaq ehtirası güclüdür, onu təmin etmək lazımdır. Yaşlı adamın həyatında fəaliyyət, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun o qədər vacib və əhəmiyyətlidir. Uşaq oyunda necədirsə, həyat da elədir». Oyun öz təbiəti etibarilə sosial-psixoloji hadisədir. Yeniyetmə və gənclərin oyuna tələbatları daha güclüdür. Oyun insandan həmişə müvafiq səy tələb edir. Oyun həmişə ciddi hal almalı, müəyyən məqsədə istiqamətlənməlidir. İnsan oyunda nailiyyət əldə etmək üçün ciddi səy göstərməli, səylə məqsədə doğru getməlidir. Düşüncə səyi tələb etməyən oyun pis oyundur.

Oyunda uşaqların qarşısında dünya açılır, şəxsiyyətin yaradıcı qabiliyyəti üzə çıxır. Oyunsuz dolğun, məzmunlu, hərtərəfli inkişaf mümkün deyil. Oyun çox böyük işıqlı pəncərədir. Həmin pəncərədən yeniyetmə və gənclərin mənəvi aləminə ətraf aləm haqqında təsəvvürlərin, anlayışların həyatverici axını daxil olur.

Oyun hər şeylə maraqlanmaq, biliyə səy göstərmək odunu yandıran qığılcımdır. Hələ, vaxtilə Çex pedaqoqu Y.A.Komenski insan həyatını oda bənzədərək qeyd edirdi ki, külək olmadan od yanmadığı kimi, oyun, məşq, hərəkət olmadan da uşaq böyüyüb inkişaf edə bilməz. Oyun, hərəkət bir növ işdir, fəaliyyətdir. İşsizlik, hərəkətsizlik bədənə və ruha ziyandır.

Oyun insanda qalibiyyət sevinci, yaradıcılıq sevinci doğurur. Hər hansı bir oyun növü (futbol, voleybol, şahmat, müxtəlif stolüstü oyunlar, basketbol və s.) uduşla, qələbə ilə bağlı olduğundan uşaqda şüurlu intizam, səy, ehtiras tərbiyə edir. Oyun uşaqda yaradıcı düşünmə qabiliyyəti, şəraiti düzgün

qiymətləndirmək qabiliyyətini inkişaf etdirir, gözəl yerinə yetirilmiş bir hərəki oyun uşaqda fərəh hissi doğurur, onu yeni-yeni qələbələrə ruhlandırır.

Psixoloqlar oyunun həm sərbəst, həm də qaydalara əsaslanan bir fəaliyyət kimi paradoks olduğunu çoxdan müşahidə etmişlər. Oyunun tərbiyəvi səmərəsi də elə ondan irəli gəlir ki, oyun qaydaları sırf daxili özünüməhdudlaşdırma və özünütəyinetmə və özünüifadə qaydalarıdır. Beləliklə, sərbəst fəaliyyət olan oyun, xüsusən, məhz ona görə səmərəli tərbiyə edir ki, oyunçu tərəfindən müqavimətə rast gəlmir. Oyunun mənəvi təsirinin təbiəti oyun davranışının iki planlı olması ilə əlaqədardır: oyunda hərəkətlər şərtidir, bu hərəkətlər zamanı keçirilən hiss və fikirlər realdır. Məhz bu cəhət oyunçuya bilavasitə elə sosial təcrübə əldə etməyə imkan verir ki, bu təcrübə onun mühüm həyati vəziyyətləri nəinki öyrənməsinə, həm də hiss etməsinə kömək edir. Bu fəaliyyətin mərkəzində həmişə «mən oyunçuyam» fikri durur və həmin fəaliyyəti prosesində ictimai əhəmiyyəti olan cəhətlər şəxsi məna kəsb edir. Yeniyetmə və gənclərin oyunu sosial münasibətlərin spesifik modeli olduğuna görə, onlar üçün gələcək davranışa hazırlıq məktəbinə çevrilir. A.S.Makarenko və D.S.Vıqotski insanın oyunda özünü «daha yüksəkdə» hiss etməsi, «özündən bir baş yuxarı» qalxması, yüksək mənəvi nailiyyətlər, yəni sabah onun orta səviyyəsi olacaq, adət etdiyi əxlaqi olacaq mənəvi nailiyyətləri» əldə etməsi üçün bir imkan olduğunu göstərirdilər. Kollektiv fəaliyyət kimi təşkil olunmuş oyun hər bir ayrıca yeniyetmə və gəncin oynamağa başlamasına kömək edir. Səhnələşdirmə oyun şəraitin yaranmasına kömək göstə-

rır, yeniyetmə və gənclərin adi vəziyyətdən uzaqlaşmasını asanlaşdırır, oyunu təşkil edərək onu pedaqoji nöqteyi-nəzərdən lazımi məcraya yönəldir, onu təkcə oyunçu üçün deyil, tamaşaçılar üçün də estetik şərait olan bədii əsərə yaxınlaşdırır. Oyun yeniyetmə və gənclər üçün mənəvi tələbat vasitəsidir. Yeniyetmə və gənclər üçün oyun, sözün geniş mənasında həyati məsələdir, sosiallaşma vasitəsidir. Pedaqogika elmində oyunun çoxlu sayda təsnifatı verilmişdir:

1. Xalq oyunları (uşaqların öz təşəbbüsü ilə, yaşlıların iştirakı ilə);
2. Süjetli-rollu oyunlar (dəqiq struktura: rol, süjet, oyun qaydaları, oyun hərəkətləri, oyun davranışı);
3. Teatrlaşdırılmış, səhnələşdirilmiş oyunlar;
4. Təxəyyülü inkişaf etdirən oyunlar;
5. Psixotexniki oyunlar (müxtəlif psixi prosesləri, vəziyyəti (emosiya, hisslər), kommunikativ bacarıq və vərdişləri və s.);
6. İşgüzar pedaqoji oyunlar;
7. Didaktik oyunlar.

Məktəbəqədər yaşda sujetli-rollu oyunlar həlledici fəaliyyət növü kimi xarakterizə olunur.

Məktəbəqədər yaşda oyun daha çox tematik, idman tipində təşkil olunur. «Kim daha güclü və çevikdir», «Nağıllar aləminə səyahət» və b. Yuxarı yaşlarda isə oyun daha çox ədəbi-intellektual tipdə təşkil olunur. «Riyazi KVM», «Müəmma və cavab gecələri» və s.

1 – Azərbaycan Xalq pedaqogikasının ən qiymətli yadigar-

ları sırasında milli oyunların özünəməxsus yeri var. Ululanmızın yaratdıqları xalq oyunlarının əksəriyyəti tarix boyu ən dəyərli sərvətlər kimi qorunmuş, zaman-zaman təkmilləşdirilmiş, gəlib çağdaş dövrümüzə çıxmışdır. İnsanın bir şəxsiyyət kimi formalaşmasında oyunlar müstəsna rol oynayır. Xüsusilə yeniyetmə və gənclər üçün oyun ciddi tərbiyə vasitəsidir, fiziki kamillik məktəbdir. Milli oyunların bir qismi həssaslıq, mütəşəkkillik, intizamlılıq kimi mənəvi keyfiyyətlərin formalaşmasına, bir qismi nitqin inkişafına, uşağın söz ehtiyatını zənginləşdirməyə, bir qismi dözümlülük, qoçaqlıq, cəldlik, iradi-fiziki keyfiyyətlərin təşəkkülünə, başqa qismi fəhmin, fərasətin, zövqün, gözəllik hissinin tərbiyəsinə xidmət edir. Uşağı əməyə, ailə həyatına, ətraf mühitin təmizliyini qorumağa hazırlayan xalq oyunları da az deyil. Milli oyunlar (Dirədöymə, Çövkan, Vur nağara, çıx qırağa, «Adı gözəl», «Qurd və çoban», «Artırmaq», «Bənövşə, bəndə düşə», «Səməndər ay Səməndər», «Cızagirmə», «Zorxana», «Topaldı çaq», «Kosa-kosa», «Əlimi bıçaq kəsibdir», «Süddən sülük», «Xala-xala», «Teatrlaşdırılmış küçə oyunları və s.) növ etibarilə çox rəngarəngdir və insanın bütün yaş dövrlərini əhatə edir. İstər uşaqlar, istərsə də yeniyetmə və gənclər, qızlar, gəlinlər, yaşlı kişi və qadınlar üçün onlarca, yüzlərcə oyunlarımız vardır.

Yeniyetmə və gənclərin asudə vaxtının oyun şəklində təşkili onların əla istirahət etmələri üçün əsas amildir.

Məktəb tədris proqramlarında milli fiziki təmrinlərə və mütəhərrik xalq oyunlarına xüsusi saat ayrılmalıdır. Yaddan çıxarmaq olmaz ki, bəzən tərbiyəvi dərsləri və idman məşğə-

ləri təkcə yeniyetmə və gənclərin fiziki inkişafına xidmət etməməlidir. Burada tədricən milli zəmin, milli köklər üzərində qurulması fiziki inkişafla yanaşı, yeniyetmə və gənclərdə milli mənsubiyyətin formalaşmasına da imkan yaradır. Bu cür milli fiziki oyunlar yeniyetmə və gənclərin sağlamlığını möhkəmləndirməklə yanaşı, vətənə, doğma torpağa məhəbbət, milli iftixar hissi formalaşdırır. Çünki milli oyunlarda güc, qüvvət, sürət, çəldlik və s. kimi fiziki keyfiyyətlər daha qabarıq əks olunub. Yeniyetmə və gənclər bu milli idman elementlərini mənimsədikdə ulu xalqımızın qədim mədəniyyəti, adəti və ənənələri ilə yaxından tanış olurlar.

Oğuz bayramları zamanı yerdə böyük ipək xalı döşənər, səksən yerdə meydan açılar, el-oba igidləri hünərlərini göstərərlər, pəhləvanlar meydan dolanıb qurşaq tutar, at minib nizə tullayır, kaman çəkib oxu üzükdən keçirərdilər. Sonra hamılıqla yığılıb ov ovlayar, quş vurar, ceyran-cüyür yıxardılar. Beləcə oğuz övladları el-oba oyunlarında yarışa-yarışa bərkiyər, ad qazanar, yurdumuzun igid qurucularına çevrilirdilər. Əsgi mədəniyyətimizin yaraşığı olan bu oyunlar tariximiz kimi nəsildən-nəslə keçərək bu gün onun idman ritualına çevrilmişdir. El oyunlarımız vardır ki, onlar ən yaxşı düşünülmüş metafora olan tapmacalarla, insanda riyazi bilikləri, bioloji məlumatları aşkara çıxaran, dərinləşdirən, düşündürücü suallarla bağlı olmuşdur.

«Oyun tapmaca», «Say saymaq», «Mərəkördü», «Düşün tap», «Tutan buraxmaz», «Üçüncü artıqdır», «Bənövşə, bəndə düşər» və s. oyunlar bu cəhətdən diqqəti cəlb edir.

Xalqın yaratdığı sözlü oyunlara bənzər maraqlı vasitələrdən biri də yanıltmaclardır. Onlar tez-tez deyilməsi vacib olan söz birləşməsi əsasında qurulur və uşaqlarda çətin sözləri düzgün tələffüz etmək bacarığı, diqqətli olmaq keyfiyyətlərini, səlis danışmaq vərdişlərini formalaşdırmaq məqsədini daşıyır. Başqa sözlə desək, uşaqlarda o, nitqin və diqqətin inkişafına kömək göstərir.

Uşaq həyatının, istirahətinin oyun-tapmaca şəklində təşkili də böyük pedaqoji əhəmiyyət kəsb edir. Tapmaca hər hansı bir hadisə və ya şeyi bənzətmə yolu ilə qəsdən dumanlı şəkildə göstərən yığcam məcazi ifadədir. Tarix boyu uşaqların təlim-tərbiyəsi işində tapmacalardan geniş istifadə olunmuşdur. Müasir nöqteyi-nəzərdən yanaşsaq tapmacalar, uşaqların intellektual, zehni inkişafında yaradıcı, evristik metod kimi çıxış edir. Çünki təlimin evristik üsulunda olduğu kimi, hər bir tapmacada da cismin, əşyanın, hadisənin və s. müəyyən əlamətləri, nişanələri, yaxud xüsusiyyətlərə istinad etməklə nəzərdə tutulan əşyanın, cismi tapmaq tələb olunur. Bu cavab tapma prosesində uşağın təfəkkürü fəaliyyətə gəlir, zehni axtarışlar, fikri araşdırmalar baş verir. Nəticədə uşağın zehni inkişaf edir, hafizəsi yeni biliklərlə zənginləşir. Yeniyetmə və gəncin istirahətini, asudə vaxtın belə təşkil etmək necə də mənalıdır. Tapmacalar yaradıcı oyun xarakterlidir.

Asudə vaxtın səmərəli təşkilində süjetli-rollu oyunlar da az əhəmiyyət kəsb etmir. Yeniyetmə və gənclərin həyatında bu tipli oyunlar böyük tərbiyəvi rol oynayır. Yeniyetmə və gənclər bu oyunda simvolik inkişafın ən yüksək səviyyəsinə çatmış insanlar kimi rəftar edirlər. Onlar əşyalardan təkcə onla-

rın birbaşa təyinatlarına görə istifadə etməyi öyrənmirlər, həm də oyunun mənasına uyğun davranırlar. Süjetli-rollu oyunlar zamanı yeniyetmə və gənclər digər insanlarla uşaqlar və yaşlılarla qarşılıqlı təsirdə olurlar. Süjetli-rollu oyunda insanların əşyalarla davranış qaydalarını və müxtəlif sosial vəziyyətdə bir-birlərilə davranma üsullarını əxz edir, buna görə də uşaq ünsiyyətin forma və normalarına, o cümlədən, rollu davranışı daha yaxşı mənimsəyir. Funksional nöqteyi-nəzərdən süjetli-rollu oyunlara uşağın ictimai həyatda müxtəlif sosial rollarda iştirakına hazırlıq kimi baxmaq olar.

Süjetli-rollu oyunlar dəqiq struktura malikdirlər: rol, süjet, oyun hərəkəti, oyun qaydaları, oyun davranışı və s. süjetli-rollu oyunlar yeniyetmə və gənclərdə əyani obrazlı, məntiqi təfəkkürü, həm də mücərrəd təfəkkürü inkişaf etdirir. Əyani-obrazlı təfəkkür bu təfəkkürün ali formasının yaranması üçün zəmin hazırlayır, bunun sayəsində insanda sözlü-məntiqi təfəkkür formalaşır.

Yeniyetmə və gənclərin asudə vaxtının səmərəli təşkilində teatrlaşdırılmış, səhnələşdirilmiş oyunlar da mühüm yer tutur. Səhnələşdirilmiş oyun həyatdan təcrid edilmiş, ayrılmış tamaşa deyildir. Burada tamaşaçı ilə «aktyor» arasında, yaradıcılıqla həyati hadisə arasında sədd çəkmək çətindir. Səhnələşdirilmiş oyun yeniyetmə və gənclərin həyatının xüsusi oyun tərzi ilə tərtib edilmiş, öz problemləri, həll edilməmiş məsələləri ilə birlikdə götürülmüş həyat fraqmentidir. Oynayarkən yeniyetmə və gənclər həmin məsələləri həll etməyi öyrənirlər. Buna görə də, bu cür uşaq bədii özfəaliyyətinin çıxışlarının xüsusi gücü bu çıxışların birdəfəlik olmasında, onların improvi-

zasiya xarakteri daşımasındadır. Səhnələşdirilmiş oyun hökmən tamaşaçıların olmasını tələb etmir, tamaşaçılar, əlbəttə vardır, yoxsa oyun öz ictimai əhəmiyyətini oyunçular üçün itirmiş olardı, iş orasındadır ki, səhnələşdirilmiş oyunlarda tamaşaçıların özləri də oynayırlar. Yeniyetmə və gənclərin real həyat problemlərinin özü oyun süjetlərinin seçilməsini tələb edir. Bunlar «Cəhalətin mühakiməsi», «Cəngavər gecəsi», «Mətbuat konfransı» və ya hər hansı bir səhnə əsərindəki süjetlər ola bilər. Oyun xarakterində olan uşaq bədii özfəaliyyəti bu funksional incəsənətdir, çünki bu incəsənət bədii funksiya da daşıyır və bu funksiya vasitəsilə konkret mənəvi, sosial və pedaqoji məsələlərin həllinə kömək edir. Məlumdur ki, rolları olan səhnələşdirilmiş oyun sərbəst həyata keçirilən bir zərurət kimi davranışın formalaşdırılması metodudur. Səhnələşdirilmiş oyunlar yeniyetmə və gənclərin sosial əhəmiyyətli fəaliyyət dairəsini genişləndirir. Onlar bu fəaliyyətdə ətraf həyatın mühüm ictimai halları ilə şəxsən əlaqədar olduqlarını ifadə etmək imkanı əldə edirlər. Oyun fəaliyyətinin mərkəzində həmişə «Mən oyunçuyam» fikri durur və həmin fəaliyyət prosesində ictimai əhəmiyyəti olan şəxsi məna kəsb edir. Məsələn: «Cəhalətin mühakiməsi»ndə ittihamçı rolunu oynayan gənc biliklərə passiv münasibət göstərilməsinə coşğun bir surətdə barışmaz olmağı öyrənir.

Yeniyetmə və gənclərin şəxsiyyət kimi formalaşmasında və onların asudə vaxtının səmərəli təşkilində pedaqoji oyunların da müəyyən payı vardır. Pedaqoji oyunlar qədim dövrlərin müxtəlif təlim-tərbiyə ənənələrinin yaranması ilə meydana gəlib. Pedaqoji oyunlar – işgüzar oyunlar, təlim oyunları, di-

daktik oyunlar mənasında işlədilir. Müasir ümumtəhsil və ali məktəblərində pedaqoji oyunlardan – işgüzar oyunlardan həm mühazirə (məktəb mühazirəsi), həm də praktik məşğələlərin aparılmasında, geniş istifadə olunur. İşgüzar oyunlar təkcə təlim məqsədlərini deyil, həm də tərbiyə vəzifələrini səmərəli surətdə həyata keçirməyə imkan verir. İşgüzar oyunlarda müxtəlif vasitələrin (söz, nitq, qrafiklər, cədvəllər, müxtəlif tipli sənədlər və s.) köməyilə müvafiq fəaliyyət üçün səciyyəvi olan şərait yaradılır.

İşgüzar oyunlar yeniyetmə və gənclər qərarlar qəbul etmə maraqlarını başqalarının marağına tabe edən, oyunda tərəf-müqabilə qarşılıqlı münasibət, informasiyadan istifadə etmək, təhlil etmək, qabaqcıl təcrübəni mənimsəmək, yaradıcılıq atmosferi, əsaslandırmaq, polemikaya girmək, öz mövqeyini müdafiə etmək, proqnozlaşdırmaq, nəzarət etmək, adaptasiya və s. keyftyyətlərin inkişafına və formalaşmasına şərait yaradır.

İşgüzar oyunlar yeniyetmə və gənclərin fəaliyyətini oyun modelinə salır, onlar problem xarakteri daşıdığından idraki fəallığı artırır, oyun iştirakçılarının birgə fəaliyyətini və qarşılıqlı ünsiyyətini reallaşdırır, oyun iştirakçılarında dioloji ünsiyyəti formalaşdırır.

İşgüzar oyunlar yeniyetmə və gənclərdə praktik məqsədləri, oyun məqsədləri, tədqiqatçılıq məqsədləri, həm də pedaqoji-didaktik və tərbiyəvi məqsədləri həyata keçirir.

Asudə vaxtın işgüzar oyun formasında təşkili yeniyetmə və gənclər üçün həm də özünütərbiyə vasitəsidir.

İşgüzar oyunlar:

- Yeniyetmə və gənclərdə öz fəaliyyətini təhlil etməsi və qiymətləndirməsi;

- Yeniyetmə və gənclər oyun prosesində öz mövqeyini düzgün başa düşməsi;

- Sinfin, kollektivin təlim-idrak və tərbiyə fəaliyyətinin məqsəd və vəzifələrini düzgün dərk etməsi;

- Yeniyetmə və gənclərin mikrokollektivdə özünü idarə edə bilməsi;

- Yeniyetmə və gənclərdə müsbət əxlaqi keyfiyyətlərin formalaşması və s. funksiyaları yerinə yetirməsilə ölçülür.

Ancaq bir məqsədlə (məsələn: hər hansı pedaqoji prosesin təşkili ilə bağlı bacarıqların formalaşdırılması) təşkil edilən oyunlardan fərqli olaraq kompakt pedaqoji oyunlar həm idraki, həm də tərbiyə məqsədlərini səmərəli və məhsuldar formada həyata keçirməyə imkan verir.

İşgüzar oyunları: tədqiqatçılıq oyunları, didaktik oyunlar, refleksiv oyunlar, diaqnostik oyunlar, motivləşdirici oyunlar və psixoloji oyunlar kimi təsnif etmək olar.

İşgüzar oyunlar texnologiyalarının təşkili ilə əlaqədar olaraq bəzi tövsiyələrin nəzərə alınması vacibdir:

- Pedaqoji oyunlardan ancaq zərurət olduğu hallarda istifadə olunmalıdır;

- Pedaqoji oyunlar uşaq, yeniyetmə və gənclərin digər formalarına təsiri diqqət mərkəzində olmalıdır;

- Pedaqoji oyunlar yeniyetmə və gənclərdə diskussiya mədəniyyəti formalaşdırmağa xidmət etməlidir;

- Pedaqoji oyunlar hədsiz dərəcədə ehtiraslı oyuna çevrilməməlidir;

- Oyun özünüidarə prinsipi əsasında qurulmalıdır;

- Pedaqoji oyunlar həm təlim, həm də tərbiyə vəzifələrinin vəhdət halında reallaşdırılmasına yönəldilməlidir;

- Oyun həm kollektiv daxilində, həm də kollektivlər arasında münasibətlərin inkişafı üçün əlverişli şərait yaratmalıdır;

- Pedaqoji oyunlar yeniyetmə və gənclərdə gələcək ixtisasları ilə bağlı bilikləri mənimsəmək, dərk etmək və tətbiq etmək, işi planlaşdırmaq, təhlil və sintez etmək, fərdi və kollektiv iş zamanı özünə nəzarət etmək, təlim-idrak fəaliyyəti prosesində təzahür edən yeni situasiyalarda məqsəd və vəzifələri düzgün qiymətləndirmək, öz fəaliyyətini şəxsi və sosial aspektdə təhlil və korreksiya etmək bacarıqları formalaşdırmaqla yanaşı, onlarda təlim-idrak motivlərinin, tələbatının inkişafına səbəb olmalıdır;

- müəllim və tərbiyəçilər yeniyetmə və gənclərin asudə vaxtının oyun şəklində təşkili və keçirilməsi üçün məsuliyyət daşımalıdır;

- Pedaqoji oyunların effektivliyi yeniyetmə və gənclərə gələcək peşə bacarıqları və vərdişləri aşılanması və möhkəmləndirilməsi ilə yanaşı, həm də tərbiyəvi funksiyaları yerinə yetirməsilə ölçülməlidir.

# ƏDƏBİYYATLAR


1. Azərbaycan Respublikasının Təhsil Qanunu, B., 2009.
2. Azərbaycan Respublikasının Təhsil Konsepsiyası (Milli Kurikulum), Bakı, 2006
3. Azərbaycan Respublikasında ümumi təhsilin inkişafı üzrə Dövlət Proqramı, Bakı, 2009
4. Azərbaycan 2020: Gələcəyə Baxış inkişaf konsepsiyası. Bakı, 2012
5. Azərbaycan Respublikasında ali təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Bakı, 2013
6. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. B., 2010.
7. Abdulov R. Aktual sosial problemlər. Azərbaycan məktəbi, 2004, N 2
8. Abdulov R. Məktəbdə sosial-pedaqoji işin əsasları. “Adiloğlu”, Bakı, 2005
9. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. B. 2021
10. Əlizadə H.Ə., Mahmudova R. Sosial pedaqogika. B., 2013
11. İbrahimov F.N., Hüseynzadə R.L. Pedaqogika, 2 cild. B., 2013
12. İmamverdiyeva N.B., Mirzəliyeva N.S., Yeniyetməlik və yetginlik yaşına çatmış uşaqların sosiallaşmasına ailədaxili münasibətlərin təsiri Bakı 2022
13. Qasımova L.N., Məktəblilərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi təcrübəsindən Bakı 2005

14. Həşimov Ə.Ş., Sadıxov F. Azərbaycan Xalq Pedaqogikası. Bakı. 1993
15. Asudə vaxt və mənəvi tərbiyə. Bakı, 1981
16. Aslanlı M. Fiziki mədəniyyət və mənəvi kamillik. Bakı, "Maarif". 1993
17. Əhmədov Ə. Mənəviyyat, gözəllik, tərbiyə. Bakı, 1993
18. Pedaqogika elminin inkişafında yeni mərhələ. Beynəlxalq konfrans materialları. Bakı, 2011
19. Təhsilin inkişaf strategiyası və onun reallaşdırılması. Respublika elmi konfransının materialları, Bakı, 2015
20. Dadaşova T. Pedaqoji-psixoloji düşüncələr. Bakı, 2006
21. Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqogikası. B., 2007
22. Sinif rəhbəri haqqında Əsasnamə. Bakı, 2009
23. Quliyev S.M., Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti Bakı 1982
24. Adams, G. (2000). Adolescent Development the Essential Readings. Blackwell Publishers Ltd. UK: Oxford
25. Adams, G.R. and Berzonsky, M.D. (2003). Blackwell Handbook of Adolescence, Australia: Blackwell Publishing.
26. Trost J. LAT relationships now and in future. In: K. Matthijs (Ed.), The family: Contemporary perspectives and challenges. Leuven University Press,1998
27. UNICEF, "Family-friendly policies: redesigning the workplace of the future", policy brief, July 2019.

**N.İmamverdiyeva, S.Cəfərova, N.Mirzəliyeva**

**“Yeniyetmə və gənclərin asudə vaxtının təşkili”**

*(Ali məktəblərin magistratura pilləsi üçün)*

Naşir: Elnarə Abbasova
Texniki redaktor: Asim Səfərov
Operator: Həmidə Bağırova

---

Yığılmağa verilmişdir: 23.02.2023
Çapa imzalanmışdır: 18.03.2023
Format: 60 x 84, 1/16; şərti çap vərəqi: 8,5;
tiraj: 100 nüsxə
“Füyuzat” nəşriyyatının mətbəəsində
çap edilmişdir.
Ünvan: Bakı şəh., Z.Xəlilov küç., 26
Tel.: 055 850-98-69